# Xalq qəzeti

Xalqın qəzeti!

№ 223 (30339) 13 oktyabr 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az


**Günün sözü**

**Prezident İlham ƏLİYEV:**

Azərbaycanda rus mədəniyyətinə, rus dilinə, əsrlər boyu xalqlarımızı birləşdirmiş və bu gün də birləşdirən nə varsa, hamısına çox qayğı ilə yanaşırlar. Ölkələrimiz arasında tamdəyərli tərəfdaşlıq, dostluq, mehriban qonşuluq münasibətləri var.

# Azərbaycan – Rusiya: yaxın qonşular, strateji tərəfdaşlar

## *Azərbaycan Prezidenti İlham Əliyevin Qırğızıstana səfəri*

### "Manas" Beynəlxalq Hava Limanında qarşılanma



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün oktyabrın 12-də Qırğız Respublikasına səfərə gəlib.**

Bişkek şəhərinin "Manas" Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini Qırğızıstan Nazirlər Kabinetinin sədri – Prezident Administrasiyasının rəhbəri Akılbek Japarov və digər rəsmi şəxslər qarşıladılar.

### İlham Əliyevin Vladimir Putinlə görüşü



**Oktyabrın 12-də Bişkekdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşü olub.**

**Prezident Vladimir Putin çıxış edərək dedi:** Hörmətli İlham Heydər oğlu, Sizi görməyimə çox şadam. Biz sonuncu dəfə Sizinlə telefonla danışmışdıq. Əlbəttə, açıq demək lazımdır ki, burada bir nömrəli məsələ Qarabağ ətrafındakı vəziyyətdir. Bizim başqa gündəliyimiz də var, o, kifayət qədər genişdir. Təklif edirəm ki, işimizi aşağıdakı kimi quraq: onda biz ikinci hissədən başlaya bilərik, həmkarlarımıza öz fikirlərini söyləməyə, danışmağa imkan verək. Sonra isə üz-üzə qalaq və söhbət edək, məsələlərin bütün kompleksi, o cümlədən, belə desək, həssas məsələlər üzrə danışaq.

**Prezident İlham Əliyev:** Vladimir Vladimiroviç, sağ olun. Sizi yenidən görməyimə şadam. Sizin də qeyd etdiyiniz kimi, biz bu yaxınlarda söhbət etmişik. Sevindirici haldır ki, Siz Qırğızıstana dövlət səfəriniz çərçivəsində görüşmək üçün vaxt tapdınız. Əslində, məsələlər çoxdur. Hesab edirəm ki, Sizin təklifiniz tamamilə məntiqlidir. Biz həmkarlarımızla ikitərəfli gündəliklə bağlı danışacağıq, həm də bizim danışmağa mövzularımız çoxdur. Bu ilin həm əmtəə dövriyyəsi, həm sənaye kooperasiyası, həm də nəqliyyat sahəsində əməkdaşlıq üzrə nəticələri olduqca yaxşıdır. Çoxlu layihələr var. Sonra isə regional mövzulara və təhlükəsizlik məsələlərinə keçərik. Görüşə görə bir daha təşəkkür edirəm.

*(ardı 2-ci səhifədə)*

# Tarixi Zəfərimizin memarı



**Türk dünyasında Yeni əsrin liderlərindən olan İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsindən 20 il keçir. 2003-cü il oktyabrın 15-də ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı kimi, cənab İlham Əliyev xalqımızın etimadını qazanaraq Azərbaycan Prezidenti seçildi və bununla da ölkəmizin inkişafında yeni bir mərhələ başlandı. Həqiqətən, ötən illərə və hazırda dayandığımız nöqtəyə nəzər salsaq, görərik ki, İlham Əliyevin liderliyi ilə Azərbaycan möhtəşəm uğurlar qazanmış, Yaxın və Orta Şərqin, bütün postsovet məkanının ən nüfuzlu dövlətlərindən birinə çevrilmişdir.**

*(ardı 3-cü səhifədə)*

# Fransa və Cənubi Qafqazda sülhə qarşı "gilyotin"

**"Biz yada salmalıyıq ki, Fransa ATƏT-in Minsk qrupunun həmsədri necə oldu? Mən çox yaxşı bunu bilirəm. Çünki atam mənə danışmışdı. O vaxt Fransa Prezidenti Jak Şirak buna çox israr edirdi. Heydər Əliyev isə buna etiraz edirdi.**



Dəfələrlə etiraz eləyirdi və ondan sonra Jak Şirak mənə, hətta, dəfələrlə bu əhvalatı danışırdı və atama da böyük hörmətlə yanaşırdı. Deyirdi, o, mənə deyirdi ki, mən şəxsən sizə qarşı yox, Fransanın orada həmsədr olmasına qarşıyam. Çünki, bilirsiz də ermənilər çox böyük təsirə malikdirlər və sizin siyasətinizə təsir edəcəklər. Mən isə onu inandırırdım ki, biz həmişə neytral olacağıq. Ancaq bundan sonra Heydər Əliyev ona razılıq verdi. Doğrudan da, elə idi. İndi onların neytral olması, doğrudan da, təbii idi. Yoxsa ki, ona görə neytral idilər ki, məsələ öz həllini tapmırdı, onu mən deyə bilmərəm. Amma onu deməliyəm ki, həmişə Fransa, indiki hökumətə qədər, balansı saxlamağa çalışırdı". Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev bu ilin əvvəlində yerli televiziya kanallarına müsahibəsində bildirib.

Dövlətimizin başçısının söylədiklərində bir məqam diqqət çəkməkdədir. O, illərlə Azərbaycan və Ermənistan münasibətlərinin həllini tapmadığını bildirir və Fransanın vaxtilə nümayiş etdirdiyi neytrallığın mövcud xüsusda olduğuna eyham vurur. Ancaq o da məlumdur ki, 44 günlük müharibə zamanı və ondan sonrakı mərhələdə Parisin zahiri tərəfsizliyi yoxa, aşkar ermənipərəstliyi üzə çıxdı. Azərbaycanın Vətən müharibəsindəki zəfəri bir çox maskaları yırtdığı kimi, Fransanın da maskasını söküb atdı.

*(ardı 8-ci səhifədə)*

# Paşinyanın qorxusu – Bişkek gerçəyi "Qranada mifi"ni dağıda bilərdi

**Baş nazir Nikol Paşinyanın MDB Dövlət Başçıları Şurasının Bişkekdəki növbəti iclasına qatılmaqdan imtina etməsi Ermənistanda müzakirə predmetinə çevrilməkdədir. Müzakirənin motivləri barədə söz açmazdan əvvəl bildirək ki, Rusiya tərəfi Qırğızıstanın paytaxtında Azərbaycan Prezidenti İlham Əliyevlə Paşinyanın görüşünün təşkilini planlaşdırırdı. Görüşün həm ikitərəfli, həm də Prezident Vladimir Putinin iştirakı ilə keçirilməsi nəzərdə tutulurdu.**

Heç şübhəsiz, MDB Dövlət Başçıları Şurasının iclası narazılıqların və ziddiyyətli məqamların nəzərdən keçirilməsi baxımından yaxşı platformadır. O anlamda ki, ümumən tərəflərin bir-biri ilə danışıq aparması, bir sıra məsələlərdə ortaq baxışları müəyyənləşdirməsi müsbət haldır. Lakin dediyimiz kimi, N.Paşinyan Bişkekə getmədi. Ermənistan toplantıda heç xarici işlər naziri səviyyəsində də təmsil olunmadı. Orada yalnız nazirliyin departament rəhbərinin müavini iştirak etdi ki, bu da MDB dövlətlərinə münasibətdə böyük saygısızlıq kimi qiymətləndirilməlidir. Hərçənd, niyyətimiz heç də sırf belə



halları diqqətə çatdırmaq deyil. Çünki İrəvanın bu qurumu, xüsusən Rusiyanı "görməzdən gəlməsi" son illərin, belə demək mümkünsə, siyasi trendinə çevrilib.

*(ardı 8-ci səhifədə)*

# Fransa var gücü ilə "hücuma keçib"



Səhifə ⇨ 6

# Azərbaycanın keyfiyyət meyarları beynəlxalq səviyyədədir

**Dünyada baş verən iqtisadi çağırışlara uyğun olaraq respublikamızda istehsal olunan malların texniki səviyyəsinin, bazarın və istehlakçıların tələblərinə, istehsal prosesinə, eləcə də keyfiyyətin qiymətləndirilməsinə, həmçinin xidmət sferasının təşkilinə müasir yanaşma tələb olunur. Bu mühüm amil nəzərə alınaraq hazırda ölkədə texniki tənzimləmə və milli standartlaşdırma sistemi beynəlxalq tələblərə uyğun formalaşdırılır, qanunvericilik və institusional sahədə konkret layihələr həyata keçirilir. Şübhəsiz ki, bu zaman "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" və "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023–2025-ci illər üçün Dövlət Proqramı"nda bu istiqamətdə qarşıya qoyulan konkret tədbirlərə əsaslanılır.**

*(ardı 7-ci səhifədə)*

# İlham Əliyevin Vladimir Putinlə görüşü



*(əvvəli 1-ci səhifədə)*

**Prezident Vladimir Putin:** Sağ olun.

Görüşdə ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin inkişafından, xüsusilə ticarət dövriyyəsinin artmasından məmnunluq ifadə olundu.

Regionlararası əməkdaşlıq məsələsinə toxunularaq, Azərbaycanın Rusiyanın 70 regionu ilə uğurlu əməkdaşlığı qeyd edildi, bu xüsusda mütəmadi əsasda keçirilən regionlararası forumun vacib platforma olduğu bildirildi.

Söhbət zamanı Şimal–Cənub Nəqliyyat Dəhlizinin inkişafından, onun potensialının genişləndirilməsindən və bütövlükdə həm dəmir yolu, həm də avtomobil yolları vasitəsilə yükdaşımaların həcminin bu marşrut boyunca artmasından məmnunluq ifadə olundu.

Humanitar sahədə əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulandı, bu baxımdan, Azərbaycanda rus dilinə qayğı, xeyli sayda ali və orta təhsil müəssisəsində rus dilinin tədrisi qeyd edildi.

Söhbət zamanı kənd təsərrüfatı sahəsində əməkdaşlığın genişləndirilməsinin önəminə də toxunuldu.

Görüşdə Azərbaycan ilə Rusiya arasında hökumətlərarası Dövlət Komissiyasının fəaliyyətinin vacibliyi qeyd olundu.

***AZƏRTAC***

# Ceyhun Bayramovun məktubu BMT sənədləri kimi yayılıb

**Xarici İşlər naziri Ceyhun Bayramovun ölkəmiz tərəfindən Azərbaycanın Qarabağ bölgəsində aparılmış lokal xarakterli antiterror tədbirlərinin nəticələri, ərazilərdə qanunsuz fəaliyyətini davam etdirən erməni silahlı qüvvələrinin tərksilah edilməsinə dair sentyabrın 27-də BMT Baş katibinə ünvanladığı məktub və tərksilah prosesi çərçivəsində təslim edilmiş silah və sursatların fotoşəkillərini əks etdirən əlavə məlumat BMT Təhlükəsizlik Şurasının və Baş Assambleyanın sənədləri kimi yayılıb.**

Məktubda Azərbaycanın Qarabağ bölgəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyinə təhdidlər törədən erməni silahlı qüvvələrinin qanunsuz mövcudluğuna son qoymaq məqsədilə ölkəmizin beynəlxalq humanitar hüquqa tam şəkildə uyğun olaraq özünün suveren ərazisində həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərinin nəticələri barədə məlumat verilib.

Bu kontekstdə ölkəmiz tərəfindən aparılan erməni silahlı qüvvələrinin tərksilah prosesi, demobilizasiya və reinteqrasiya səyləri barədə məlumat verilib.

Sonda ölkəmizin yerli erməni sakinlərinin bütün hüquqlarının və təhlükəsizliyinin təmin edilməsi, habelə Azərbaycanın sosial, iqtisadi, hüquqi və konstitusion çərçivəsinə reinteqrasiyası istiqamətində səylərə sarsılmaz sadiqliyi bir daha vurğulanıb, bu tarixi məqamda beynəlxalq ictimaiyyət tərəfindən nifrət və düşmənçiliyə yönəlmiş istənilən səyləri qətiyyətlə rədd etməyə və dinc yanaşı yaşamaq səylərini dəstəkləməyə çağırış edilib.

# XİN rəhbəri MDB Xarici İşlər Nazirləri Şurasının iclasında

Oktyabrın 12-də Xarici İşlər naziri Ceyhun Bayramov Qırğız Respublikasına işgüzar səfəri çərçivəsində MDB Xarici İşlər Nazirləri Şurasının iclasında çıxış edib.

Nazir Ceyhun Bayramov 2025-ci ildə MDB Oyunlarına evsahibliyi edəcək ikinci ən böyük şəhərimiz Gəncədə sözügedən idman tədbirinin həyata keçirilməsi üçün görülən işlərdən bəhs edib. Eyni zamanda, 2025-ci ilin İkinci Dünya müharibəsi zamanı faşizm üzərində Qələbənin 80-ci ildönümünün qeyd edilməsi ilə əlamətdar olduğu, bu xüsusda qələbənin qazanılmasına böyük töhfələr vermiş Azərbaycanın həyata keçiriləcək tədbirlərə bağlı planının qəbul olunmasını dəstəklədiyi diqqətə çatdırılıb.

Nazir Ceyhun Bayramov bu kimi görüşlərin çoxtərəfli əməkdaşlıq perspektivlərinin müzakirəsi baxımından əhəmiyyətini qeyd edərək, bu xüsusda MDB çərçivəsində mütəmadi təşkil olunan siyasi məsləhətləşmələrin vacib rolundan bəhs edib, növbəti il ərzində də qəbul olunmuş məsləhətləşmələr planının münasibətlərin inkişafına müsbət töhfə verəcəyinə dair inamını ifadə edib.

***XQ***

# Azərbaycan neokolonial ambisiyası olmayan ölkələrlə əməkdaşlığa açıqdır

**Oktyabrın 11-də BMT-nin İnsan Hüquqları Şurasının 54-cü sessiyası zamanı Azərbaycan Respublikasının nümayəndə heyəti Fransanın bəyanatına cavab olaraq bəyanatla çıxış edib.**

Ermənistan mətbuatında yayılan və 34 ölkənin birgə bəyanatı kimi təqdim edilən bəyanat, əslində, yalnız Fransa və Ermənistan adından verilib.

Azərbaycan nümayəndə heyəti öz bəyanatında Fransanın səsləndirdiyi əsassız ittihamları rədd edərək, onun ölkəmizdə baş verən siyasi proseslərə açıq-aşkar müdaxilə cəhdini pisləyib.

Bəyanatda, həmçinin Azərbaycanın regionda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi üçün çalışdığı, Fransanın Azərbaycan tərəfindən beynəlxalq tərəfdaş, vasitəçi və ya BMT Təhlükəsizlik Şurasının daimi üzvü kimi etibarının sıfıra bərabər olduğu diqqətə çatdırılıb.

Azərbaycan nümayəndə heyəti Fransanın təklif etdiyi tədbirləri və təşəbbüsləri, sadəcə olaraq, rəsmi Parisin təklifi olduğu üçün rədd edib. Vurğulanıb ki, Azərbaycan neokolonial imperiya ambisiyaları olmayan və ya dünyanın bu hissəsində itirilmiş statusunu dirçəltməyə cəhdlər göstərməyən etibarlı tərəfdaşlarla münasibətlərə və əməkdaşlığa açıqdır.

***XQ***

# Türkmənistanın Müstəqillik Günü münasibətilə Bakıda rəsmi qəbul

**Oktyabrın 12-də Bakıda Türkmənistanın müstəqilliyinin 32-ci ildönümü münasibətilə rəsmi qəbul təşkil olunub.**



Tədbiri giriş sözü ilə açan Türkmənistanın ölkəmizdəki səfiri Qurbanməmmet Elyasov iki ölkə rəhbərlərinin səyləri nəticəsində ölkələrimiz arasında mehriban dostluq və qonşuluq münasibətlərinin daha da inkişaf etdiyini, ikitərəfli strateji tərəfdaşlığımız daha da dərinləşdiyini diqqətə çatdırıb.

Ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərdən danışan diplomat bu münasibətlərin daha da dərinləşməsində Azərbaycan Prezidenti İlham Əliyevin və Türkmənistanın Prezidenti Sərdar Berdiməhəmmədovun böyük xidmətləri olduğunu vurğulayıb.

Azərbaycanın Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev bildirib ki, Türkmənistan və Azərbaycanı ortaq tarix, dil, din və adət-ənənələr birləşdirir. Etnik, dərin tarixi köklərlə bir-birinə bağlı olan ölkələrimiz arasındakı əlaqələr strateji tərəfdaşlığa əsaslanır.

Qardaş Türkmənistanı Müstəqillik Günü münasibətilə təbrik edən Azərbaycan Ağsaqqallar Şurasının sədri Eldar Quliyev ölkələrimiz arasında ikitərəfli münasibətlərdən danışıb və əlaqələrimizin yüksələn xətlə inkişaf etdiyini deyib.

Türkmənistanın mədəniyyət naziri Atageldi Şahmuradov tədbirdə iştirak etməkdən məmnunluğunu bildirib. O, Şuşanın TÜRKSOY-un mədəniyyət paytaxtı seçilməsinin önəmini vurğulayıb.

***XQ***

# İspaniyanın Kralı Əlahəzrət VI Felipeyə

**Əlahəzrət,**

İspaniya Krallığının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost İspaniya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 oktyabr 2023-cü il**

# Dövlət qurumlarının ictimaiyyətlə əlaqə əməkdaşları Türkiyədə

**Azərbaycan Respublikasında dövlət kommunikasiyasının təkmilləşdirilməsi və bu sahədə təcrübə mübadiləsi məqsədilə Türkiyə Respublikası Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin dəvəti ilə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası tərəfindən 30 dövlət qurumunun ictimaiyyətlə əlaqələr sahəsinə məsul əməkdaşlarından ibarət nümayəndə heyətinin Türkiyə Respublikasına səfəri təşkil edilib.**



Səfərin ilk günü oktyabrın 11-də Türkiyə Respublikası Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsində görüş keçirilib.

Görüşlər zamanı Azərbaycan və Türkiyə arasında informasiya və dövlət kommunikasiyası sahəsində birgə əməkdaşlıq məsələləri müzakirə edilib.

Türkiyə Respublikası Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin məsul nümayəndələri tərəfindən ictimai diplomatiya, media yayımı, xarici media ilə əlaqələr, dezinformasiya ilə mübarizə, Türkiyə brendi, kommunikasiya sahəsində insan resurslarının idarə edilməsi mövzularında təqdimatlar edilib.

Nümayəndə heyətinin Türkiyə Respublikasına səfəri davam edir. Səfər çərçivəsində Türkiyə Respublikasının Xarici İşlər Nazirliyi, Milli Müdafiə Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Anadolu Agentliyi, TRT World, Radio və Televiziya Ali Şurası (RTÜK) və digər qurumlarda görüşlər keçiriləcək.

# Şimali Kipr Türk Respublikasının Prezidentinin şərəfinə ziyafət

**Bakıda Şimali Kipr Türk Respublikasının Prezidenti Ersin Tatarın şərəfinə ziyafət verilib.**



Mərasimdə türk və azərbaycanlı iş adamları, diplomatlar və media nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən Şimali Kipr Türk Respublikasının Prezidenti Ersin Tatar Azərbaycanla Şimali Kipr arasında bütün sahələrdə münasibətlərin möhkəmləndirilməsi üçün nümayiş etdirdiyi siyasi iradəyə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib.

Prezident son illərdə Azərbaycan, Türkiyə və Şimali Kipr Türk Respublikası arasındakı münasibətlərin daha da dərinləşməsindən məmnunluğunu ifadə edib.

Daha sonra Şimali Kipr Türk Respublikasının milli rəqsləri təqdim olunub.

***XQ***

# Xankəndidə sığınacaq fəaliyyət göstərir

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ölkəmizin Xankəndi şəhərində həssas əhali qruplarından olan şəxslər üçün 30 nəfərlik sığınacaq yaradılıb.**



Bunun üçün Xankəndinin mərkəzində 30 çarpayılıq yataq otaqları, su, elektrik sistemi, mətbəxi, sanitar qovşağı, istirahət otağı və camaşırxanası olan üçmərtəbəli bina ayrılıb. Binada təmizlik və müvafiq təchizat işləri yekunlaşıb və 10 oktyabr 2023-cü il tarixdən sığınacağa sakinlərin qəbuluna başlanıb.

Onlar burada gündə 3 dəfə isti yemək və qəlyanaltı ilə təmin olunurlar. Sığınacağın xarici təhlükəsizliyi polis tərəfindən təmin edilir.

Sığınacaqda çalışmaq üçün 2 psixoloq və 2 sosial işçi cari il sentyabrın 30-dan Xankəndi şəhərinə ezam olunub, orada sakinlərin ilkin ehtiyaclarını və psixo-sosial vəziyyətini qiymətləndiriblər. Qiymətləndirmə aparılan şəxslərin yaşadıqları yerlərə gedilərək, onlara sığınacağın yeri və qida təminatı barədə məlumatlar da verilib.

Artıq 6 nəfər sığınacağa yerləşdirilib, 1 nəfər aidiyyəti üzrə tibbi xidmət göstərilməsi üçün yönləndirilib, ümumilikdə, 11 nəfər sığınacağın xidmətlərindən istifadə edib.

Həmin psixoloq və sosial işçilər tərəfindən hazırda sığınacaq sakinlərinə sosial xidmətlər göstərilir. Sığınacaqda çalışmaq üçün həmçinin aşbaz, texniki işçilər və s. ezam olunub.

Sığınacağa yerləşdirmə könüllü xarakter daşıyır, gecə qalmaq istəməyənlərə də gündə 3 dəfə qida, zəruri geyim və sosial xidmətlərdən yararlanmaq imkanı yaradılıb.

Beynəlxalq Qızıl Xaç Komitəsinin nümayəndələri də gün ərzində bir neçə dəfə sığınacağı ziyarət edir, şəraitlə tanış olur, ərzaq, qida təminatı, göstərilən sosial xidmətlərlə maraqlanırlar.

***XQ***

# Tarixi Zəfərimizin memarı



*(əvvəli 1-ci səhifədə)*

1993-cü ilin ortalarında – Heydər Əliyev siyasi rəhbərliyə qayıtdığı dövrdə dövlət müstəqilliyini itirmək, parçalanmaq təhlükəsi ilə üzbəüz olan müstəqil Azərbaycan Respublikası Ulu öndərin zəngin idarəetmə təcrübəsi və qətiyyəti sayəsində yeni inkişaf yoluna qədəm qoydu. Ümummilli liderin siyasi kursunun yeganə düzgün yol olduğunu görən xalqımız 2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə onun layiqli varisi İlham Əliyevi dəstəkləyərək 76,8 faiz səslə onu özünə rəhbər seçdi. Prezident İlham Əliyevin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti çox keçmədən öz müsbət nəticələrini verdi. Xalqın öz liderinə inam və etimadı görülməmiş dərəcədə artdı. Məhz buna görə də 2008-ci, 2013-cü və 2018-ci illərdə keçirilən prezident seçkilərində də İlham Əliyev yenidən inamlı qələbə qazandı.

Əsrə bərabər 20 ilin zirvəsində, təbii ki, işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsindəki qəti qələbəmiz və son anti-terror tədbirləri nəticəsində erməni separatçılarının tam tərk-silah edilməsi, onların nəzarətində olan Xankəndi, Əsgəran, Ağdərə, Xocavənd şəhərlərinin azad edilməsi və əli Azərbaycan xalqının qanına batmış terrorçu liderlərin həbs olunaraq Bakıya gətirilməsi dayanır. Mübaliğəsiz demək olar ki, Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı. Azərbaycan qalib ölkəyə, xalqımız müzəffər xalqa çevrildi. Bu Qələbə sayəsində regionda yeni geostrateji reallıqlar yarandı.

Tarixə nəzər salsaq görərik ki, ötən son 20 ildə Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, silahlı qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində nə qədər ardıcıl tədbirlər görülüb. Bunun nəticəsidir ki, Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında yer alır. Məhz bu ordu öz Ali Baş Komandanının qüdrətli sərkərdəliyi ilə 2020-ci il sentyabrın 27-də Ermənistanın hərbi təcavüzünə cavab olaraq qurtuluş savaşını başladı və dünyanı heyrətə salan hərbi uğurlara imza atdı. 30 ilə yaxın müddətdə işğal altında qalan torpaqlarımız 44 gün ərzində azad olundu. Qarabağın tacı, döyünən ürəyi olan Şuşanın fəthi tariximizə Zəfər Günü kimi yazıldı. İki gün sonra isə işğalçı Ermənistan təslimolma sənədinə imza atmağa məcbur oldu. Beləliklə, BMT Təhlükəsizlik Şurasının 27 il kağız üzərində qalmış qətnamələrini Azərbaycan özü icra etdi.

Dünya hərb tarixində xüsusi yer tutan bu müharibə Prezident İlham Əliyevin daha bir keyfiyyətini – sərkərdəlik məharətini üzə çıxardı. O, əməliyyatlara şəxsən nəzarət edir, döyüşən orduya tapşırıqları birbaşa özü verirdi.

Qələbəni şərtləndirən mühüm amillərdən biri də Azərbaycan Prezidentinin diplomatiya müstəvisində çevik siyasəti oldu. Müharibə dövründə dövlətimizin başçısı İlham Əliyev xarici media vasitələrinə 30-dan çox müsahibə verdi ki, bu da münaqişə ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasında mühüm rol oynadı. Bu gün ölkəmiz yalnız regionun deyil, eləcə də, dünyanın ən güclü dövlətlərindən biridir. İstər iqtisadi, istər siyasi, istərsə də uğurlu idarəçilik modelinin tətbiqində Azərbaycan fenomeni dünyada öz sözünü deməkdədir.

Əlbəttə, Vətən müharibəsində qazanılmış Qələbə həm də son 30 ildə həyatın bütün sahələrində əldə olunmuş uğurlarla, dinamik inkişafla bilavasitə bağlıdır. İlk növbədə, güclü və qüdrətli dövlət yaratmaq lazım gəlirdi və Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, Azərbaycan heç vaxt indiki qədər güclü olmayıb. Ötən 20 il ərzində ölkə rəhbəri xalqa verdiyi bütün vədləri yerinə yetirib.

Bu müddət ərzində ölkəmizin bütün sahələrdə sürətli inkişafına müşahidə edilib, insanların sosial-rifah halı daha da yaxşılaşıb, siyasi və hərbi reytinqimiz bütün dünyada nəzərəçarpacaq dərəcədə artıb. Təkcə iqtisadi və sosial sahədə qazanılmış bir neçə göstəricini diqqətə çatdırmaqla ötən 20 ildə ölkə iqtisadiyyatının nə qədər artdığını qeyd etmək olar. Belə ki, yoxsulluğun minimuma endirilməsini, 2 milyondan çox yeni iş yerlərinin açılması, əməkhaqları və pensiyaların dəfələrlə artırılması, hər şeydən öncə, azad edilən Qarabağ və Şərqi Zəngəzur torpaqlarında abadlıq-quruculuq işlərinin fövqəladə sürətlə aparıldığını bildirmək kifayətdir. Bu ərazilərdə yeni yollar çəkilir, elektrik stansiyaları tikilir, Prezident İlham Əliyev azad edilmiş rayonlara çoxsaylı səfərləri zamanı strateji infrastruktur obyektlərinin açılışını edir, yenilərinin təməlini qoyur. Füzuli aeroportu artıq təyyarələri qəbul etməyə hazırdır, Şuşaya gedən Zəfər yolunun tikintisi tamamlanmaq üzrədir. Ağdam və Cəbrayıl şəhərlərinin bərpasının təməli qoyulub. Dövlət başçımız haqlı olaraq vurğulayır ki, Qarabağ tezliklə cənnətə çevriləcək, keçmiş məcburi köçkünlər maksimum qısa müddətdə doğma yurdlarına qayıdacaqlar. İndi bu proses sürətlə aparılır.

Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün dünyada bir sıra transmilli layihələrin təşəbbüskarı və uğurlu icraçısı, həmçinin, etibarlı tərəfdaş kimi tanınır. Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri, Azərbaycan qazını Avropaya çatdıran Cənub Qaz Dəhlizi, TAP layihəsi, Avropanı Asiya ilə birləşdirən Bakı–Tbilisi–Qars dəmir yolu, Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizləri... ölkəmizi energetika və nəqliyyat mərkəzinə çevirib.

Azərbaycan bu gün dünyanın məhdud saylı kosmik ölkələri sırasında yer alır. "Azerspace-1", "Azersky" və "Azerspace-2" peykləri orbitdə uğurla fəaliyyət göstərir.

Prezident İlham Əliyev dövlət strukturlarının fəaliyyətinin təkmilləşdirilməsi və şəffaflığın artırılması, vətəndaşlara yüksək səviyyəli xidmətlərin göstərilməsi istiqamətində layihələrin, inqilabi islahatların müəllifidir. Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyini – “ASAN xidmət” mərkəzlərini buna misal göstərmək olar.

Son 20 il ərzində Azərbaycan dünyada həm də mühüm beynəlxalq tədbirlərin, yarışların keçirildiyi ölkə kimi tanınıb. Bakı "Eurovision" mahnı müsabiqəsinə, ilk Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına, "Formula 1" yarışlarına, futbol üzrə Avropa çempionatının final mərhələsinin bir neçə oyununa evsahibliyi edib.

Ötən dövr Azərbaycanda bütün sahələrin inkişaf etməsi ölkəmizin bölgədə və dünyada mövqelərini gücləndirməsi ilə müşayiət olunub. Prezident İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın müttəfiqlərinin və dostlarının sayını artırıb. Ölkəmiz BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib. Özündə 120 ölkəni birləşdirən və BMT-dən sonra dünyada ən böyük siyasi təsisat olan Qoşulmama Hərəkatına uğurla sədrlik edir. Təşkilata sədrlik müddətinin daha bir il artırılması Prezident İlham Əliyevin qlobal liderlik səylərinə verilən yüksək qiymətdir.

Beləliklə, ötən 20 ildə Azərbaycan xalqı həmişə öz liderinə güvənib və inanıb, ona arxa və dayaq olub. Prezidentimiz həmişə böyük fəxrlə qeyd edir ki, ki, bu uğurların əsasında məhz ölkədəki sağlam ictimai-siyasi mühit, xalqla iqtidarın birliyi dayanır. Bu qarşılıqlı etimadın nəticəsidir ki, Prezident İlham Əliyev Azərbaycan xalqının ürəyini fəth etməyi, özünə əbədi hörmət qazanmağı və verdiyi qərarlar, atdığı misligörünməmiş addımları ilə Vətənini dünyanın sayılıb-seçilən məmləkətlərindən birinə çevirməyi bacarmışdır. Tam əminliklə demək olar ki, dövlət başçısı kimi cənab İlham Əliyevin qərarlarının ölkəmizi bundan sonra da öz arxasınca zirvədən-zirvəyə, qələbədən-qələbəyə aparacağı heç kəsdə şübhə doğurmur.

***Adil ƏLİYEV,***
***Milli Məclis Sədrinin müavini***

# Beynəlxalq ictimaiyyətin yaddaşına ədalət mesajını həkk etmiş lider

## Prezident İlham Əliyev son 20 ildə bu istiqamətdə tarixi dönüş yaradıb

**Bir neçə gündən sonra müasir türk dünyasının ən ünlü simalarından biri, gənc müstəqil Azərbaycan dövlətini beynəlxalq aləmin nüfuzlu aktorlarından birinə çevirmiş İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti postuna seçilməsinin 20 ili tamam olacaq. Cənab İlham Əliyev bu mühüm dövlət vəzifəsinə seçiləndə biz hamımız düşünürdük ki, onun əsas vəzifəsi Azərbaycan xalqının problemlərini həll etmək – yəni ölkəmizin ərazi bütövlüyünün bərpası və respublikamızın hər yerində suverenliyimizin təmin edilməsi olacaq. Təbii ki, bizim gözlədiklərimizin hamısını reallaşdırdı.**



*Qardaşım İlham Əliyevin uzaqgörən liderliyi və müzəffər Ali Baş Komandanlığı ilə azadlığına qovuşan Qarabağın yenidən dirçəldilməsi işlərini yaxından izləyirik. Şuşaya gələrkən bu işləri gördük... Fasiləsiz iş görülür, infrastruktur sahəsində intensiv iş aparılır. Bir tərəfdən yollar salınır, bir tərəfdən enerji stansiyaları açılır, bir tərəfdən yüksəkgərginlikli xətlər çəkilir… Türkiyə olaraq, azadlıq mübarizəsində olduğu kimi, bərpa işlərində də qardaşlarımıza hər cür dəstəyi veririk, verməkdə də davam edəcəyik.*

**Rəcəb Tayyib ƏRDOĞAN,**
**Türkiyə Cümhuriyyətinin Prezidenti**
**Şuşa, 15 iyun 2021-ci il**

Ancaq sonra məlum oldu ki, o, bizim güman etdiyimiz kimi lokal məkanda deyil, daha geniş sferada siyasi fəaliyyət göstərir. Yəni o, türkdilli dövlətlərin iş birliyinin, əməkdaşlığının, Turan ideyası ətrafında daha mütəşəkkil birləşməsinin əsas stimulverənlərindən biri kimi ortaya çıxmağı bacardı və bütün dünyada istədiklərinə nail olan lider nüfuzu qazandı. Nəticədə, Azərbaycan Prezidenti təkcə regional müstəvidə deyil, ümumiyyətlə, bütün Avrasiyada söz sahibinə, bir çox siyasətçilərin səmimi şəkildə məsləhət aldığı dünya miqyaslı siyasətçi statusuna nail oldu.

Bir məqamı da xatırladım ki, Azərbaycanla eyni dövrdə dövlət müstəqilliyinə nail olmuş ölkələrin əksəriyyətində bizə həsədlə baxırlar. Çünki müasir Azərbaycanın BMT Təhlükəsizlik Şurasının sessiyalarına, AŞPA Nazirlər Kabinetinin iclaslarına sədrlik etmiş, sıralarında 120 dövlətin olduğu Qoşulmama Hərəkatına sədrliyi davam etdirən, BMT-nin xüsusi sessiyasının çağırılması təşəbbüsü ilə çıxış edən və ona nail olan, xəyanətkar qonşularımızın iki əsrlik fitnə-fəsad torunu darmadağın edərək ölkənin ərazi bütövlüyünün bərpasına nail olan Lideri var. İlham Əliyev bütün bu keyfiyyətləri ilə son 20 ilin istənilən günündə xalqımıza üzağlığı gətirmişdir.

Bu gün hamı bilir ki, İlham Əliyev Azərbaycanı beynəlxalq kosmik ailənin üzvünə, Bakını dünyanın əksər problemlərinin həlinə çalışan beynəlxalq təşkilatların fəaliyyət mərkəzinə çevirmişdir. Onun sözübütövlüyü, tərəf-müqabillərinə sədaqəti, beynəlxalq hüquqa və dövlətlərarası münasibətlərin təməl prinsiplərinə dərindən bələd olması heç kəsin nəzərindən yayınmadığına görə müasir dünyanın müxtəlif siyasi qütbləri öz aralarındakı problemləri məhz Bakıda müzakirə etməyi məqsədəuyğun hesab edirlər. Mən NATO – Rusiya və ABŞ – Rusiya hərbçilərinin Bakıda keçirilmiş yüksək səviyyəli görüşlərini də nəzərdə tuturam.

Ancaq cənab Prezidentin siyasi fəaliyyətinin başqa bir istiqaməti də var ki, o barədə hər gün yazsaq, yenə də azdır. Həmin istiqamət Türkdilli ölkələrlə əməkdaşlığın qardaşlıq səviyyəsinə qaldırılması üçün atılan addımlardır. Qətiyyətlə deyə bilərəm ki, türk dövlətlərinin hamısında Prezident İlham Əliyevi türk dünyasını Turana doğru aparan lokomotivlərdən biri kimi qəbul edirlər.

Bəri başdan qeyd edim ki, İlham Əliyev təkcə Prezident seçiləndən sonra deyil, hətta Azərbaycan Milli Məclisinin AŞPA-dakı daimi nümayəndə heyətinin rəhbəri olarkən də həmin qurumdakı Azərbaycan və Türkiyə deputatlarının əlbir işləməsinə nail olmuşdu. Bu da AŞPA tarixində ilk dəfə olaraq Ermənistanın işğalçı dövlət kimi tanınmasını sübut edən sənədin qəbul olunması ilə nəticələnmişdi. Onun Azərbaycan Prezidenti seçilməsindən sonra bu istiqamətdə həyata keçirdiyi layihələr və atdığı addımlar isə Türkiyə mətbuatında “türk tarixinin şərəfli səhifələri” olaraq, yaddaşlara yazılmışdır.

Həmin şərəfli səhifələrə bugünkü Türk Dövlətləri Təşkilatının təməli qoyulmuş TDƏŞ-in Naxçıvan Sammitindən Şuşa Bəyannaməsinə qədər olan yoldakı qətiyyət və prinsipiallıqdır. Məmnuniyyətlə xatırladırıq ki, TDT dövlət başçımızın həmin fəaliyyətini həmişə yüksək qiymətləndirmişdir. Elə 2021-ci il noyabrın 12-də İstanbulda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə Azərbaycan Prezidentinə Türk Dünyasının Ali Ordeninin təqdim edilməsi də həmin qiymətləndirmənin nəticələrindən biri idi.

Orada qeyd olunmuşdu ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan Zati-aliləri İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının ərazilərinin işğaldan azad edilməsini və ərazi bütövlüyünün bərpasını təmin edərək türk birliyinə mühüm töhfə verən və bölgədə davamlı sülh və sabitliyin əldə olunmasına yol açan tarixi qələbəyə görə Dövlət Başçıları Şurası Türkiyə Respublikasının Prezidenti Zati-aliləri Rəcəb Tayyib Ərdoğanın təklifi ilə Zati-aliləri İlham Əliyevin böyük şərəflə “Türk Dünyasının Ali Ordeni” ilə təltif edilməsi haqqında qərar qəbul etmişdir.

Ordeni dövlət başçımıza təqdim edən Türkiyə Prezidenti demişdi: “Qətiyyətli rəhbərliyinizlə Qarabağda təxminən otuz il davam edən erməni işğalına 44 gün kimi qısa müddətdə son qoyulub. Bu, təkcə azərbaycanlı qardaşlarımız üçün deyil, bütün Türk dünyası üçün böyük əhəmiyyət daşımaqdadır… Vətən müharibəsi nəticəsində illərdir tətbiq olunmayan BMT Təhlükəsizlik Şurasının qətnamələri həyata keçirilmişdir. Azərbaycan bu yolla beynəlxalq ictimaiyyətin yaddaşına ədalət mesajını həkk etmişdir”.

Ancaq İlham Əliyevin Türk dünyası qarşısındakı titanik xidmətlərinə verilən qiymət bununla bitmir. Belə ki, ötən il avqustun 24-də Azərbaycanda rəsmi səfərdə olan Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev dövlət başçımızı öz ölkəsinin ən ali mükafatlarından olan “Qızıl qartal” (“Altın Kran”) ordeni ilə təltif etmişdir. Bu yüksək qiymətə münasibət bildirən Azərbaycan Prezidenti demişdir: “İlk növbədə, artıq nümayəndə heyətlərinin iştirakı ilə məni Qazaxıstan Respublikasının “Altın kıran” ali ordeni ilə təltif etdiyinizə görə bir daha təşəkkürümü bildirmək istərdim. Bu mükafata layiq görülməyim mənim üçün böyük şərəfdir və mən bunu xalqlarımızın dostluğunun və qardaşlığının təsdiqi, Azərbaycanın münasibətlərimizin möhkəmlənməsi üçün gördüyü işlərə verilən yüksək qiymət hesab edirəm”.

Bəli, Prezident İlham Əliyev Azərbaycanı ucaltdıqca özü də ucalır, Türk dünyasının daha da qüdrətlənməsinə çalışdıqca özü daha da qüdrətlənir, bizi Turana yaxınlaşdırdıqca, özü o böyük səltənətin – Turanın qapılarını döyür. O, Azərbaycan tarixinə uğurlarla dolu onilliklər yazdıqca, biz əmin oluruq ki, qarşıdakı onilliklərimiz daha böyük uğurlarla zəngin olacaq. İnşallah!

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

# Milli Məclisin xüsusi iclası

**Dünən Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasının növbəti iclası keçirilib. Milli Məclisin Sədri Sahibə Qafarova tədbiri açaraq bildirib ki, bugünkü xüsusi iclasın gündəliyinə 1 məsələ - İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20-ci ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı daxil edilib.**



S.Qafarova diqqətə çatdırıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Vətənimizin bu günü və sabahı naminə həyata keçirdiyi möhtəşəm işlərlə xalqımızın dərin hörmət və məhəbbətini qazanıb. Son iyirmi il Azərbaycanın dövlətçilik tarixinə dinamik və hərtərəfli inkişaf dövrü kimi daxil olub. Ölkə həyatının bütün sahələrində böyük uğurlar, misilsiz və qürurverici qələbələr əldə edilib. Azərbaycanın zəngin iqtisadi, siyasi və hərbi potensialı yaradılıb. Bütün bu nailiyyətlərin təməlində ulu öndər Heydər Əliyevin başladığı və möhtərəm Prezident İlham Əliyevin inamla davam etdirdiyi uzaqgörən daxili və xarici siyasət xətti dayanır.

Natiq dedi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən dövrdə ölkə iqtisadiyyatı heyrətamiz inkişaf yolu keçib. Bu inkişafın miqyası haqqında təsəvvür yaratmaq üçün təkcə bir faktı qeyd etmək kifayətdir ki, Azərbaycanda istehsal olunan ümumi daxili məhsul 3,6 dəfə artıb. Dövlət büdcəsinin gəlirləri və xərcləri ildən-ilə əhəmiyyətli dərəcədə artır. İyirmi ilə yaxın dövrdə dövlət büdcəsinin gəlirləri iyirmi beş dəfədən çox, xərcləri isə iyirmi altı dəfə artıb. Həyata keçirilən məqsədli sosial proqramlar sayəsində yoxsulluq səviyyəsi 5,5 faizə düşüb. İnsanların rifah halı yüksəlib. Əhalinin sosial cəhətdən həssas qruplarına dövlət tərəfindən müntəzəm dəstək göstərilir.

Milli Məclisin sədri bu dövrdə ölkəmizin iqtisadi yüksəlişindən, zəngin neft və qaz yataqlarından, nəhəng enerji potensialından səmərəli istifadə edilməsindən də söhbət açıb. Qeyd edib ki, Bakı–Tbilisi–Ceyhan neft kəməri, Bakı–Tbilisi–Ərzurum qaz kəməri, digər layihələr həm indiki, həm də gələcək nəsillərin firavanlığını təmin etməyə yönəlib.

S. Qafarova onu da diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə təmin edilən siyasi və iqtisadi sabitlik, əlverişli biznes mühiti istənilən layihənin uğurla reallaşmasını təmin edir. Ötən dövrdə ölkəmizin iqtisadiyyatına milyardlarla ABŞ dolları məbləğində investisiya qoyulub. Eyni zamanda, Azərbaycan özü də bir sıra regional və qlobal layihələrdə sərmayəçi kimi çıxış edir.

Sahibə xanım vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan beynəlxalq nüfuzunu daha da artırıb. Bu gün ölkəmiz qlobal dialoqda fəal iştirak edir. Dünya dövlətləri ilə münasibətlərdə, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan sanballı sözü və ardıcıl mövqeyi olan bir dövlət kimi tanınır. Xüsusi qeyd edilməlidir ki, Azərbaycan 2012–2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olub, 2019–2022-ci illər üçün dünyanın ikinci ən böyük beynəlxalq təşkilatı olan Qoşulmama Hərəkatına sədr seçilib və sədrlik müddəti daha bir il uzadılıb.

Parlamentin sədri müzəffər Ali Baş Komandan İlham Əliyevin yüksək sərkərdəlik məharəti və Azərbaycan Silahlı Qüvvələrinin döyüş əzmi və rəşadəti, yüksək hərbi-texniki və mənəvi-psixoloji hazırlığı sayəsində xalqımızın 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi Qələbədən danışaraq deyib ki, 30 ilə yaxın Ermənistanın işğalı altında qalan Azərbaycan torpaqları azad edilib və ulu öndər Heydər Əliyev tərəfindən başladılmış tarixi missiya layiqincə sona çatdırılıb. Dünya miqyasında az sayda liderə nəsib olan möhtəşəm Zəfərə imza atmaqla cənab İlham Əliyev öz adını Azərbaycan tarixinə əbədi həkk edib. Azərbaycan dövlətinə qarşı təhdidlərə son qoymaq üçün Ali Baş Komandanın rəhbərliyi ilə bu il sentyabrın 19–20 tarixlərində Qarabağda həyata keçirilən lokal antiterror tədbirləri hərb tariximizin yeni şanlı səhifəsini təşkil etdi. Bu hadisə, ilk növbədə, dövlət başçısı İlham Əliyevin liderliyinə göstərilən ehtiramın ifadəsidir.

Qeyd edilib ki, ölkə Prezidentinin təşəbbüsü və rəhbərliyi ilə dövlət həyatının bütün sahələrində sistemli islahatlar həyata keçirilib. Ölkəmizin siyasi sistemi təkmilləşdirilib. Altıncı çağırış Milli Məclisin və onun komitələrinin rəhbərliyində hakim Yeni Azərbaycan Partiyası ilə yanaşı, müxalif partiyaların nümayəndələri də təmsil olunublar. Hakimiyyətin müxtəlif qolları arasında əməkdaşlıq əlaqələri daha da möhkəmlənib, iqtidarla müxalifət arasında müntəzəm dialoq qurulub. Dövlətimizin başçısının rəhbərliyi ilə xalqımız Vətən müharibəsində və antiterror tədbirlərində göstərdiyi hünərləri Qarabağda və Şərqi Zəngəzurda geniş vüsət alan bərpa və quruculuq işlərində də nümayiş etdirir.

Çıxışının sonunda S. Qafarova dövlət başçısına tarixi missiyasını həyata keçirməkdə yeni böyük uğurlar arzulayıb və bildirib ki, cənab İlham Əliyevin bu missiyasını qanunvericilik fəaliyyəti sahəsində dəstəkləmək üçün Milli Məclis öhdəsinə düşən vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək.

Çıxış edən deputatlar Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın gələcəkdə daha yüksək zirvələr fəth edəcəyi və davamlı uğurlara imza atacağını vurğulayıblar.

Sonra iclasda İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20-ci ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı qəbul edilib.

***Əliqismət BƏDƏLOV***
***XQ***

# İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20-ci ildönümü ilə əlaqədar Milli Məclisin bəyanatı

Ümummilli liderimiz Heydər Əliyevin təməlini qoyduğu inkişaf strategiyasını yeni çağırışlar şəraitində layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev heyrətamiz şəxsi keyfiyyətləri, xalq və dövlət qarşısında müstəsna xidmətləri ilə yeni tarixi dövrün milli lideri səviyyəsinə yüksəlmişdir. Onun rəhbərliyi ilə 20 il öncə həyata keçirilməyə başlanan uzaqgörən daxili və xarici siyasət Azərbaycanı dünyanın ən dinamik inkişaf edən dövlətləri sırasına çıxarmışdır. İlham Əliyevin siyasət sənətinin incəliklərinə dərindən bələdliyi, fenomenal liderlik qabiliyyəti və yaradıcı dövlətçilik təfəkkürü, yenilməz əzmi və iradəsi ölkəmizin müasir simasını müəyyənləşdirməklə yanaşı, Cənubi Qafqaz bölgəsinin geosiyasi mənzərəsini kökündən dəyişmişdir. Milli və dövlətçilik maraqlarımızın qorunması və irəli aparılması, ölkəmizin potensialının artırılması üçün görülən ardıcıl tədbirlər Azərbaycanı öz tarixinin ən qüdrətli dövlətinə və regional güc mərkəzinə çevirmişdir.

Ölkə iqtisadiyyatında sürətli və davamlı inkişaf dövrü yaşanmışdır. Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən nəhəng transmilli layihələr qlobal iqtisadiyyatda mühüm rol oynayır. Energetika sektorunda əldə edilən nailiyyətlər nəinki ölkəmizin enerji müstəqilliyini təmin etmiş, həm də Avrasiyanın energetika xəritəsini dəyişdirmişdir. Hazırda Azərbaycanın bərpaolunan enerjinin istehsalı və ixracı mənbəyinə çevrilməsi üzərində iş aparılır.

Çoxsaylı infrastruktur layihələrinin həyata keçirilməsi Azərbaycanın iqtisadi mənzərəsini daha da zənginləşdirmişdir. Ölkəmiz Avropa ilə Asiyanı bir-birinə sıx bağlayan nəqliyyat-logistika mərkəzinə çevrilmişdir. Qeyri-neft sektorunun, xüsusən, kənd təsərrüfatının, informasiya texnologiyalarının və turizmin inkişafı dayanıqlı iqtisadi tərəqqi amillərindən biri olmuşdur.

2013-cü ildə ilk peykinin buraxılmasından sonra Azərbaycan kosmik klubun üzvü olmuşdur və bu gün kosmik fəzanın istifadəsi sahəsində fəaliyyətini 3 peyklə davam etdirir. Ölkəmizin kosmik strategiyası uzunmüddətli perspektivə yönəlmişdir və dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir.

Həyata keçirilən əsaslı islahatlar dövlət idarəçiliyi sistemini müasir tələblər səviyyəsində qurmağa imkan vermişdir. Ölkənin siyasi həyatı müasir çağırışlara uyğunlaşdırılmış, çoxpartiyalı sistem təkmilləşdirilmişdir.

İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası cəmiyyətin siyasi həyatında önəmli rol oynayır. Digər siyasi qüvvələrin, o cümlədən, müxalif partiyaların sərbəst fəaliyyəti üçün hüquqi əsaslar təkmilləşdirilmişdir. Milli-mənəvi dəyərlərin qorunması, elm və təhsilin, mədəniyyət və incəsənətin inkişafı sahəsində əməli addımlar atılmışdır.

Azərbaycanda qanunun aliliyi təmin edilmiş, insan hüquqlarının və azadlıqlarının qorunması dövlətin ali məqsədinə çevrilmiş, vətəndaş cəmiyyətinin inkişafına əlverişli şərait yaradılmışdır. Həyata keçirilən düşünülmüş tədbirlər sayəsində ölkəmiz dünyada multikulturalizm mərkəzlərindən biri kimi tanınır. Azərbaycanın dünyaya təqdim etdiyi demokratik cəmiyyət nümunəsi etnik mənsubiyyətindən və dini etiqadından asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verilməsinə, bütün xalqların mədəni sərvətlərinin, müxtəlif dinlərə etiqad edən insanların mənəvi dəyərlərinin qorunmasına və inkişafına əsaslanır.

Müxtəlif sivilizasiyaların və mədəniyyətlərin nümayəndələrini bir araya gətirən dünya və Avropa miqyaslı tədbirlərin ölkəmizdə keçirilməsi ənənə halını almışdır. Bakı nüfuzlu beynəlxalq toplantılara, humanitar forumlara, mədəniyyətlərarası dialoq məclislərinə, böyük idman yarışlarına evsahibliyi edir.

Hər bir azərbaycanlının Prezidenti olmağı bacaran İlham Əliyev azərbaycançılıq, müstəqillik və dövlətçilik amalları naminə ölkədə milli həmrəyliyin möhkəmləndirilməsini daim diqqət mərkəzində saxlayır. Sayına və intellektual potensialına görə dünyanın qüdrətli xalqları ilə bir sırada dayanan Azərbaycan xalqının mütəşəkkil qüvvə kimi formalaşmasının dəstəklənməsi üçün görülən işlərin miqyası ildən-ilə genişlənir. Dünya azərbaycanlılarının bir-biri ilə və tarixi Vətənlə əlaqələrinin güclənməsinə, diaspor təşkilatlarının formalaşmasına, Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan soydaşlarımızın hüquq və mənafelərinin, təhlükəsizliyinin, milli kimliyinin qorunmasına, onların inkişafına, Azərbaycan dilini, ənənələrini və mədəniyyətini qoruyub saxlamasına, dəfələrlə soyqırımına və deportasiyaya məruz qalmış Qərbi azərbaycanlıların hüquqlarının bərpasına və zorla tərk etməyə məcbur olduqları ata-baba torpaqlarına qayıtmasına kömək göstərilməsi dövlət siyasətinin ayrılmaz tərkib hissəsini təşkil edir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının xarici siyasət konsepsiyasının həyata keçirilməsi sahəsində parlaq nailiyyətlər əldə edilmişdir. Bir çox dünya dövlətləri ilə səmərəli əməkdaşlıq əlaqələri qurulmuş, beynəlxalq təşkilatlar çərçivəsində fəal iş aparılmışdır. 2012–2013-cü illərdə dövlətimizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi fəaliyyəti Azərbaycanın diplomatiya tarixində əldə edilmiş ən böyük uğurlardan biri olmuşdur.

Azərbaycanın beynəlxalq nüfuzunu göstərən digər mühüm bir hadisə dünyanın BMT-dən sonra ikinci ən böyük beynəlxalq təşkilatı olan Qoşulmama Hərəkatının yekdil qərarı ilə 2019–2022-ci illərdə dövlətimizin bu quruma sədr seçilməsi və yenidən yekdil qərarla sədrlik müddətinin daha bir il uzadılması olmuşdur. Hərəkata sədrlik dövründə Prezident İlham Əliyev ədaləti, beynəlxalq hüququ və üzv ölkələrin qanuni maraqlarını qətiyyətlə qorumuşdur. 2021-ci və 2022-ci illərdə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin və Gənclər Təşkilatının yaradılması Azərbaycanın uğurlu sədrliyinin nəticələri olmuşdur.

Prezident İlham Əliyevin irəli sürdüyü milli təhlükəsizlik konsepsiyasının bütün istiqamətlərində müsbət nəticələr əldə edilmişdir. Ən yüksək standartlara cavab verən silahlı qüvvələr formalaşdırılmışdır. Doğma torpaqlarını işğaldan azad etməyə hazır olan vətənpərvər gənc nəsil yetişdirilmişdir. Bütün bunlar Azərbaycan ərazilərinin Ermənistanın işğalından azad edilməsi barədə ulu öndər Heydər Əliyevin vəsiyyətinin yerinə yetirilməsinə şərait yaratmışdır.

2020-ci ilin payızında 44 günlük Vətən müharibəsində müzəffər Ali Baş Komandan İlham Əliyevin yüksək sərkərdəlik məharəti ilə idarə etdiyi Azərbaycan Silahlı Qüvvələrinin hərbi qələbəsi xalqımızın qəhrəmanlıq salnaməsində yeni şanlı səhifə açdı. Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış 8 Noyabr Zəfəri sayəsində işğalçı Ermənistan təslim olmağa məcbur edildi, tarixi ədalət və dövlətimizin ərazi bütövlüyü bərpa olundu. Azərbaycanın əzəli tarixi torpaqları olan Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilməsi son iki yüz ilə yaxın dövrdə xalqımızın məruz qaldığı torpaq itkiləri və etnik təmizləmələr silsiləsinə son qoydu, xalqımıza düşmən kəsilmiş dünya erməniliyinə sarsıdıcı zərbə endirdi.

Ermənistanın davam edən hərbi-siyasi təxribatlarına son qoyulması məqsədilə 2023-cü il sentyabrın 19–20-də müzəffər Ali Baş Komandanın məharətli rəhbərliyi ilə Qarabağda həyata keçirilən lokal antiterror tədbirləri xalqımızın milli ruhunun yenilməzliyini bir daha nümayiş etdirdi. Azərbaycan Ordusunun qəhrəmanlığı və fədakarlığı sayəsində erməni silahlı dəstələri tərk-silah edildi, kriminal xunta rejiminin fəaliyyətinə son qoyuldu, dövlətimizin suverenliyi onun bütün ərazisində bərpa edildi.

Qarabağı könüllü tərk etmək istəyən erməni sakinlərin ölkə ərazisindən təhlükəsiz və rahat çıxışına şərait yaradılmışdır. Qarabağda qalan ermənilərin Azərbaycan cəmiyyətinə reinteqrasiyası üçün lazımi tədbirlər görülür. Ermənistanla sivil dövlətlərarası münasibətlər qurulması məqsədilə Azərbaycanın irəli sürdüyü şərtlər əsasında sülh danışıqları davam etdirilir.

Hazırda işğaldan azad edilmiş torpaqlarda Prezident İlham Əliyevin irəli sürdüyü strateji yol xəritəsinə əsasən, bərpa və quruculuq işləri geniş vüsət almışdır. Məcburi köçkünlər mərhələ-mərhələ doğma yurdlarına qaytarılır. İnamla söyləmək olar ki, Qarabağın və Şərqi Zəngəzurun dirçəlişi ilə bağlı bütün layihələr uğurla başa çatdırılacaq və bu bölgələr Azərbaycanın dilbər guşələrinə çevriləcəkdir.

Siyasi lider öz fəaliyyəti ilə zamanca qısa bir dövrü əhatə edir, milli lider isə uzunmüddətli perspektiv üçün ölkəsinin inkişafının optimal istiqamətlərini müəyyənləşdirir. Azərbaycan Respublikasının Milli Məclisi əmindir ki, Prezident İlham Əliyevə xas olan siyasi bəsirət və səriştə Azərbaycanın müstəqillik yollarında bundan sonra da inamla irəliləməsini təmin edəcəkdir. Milli Məclisin Bəyanatında daha sonra qeyd edilir: "Vətənimizin və xalqımızın bu günü və sabahı naminə dəyərli fəaliyyətində dövlət başçısına yeni böyük uğurlar arzulayaraq, onun uzaqgörən daxili və xarici siyasətini, həmişə olduğu kimi, fəal surətdə dəstəkləyəcəyini, həyata keçirilən quruculuq işlərinin qanunvericilik bazasını möhkəmləndirmək və təkmilləşdirmək üçün öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirəcəyini bəyan edir".

***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 361** **Bakı şəhəri, 10 oktyabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları"nın təsdiq edilməsi haqqında" 2004-cü il 24 may tarixli 75 nömrəli, "İctimai əhəmiyyətli funksiyaları yerinə yetirən hüquqi şəxslərin Siyahısı"nın təsdiq edilməsi haqqında" 2016-cı il 1 sentyabr tarixli 338 nömrəli, "Dərman vasitələrinin geri çağırılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2019-cu il 27 noyabr tarixli 460 nömrəli və "Dərman vasitələrinin farmakonəzarət Qaydası"nın təsdiq edilməsi haqqında" 2019-cu il 25 dekabr tarixli 503 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "İpoteka haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "İnzibati icraat haqqında", "Dərman vasitələri haqqında", "Əmanətlərin sığortalanması haqqında", "Dövlət borcu haqqında", "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" və "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 813-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli 950 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 8 aprel tarixli 2091 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 24 may tarixli 75 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 5, maddə 391; 2005, № 4, maddə 377, № 6, maddə 548; 2007, № 2, maddələr 197, 201; 2008, № 2, maddə 105, № 9, maddə 862; 2009, № 11, maddə 936; 2012, № 1, maddə 44; 2014, № 2, maddə 201; 2016, № 5, maddə 955, № 9, maddə 1596; 2017, № 6, maddə 1237, № 10, maddə 1934, № 11, maddələr 2153, 2159; 2018, № 4, maddə 782, № 10, maddə 2181, № 12 (II kitab), maddə 2750; 2019, № 3, maddə 539, № 6, maddə 1143, № 7, maddə 1337, № 12, maddə 2079; 2020, № 4, maddə 492; 2023, № 2, maddə 293; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 27 iyul tarixli 242 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları"nın 7.15-ci bəndinin üçüncü cümləsində "kütləvi informasiya vasitələrini" sözləri "media subyektlərini" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 1 sentyabr tarixli 338 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 9, maddə 1566; 2017, № 2, maddələr 287, 321; 2022, № 5, maddə 574) ilə təsdiq edilmiş "İctimai əhəmiyyətli funksiyaları yerinə yetirən hüquqi şəxslərin Siyahısı"nın 9-cu hissəsində "Kütləvi informasiya vasitələri" sözləri "Media" sözü ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 27 noyabr tarixli 460 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 11, maddə 1880) ilə təsdiq edilmiş "Dərman vasitələrinin geri çağırılması Qaydası"nın 7.3-cü bəndində "KİV-dən" sözləri "mediadan" sözü ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 25 dekabr tarixli 503 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 2084; 2020, № 12 (V kitab), maddə 1613; 2021, № 9, maddə 1055; 2022, № 10, maddə 1221) ilə təsdiq edilmiş "Dərman vasitələrinin farmakonəzarət Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3.5-ci bənddə "KİV-dən" sözləri "mediadan" sözü ilə əvəz edilsin;

4.2. 7.1.15-ci yarımbənddə "KİV-dən" sözləri "Mediadan" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 364** **Bakı şəhəri, 11 oktyabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 21 aprel tarixli 66 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət baytarlıq nəzarətində olan məhsullara, o cümlədən idxal və ixrac edilən yüklərə dövlət baytarlıq nəzarətinin təşkili, dövlət baytarlıq nəzarətində olan yüklərin Azərbaycan Respublikasına gətirilməsi və ölkə daxilində daşınması Qaydaları"nda dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Polis haqqında", "Baytarlıq haqqında" və "Atçılıq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 2 may tarixli 868-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Polis haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1999-cu il 11 noyabr tarixli 205 nömrəli, "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2005-ci il 22 noyabr tarixli 316 nömrəli, "Atçılıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2007-ci il 22 may tarixli 580 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 7 iyun tarixli 2174 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 21 aprel tarixli 66 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 4, maddə 283; 2010, № 1, maddə 66; 2013, № 5, maddə 584; 2015, № 2, maddə 227; 2018, № 12 (II kitab), maddə 2722; 2020, № 9, maddə 1222; 2022, № 4, maddə 407; 2023, № 4, maddə 569) ilə təsdiq edilmiş "Dövlət baytarlıq nəzarətində olan məhsullara, o cümlədən idxal və ixrac edilən yüklərə dövlət baytarlıq nəzarətinin təşkili, dövlət baytarlıq nəzarətində olan yüklərin Azərbaycan Respublikasına gətirilməsi və ölkə daxilində daşınması Qaydaları"na aşağıdakı məzmunda 2.5-ci bənd əlavə edilsin:

"Ərazisində heyvanların xüsusi təhlükəli xəstəliklərinin baş verməsi qeydə alınan xarici ölkələr və idxalı qadağan olunmuş mallar barədə məlumatlar Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin informasiya sistemi vasitəsilə real vaxt rejimində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin informasiya sisteminə ötürülür.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 365** **Bakı şəhəri, 11 oktyabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 4 oktyabr tarixli 375 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində və Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 807-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 4 oktyabr tarixli 375 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 10, maddə 1694; 2019, № 4, maddə 756; 2020, № 5, maddə 653, № 7, maddə 964; 2022, № 2, maddə 187; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 28 iyul tarixli 248 nömrəli Qərarı) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi"nin 6.7-ci bəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Makronun “siyasi daltonikliyi”

## Fransa rəhbərinin Cənubi Qafqaz və Afrika siyasətini izləyənlər onu məhz bu cür xarakterizə edirlər

**Onun həm Cənubi Qafqaz bölgəsi, həm də Azərbaycanla bağlı sərgilədiyi mövqe, burada baş verən hadisələr barədə söylədikləri, bir qayda olaraq, saxta “fakt və sübutlar”, dezinformasiya və şantaj üzərində qurulub. Bu adam istər 44 günlük Vətən müharibəsinin gedişində, istərsə də ondan sonra Ermənistan və Azərbaycan arasında sülh dialoqu və münasibətlərin normallaşması mərhələsində Bakıya hər türlü diplomatik, hərbi, iqtisadi təzyiqlər göstərməyə, hətta hədə-qorxu gəlməyə girişdi. Söhbət Fransa prezidenti Emmanuel Makrondan gedir.**




Əslində, Fransanın erməniləri dəstəkləməsi bu günün, yaxud dünənin mövzusu deyil. Hərçənd, doxsanıncı illərin əvvəllərində, Qarabağ münaqişəsi yeni qızışanda fransızlar, guya, balanslı mövqedən çıxış etdiklərini nümayiş etdirirdilər. Amma elə onda da maskalanmış müsyölərin hiyləgərlikləri görünürdü. Paris ATƏT-in Minsk qrupunun üçüncü həmsədri kimi tərəflər arasında sülhə nail olma üzrə vasitəçi kimi də ikiüzlü siyasət yürüdürdü. Azərbaycan hələ o vaxt Parisin sülh vasitəçiliyinə etirazını bildirmişdi. Fransa Ermənistanın daim yanında olduğunu nümayiş etdirib, münaqişənin Ermənistanın maraqları çərçivəsində həllinə çalışıb.

### Keçmişə qayıdış olmayacaq

İndi dövran da dəyişib, reallıq da. Daha Azərbaycan kənar vasitəçilərin məsləhətinə ehtiyac duymur. O, özünün ərazi bütövlüyünü təmin edib, suverenliyimiz beynəlxalq hüquqa uyğundur. İndi əminliklə deyə bilərik ki, Cənubi Qafqazın tarixində hərbi cəhətdən ən sabit dövr başlayıb. Bölgənin otuz il intizarında olduğu bu sabitlik Azərbaycan Ordusunun 23 saatdan bir qədər artıq vaxtda Qarabağda həyata keçirdiyi antiterror tədbirləri nəticəsində separatçı-xunta rejiminə son qoyması sayəsində əldə edildi. Amma hərbi müstəvidə yaranmış bu sabitliyə bəzi ölkələr və dairələr diplomatik müstəvidə zərər verə biləcək addımlar atırlar. Bu xüsusda, Fransanın adı birincilər sırasındadır. Rəsmi Parisin Hayastana silah-sursat göndərməsi, Fransanın baş diplomatı Ketrin Kolonnanın İrəvana səfərləri, burada verdiyi bəyanatlar, Senatda iki gün əvvəlki çıxışı, onun ermənilərin Qarabağa qayıdışına dair BMT-nin Təhlükəsizlik Şurasında qətnamə qəbul edilməsi istiqamətində təşəbbüsü bütün bunların böyük oyunun tərkib hissəsi olması təsəvvürünü yaradır. Yəni, Fransa özünün aşkar sezilən militarizm siyasəti, diplomatik avantürizmi ilə Cənubi Qafqazda sülhün və əmin-amanlığın bərqərar olmasının qarşısını almağa çalışır. Məqsəd hərbi qarşıdurma və gərginlik fonunda bölgədə yerini möhkəmlətməkdir. Prezident İlham Əliyev MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri şurasının 53-cü iclasının iştirakçıları ilə görüşündəki çıxışında məhz Emmanuel Makronun ölkəmizə qarşı təxribatlarına işarə vuraraq deyib: “Azərbaycan həm işğal müddətində, həm İkinci Qarabağ müharibəsində, həm də antiterror tədbirləri zamanı bütün humanitar normalara riayət edib. Beynəlxalq ekspertlər bunun şahididirlər. Yeri gəlmişkən, bu yaxınlarda azad edilmiş ərazilərdə səfərdə olan BMT missiyası dünən və bundan, təxminən, bir həftə əvvəl artıq iki dəfə məhz bunu vurğulayıb ki, bütün humanitar normalara əməl olunub. Bununla belə, Qərbdəki erməni havadarları Azərbaycana qarşı iyrənc təxribata və yalançı kampaniyaya əl ataraq, hər şeydə bizi ittiham edirlər. Burada əsas skripkanı çalan Fransadır və bu, həm sözügedən ölkənin rəsmi şəxslərinin bəyanatlarında, həm Azərbaycanın diskreditasiya edilməsi cəhdlərində, həm də Azərbaycana qarşı aparılan və hər şeyin alt-üst şəkildə təqdim edildiyi media kampaniyasında özünü büruzə verir. Azərbaycan işğalçı kimi, Ermənistan isə qurban kimi qələmə verilir. Otuz illik işğalın tarixi, bütün şəhər və kəndlərimizin yerlə-yeksan edilməsi, Xocalı soyqırımı, bütün bunların hamısı inkar edilir, yalanla dolu hekayələr uydurulur”.

### Neomüstəmləkəçinin filantropluğu

Ümumiyyətlə, Fransanın Azərbaycan–Ermənistan dialoqunda, sülh danışıqları prosesində iştirak etməsi kökündən yanlış idi. Bakı özünü nüfuzdan və etimaddan salmış bir ölkənin vasitəçilik missiyasına vaxtaşırı etirazını bildirirdi. Amma səbrin də tükənən məqamları olur. Son zamanlar Fransa iqtidarı prezident Makronun timsalında sülh gündəmində olmayan məsələləri qabardır, ciddi-cəhdlə danışıqlar prosesinə təsir göstərməyə, vasitəçilik missiyasından sui-istifadəyə çalışır. Qatı ermənipərəst siyasət yürüdən Fransa iqtidarının erməni lobbisinin güclü təsiri altında olması faktdır. Rəsmi Paris həm də bu amilə görə Ermənistanın maraqlarını açıq şəkildə və ədalətsizcəsinə müdafiə edir. Bütün bunları nəzərə alaraq, Fransanın heç bir halda Azərbaycan və Ermənistan arasında “sülhyaradıcı” missiyalı vasitəçiliyə layiq olmadığı qənaətinə gələ bilərik.

Son proseslər həm də onu göstərirdi ki, rəsmi Paris Brüssel formatını özəlləşdirməyə çalışırdı. Hərçənd onu da etiraf etmək lazımdır ki, İrəvan və Bakı arasında münasibətlərin normallaşması istiqamətində Brüssel formatı çərçivəsində, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin moderatorluğu və ciddi səyləri müqabilində sülhə doğru addımlar atıldı.

Ermənidən daha çox ermənilik etmək sevdasına düşən Fransanın xarici işlər nazirinin Azərbaycanın Qarabağ bölgəsini təzyiq göstərilmədən, sərbəst və könüllü şəkildə tərk edən ermənilərin Ermənistanda yerləşməsinin, guya, Azərbaycan tərəfindən planlaşdırılan “etnik təmizləmə” iddiasını səsləndirməsi riyakarlığın zirvəsi idi. Bununla, o, ölkəsinin beynəlxalq təşkilatların rəyinin, hətta Ermənistan baş nazirinin 21 sentyabr tarixli bəyanatının tam əksinə, məkrli və utopik siyasətlərini davam etdirmək marağını güddüyünü nümayiş etdirdi.

Otuz il ərzində müstəmləkəçiyə, işğalçıya dəstək verən Fransanın indi durub insan haqlarından, ədalətdən və beynəlxalq hüquqdan danışması sadəcə ironiya və gülüş doğurur. Ərazilərimizin işğaldan azad olunmasını, işğalçı qüvvələrin oradan qeyd-şərtsiz və dərhal çıxmasını, məcburi köçkünlərin öz evlərinə qayıtmasını tələb edən BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin icrasını təmin etmək üçün qımıldanmayan Fransa liderinin bu gün həmin beynəlxalq qurumda ölkəmizə qarşı qətnamənin qəbuluna çağırış etməsi riyakarlıqdan başqa bir şey deyil.

### Yalnız gülüş və ironiya

Müstəmləkəçilik röyasından hələ də ayıla bilməyən Parisin Yaxın Şərqdə, Şimali Afrikada ölkələrə və xalqlara qarşı həyata keçirdiyi soyqırımı siyasəti, müsəlmanlara antipatiyası, dini və irqi ayrı-seçkiliyi, o cümlədən Azərbaycan və Türkiyəyə qarşı qərəzli siyasəti hamıya bəllidir. Emmanuel Makron isə rəsmi Parisin bu ənənəvi siyasi kursunu yüksək templərlə davam etdirməkdə “gül vurur”. Həm ölkə daxilində, həm də onun xaricində “Fransanın ən uğursuz prezidenti” statusunu qazanmış Makron özünün anti-Azərbaycan və anti-Türkiyə baxışlarını heç vaxt gizlətməyib. İstər Aİ, ATƏT və AŞPA-da, istərsə də NATO, BMT kimi beynəlxalq platformalarda Makron birmənalı şəkildə ermənipərəst mövqe nümayiş etdirib. Buna görə də Azərbaycan Fransanın iştirakı ilə keçirilən görüşlərə qatılmır və bu ölkənin vasitəçilik təklifini rədd edir.

“Fransa Prezidentinin bu yaxınlarda Azərbaycanın beynəlxalq hüquqla problemləri olduğuna dair verdiyi bəyanat yalnız gülüş doğura bilər. Çünki Azərbaycan beynəlxalq hüququ pozmayıb. Biz öz ərazimizdə döyüşmüşük, separatizmi aradan qaldırmışıq, bütün humanitar normalara, Cenevrə Konvensiyasına əməl etmişik. Beynəlxalq hüququ isə 30 il ərzində Fransanın əlaltısı, bu gün onun əsas müttəfiqi olan Ermənistan qonşu dövlətin ərazisini işğal edərək pozub. Necə deyərlər, öz gözündə tiri görməyib başqasının gözündə tük axtarmaq lazım deyil”.

Bu sözləri də İlham Əliyev MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri şurasının iclasının iştirakçıları ilə görüşündəki çıxışında söylədi. Dövlətimizin başçısının Emmanuel Makronun həddini aşan ermənipərəstliyinə və “siyasi daltonikliyinə” xalqımızın müdrik kəlamı ilə cavab verməsi tam yerinə düşdü.

*İmran BƏDİRXANLI*
*XQ*

**Ekspert rəyi**



**Elxan ŞAHİNOĞLU,
Atlas Araşdırmalar Mərkəzinin rəhbəri,
siyasi analitik:**

**Emmanuel Makron prezident seçiləndən sonra Fransa Ermənistana və Azərbaycana münasibətdə sözdə olan balansı da pozdu. Yəni, birmənalı şəkildə sırf erməniprəst mövqeyə keçdi. Birinci Qarabağ müharibəsi, ondan sonra, eləcə də indiki dövrdə ikiüzlü yanaşma sərgilədi. Cənubi Qafqazın açar dövləti sayılan Azərbaycanla münasibətlərini tamamilə korladı və Bakı öz sözünü dedi: Fransanın olduğu yerdə biz yoxuq! Balansı pozduğuna, ermənpərəst mövqedən çıxış etdiyinə görə vasitəçi ola bilməz. İtirən kim oldu? Əlbəttə, Fransa.**

**ABŞ-da da erməniprəst qüvvələr, dairələr var, amma rəsmi Vaçinqton hər halda balansı qoruyub saxlamağa çalışır. Buna görə Birləşmiş Ştatların vasitəçiliyindən imtina etməmişik. Çünki Makron Fransası Bayden Amerikası kimi siyasət yürütmür. Makron son illər dəfələrlə İrəvana səfər etdi, amma bir dəfə də Azərbaycana gəlmədi. İkitərəfli münasibətlər gərginləşmədən öncə də bunu etmədi. Halbuki, Fransanın keçmiş prezidentləri İrəvana yolları düşəndə Bakıya da gələrdilər. Makron bu diplomatik balansı da pozdu. O, təkcə Qafqazda deyil, digər coğrafiyada da eyni siyasəti güdür. Afrikadan bu səbəbə görə sıxışdırılıb çıxarılır. Ermənistan baş naziri Nikol Paşinyan isə sanki Makronu özünə yeni ağa seçib. Düşünür ki, Fransa Hayastanın bütün dərdlərinə çarə edəcək. Fəqət Fransa heç vaxt Rusiyanı əvəz edə bilməz. Sabah Moskva onların qazını kəssə, onu Fransa verəcək? Hansı xətlə? Yaxud Ermənistan Rusiya bazarından məhrum edilsə, Fransa onun məhsullarını qəbul edəcəkmi? Makronun İrəvana dəstəyi ancaq sözdədir. Əməldə isə hayları daha dərin uçuruma aparır. Paşinyan Makronsuz danışıqlar masasına oturmaq istəmir, MDB-dən, KTMT-dən imtina edir. Parisin vasitəçiliyini də Azərbaycan qəbul etmir. Nə vaxt bu ölkənin prezidenti dəyişərsə, Fransa balanslı mövqeyə qayıdarsa, onda münasibətlər normallaşa bilər. Amma nə qədər ki, Makron hakimiyyətdədir, ikitərəfli münasibətlərin normallaşma mərhələsinə daxil olmasına inanmıram.**

**Ekspert rəyi**



**Tofiq ABBASOV,
siyasi şərhçi:**

**Fransa prezidentliyinə bir növ səhnə arxasından gələn Emmanuel Makron faktiki olaraq Rotşildlərin əlindən su içən marionet fiqurdur. Onun nə siyasi savadı, nə də intellekti Fransa kimi nüfuzlu bir dövlətin rəhbəri olmağa, dünya nizamında iştirak etməyə imkan vermir. Amma, deyilənə görə, bankir kimi müəyyən bacarığa malikdir. Prezident olandan sonra fransızların sosial durumu pisdən daha pisə yuvarlanıb. Bu mənada, Makronun personası və fəaliyyəti müəyyən suallar doğurur. Onun ölkənin mövcud problemlərini həll etmədiyi bir yana, bütün istiqamətlərdə yeni problemlər yaradır.**

**ABŞ-nin sabiq prezidenti Tramp Makronla uşaq kimi davranırdı. O da Trampın qarşısında lisey şagirdinə dönmüşdü. Görürük ki, bu adamın həm Amerika, həm Afrika, həm də Qafqaz strateji xətlərinin hamısında siyasi balansı sıfırlanıb. İndi o, fəaliyyəti ilə neqativ resurslar bazasını artırmaqla məşğuldur. Azərbaycana çağırışlar göndərən Makron bilsin ki, bura Afrika deyil. Yeri gəlmişkən, yuxarıdan aşağı baxdığı Afrika da ondan üz döndərdi.**

**Makron bizdən nə istəyir? Çalışır ki, Ermənistanı özünə sipər etməklə, heç olmasa, Qafqaz cinahında özünə müsbət dividend qazansın. Burada da gördük ki, rəsmi Bakının zərgər dəqiqliyindəki diplomatiyası, dövlət başçımızın uğurlu gedişləri Makronu “mat” vəziyyətində qoydu. BMT Təhlükəsizlik Şurasında Fransa liderinin üzləşdiyi uğursuzluq ona dərs olmalıydı. Amma, hər şeydən göründüyü kimi, Makron Azərbaycan vasitəsilə Orta Asiyaya, Şərqə açılan marşrutlara qoşulmağı düşünür. Məqsədi isə Qazaxıstan və Özbəkistanın uran yataqlarına əl uzatmaqdır. Yəni Afrikada əldən çıxardığı itikiləri postsovet məkanında kompensasiya etmək istəyir. Bu yolda Azərbaycanı özünə maneə görür. Bir az da şəxsi qısqanclıq məsələsi var. Bəli, Makron Azərbaycan Prezidenti ilə rəqabət aparmaq istəyir. Fəqət İlham Əliyev bütün müstəvilərdə cılız və uğursuz fransızın layiqli cavabını verir.**

KÖŞƏ

**Hazırda Ermənistan rəhbərliyinin, eləcə də xaricdəki erməniərəst dairələrin Azərbaycana qarşı total antitəbliğata başladıqlarını müşahidə etməkdəyik. Necə deyərlər, birinin ağzı yumulur, o birininki açılır. İstər beynəlxalq təşkilatlarda olsun, istərsə də hüquq instansiyalarında, fərqi yoxdur, mənzərə eynidir. Hətta, ölkəmizlə bağlı mənfi yönümlü mətnlər və tezisləri səsləndirənlər, o cümlədən, politoloq və ekspertlər də sıraya düzülüblər. Hər kəs bilir ki, hansı sözü, hansı cəfəngiyyatı hansı məqamda dilə gətirmək lazımdır. Sanki, hər şey əvvəlcədən hazırlanmış “ssenari” üzrə gedir.**

# Avantürizmin “B” planı

## *Yaxud insan taleləri üzərində “erməni oyunbazlığı”*



Əvəz RÜSTƏMOV
evez.rustemov@gmail.com

Mümkün deyil ki, bu sayaq hallar əvvəlcədən planlaşdırılmış olmasın. Elə Qarabağ ermənilərinin köç dalğası da, həmçinin. Yeri gəlmişkən, cəmi üç-dörd gün ərzində Qarabağın, demək olar, tam boşaldılması Ermənistana qarşı müəyyən əks fikirlərin formalaşmasına səbəb olub. Hər halda, ölkənin baş naziri Nikol Paşinyan hökumətin iclasındakı çıxışında məsələyə heç də təsadüfən toxunmadı. Görünür, bəzi siyasi kluarlarda ona bununla bağlı suallar ünvanlayanlar var. Nikol suallara cavab olaraq bildirir ki, guya, Qarabağın erməni əhalisinin ərazidən çıxarılmasına dair heç bir planları olmayıb. Daha doğrusu, o, fikrini Azərbaycanın bölgənin sakinlərini qovmasına dair gözləntilərinin istisna təşkil etməsi kontekstində izah edib: “Deməliyəm ki, bu vəziyyətlə bağlı bütün beynəlxalq tərəfdaşlarımızda ilk təəssürat ondan ibarətdir ki, onlar bunun necə baş verə biləcəyinə təəccübləndiklərini, üç gün ərzində ölkəyə 100 min məcburi köçkünün daxil olduğunu və hökumətin onların qısa və uzun müddətli ehtiyaclarını necə qarşıladığını, razı sala bildiyini deyirlər. Bizim əvvəldən belə bir planımız yox idi. Böhranın idarə olunması məntiqini nəzərə alsaq belə, Qarabağ ermənilərinin köçürülməsi heç vaxt planlarımıza və siyasi istəklərimizə daxil olmayıb. Hər şey, demək olar, bir neçə gün ərzində baş verdi”.

Heç şübhəsiz, Paşinyan ağ yalan deyir. Çünki “ermənilərsiz Qarabağ” formulu əvvəlcədən hazırlanıb. Xeyli vaxtdır, Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi, eləcə də mövcud istiqamətdə beynəlxalq təminatlar məntiqini irəli sürən İrəvan Bakının bütün bunlarla razılaşmayacağını gözəl bilirdi. Lakin müxtəlif xarici təşkilatları, o cümlədən, erməniərəst hüquq müdafiəçilərini və digər şəxsləri ortaya atmışdı ki, fərqli nəticə əldə etsin. Mövcud xüsusda okampoların, menendeslərin, kardaşyanların və digər “yan”ların meydana atıldıqlarını da görürdük. Bu şəxslər beynəlxalq ictimaiyyəti Azərbaycan tərəfindən Qarabağda “soyqırımı və etnik təmizləmə” siyasətinə başlanıldığına inandırmaq istəyirdilər. Hesab edirdilər ki, mövcud ritorika ölkəmizin geri addım atmasını şərtləndirəcək, Bakı təzyiqlər qarşısında duruş gətirməyərək, özünün prinsipial mövqeyindən geri çəkiləcək. Lakin gözləntilər özünü doğrultmadı.

Bəli, nəyin bahasına olursa-olsun ölkəmizin Qarabağ üzərindəki yurisdiksiyasının bərpasına yol verməmək xətti əsas götürülmüşdü. Ermənistan rəhbərliyi və erməniərəstlər Azərbaycanın səbrinin tükənə biləcəyini, onun güc vasitələrinə əl atacağını da hesablamışdılar. Hesablamaya bilməzdilər, çünki necə azğınlıq və həyasızlığa baş vurduqları özlərinə yaxşı agah idi.

Göründüyü kimi, Qarabağın müxtəlif yerlərində, müdafiə qurğuları, istehkamlar da qurmuşdular. Əlbəttə, silah-sursat, hərbi texnika da kifayət qədər çox idi. Lakin hesablaya bilmədikləri bir nüans var idi. O da Azərbaycan Ordusunun yüksək peşəkarlığı. Lokal xarakterli antiterror tədbirləri nəticəsində Qarabağdakı separatçı rejimin iflası cəmi 23 saat 43 dəqiqə müddətində başa gəldi. Beləcə ağ bayraq qaldırıb, necə deyərlər, “B” planına keçid alındı. Əvvəldə diqqətə çatdırdıqlarımız məhz bu “planın” tərkib hissəsidir.

Bəli, “qəhrəman, əzmkar Artsax xalqı” planı kara gəlmədiyindən, hazırda Ermənistanın “B” planı var gücü ilə işləməkdədir. Sözügedən plan isə haqqında söz açdığımız “ermənilərsiz Qarabağ” formuluna əsaslanır. Bu “formul” üçün Qarabağ məsələsinə ideoloji məzmun qazandırmaq, onun əyninə, belə demək mümkünsə, miskin libas geyindirmək xarakterikdir. Deməli, planlaşdırılmış ildırımsürətli köçün məqsədi də bəllidir. Ermənistan heç bir halda reallıqları qəbul etmək istəmir. Qarabağın Azərbaycana məxsusluğunu vurğulamaq ölkə, Paşinyan iqtidarı üçün boş sözdən o tərəfə keçməyən bir şeydir. Çünki hazırda İrəvanın, eləcə də onun xaricdəki dəstəkçilərinin bütün var-gəlləri buna qarşıdır. Onlar elə rəy yaradırlar ki, sanki, Qarabağ işğal olunub…

Əlbəttə, erməni avantürizmi hər cür “oyunbazlıq metodları”ndan bəhrələnməkdə mahirdir. Ona görə də Paşinyan Qarabağdan köçənləri Ermənistanda qəbul etməkdə heç bir çətinliklə üzləşmədi. Burada mühüm əhəmiyyət kəsb edən məsələ dünyanın erməni avantürizminin musiqisinə qol qaldırıb oynamasıdır. Hazırda bu avantürizm özünün çürük mahiyyəti naminə bütün beynəlxalq hüquq və ədalət prinsiplərinə tüpürməklə, dünyanın aparıcı təşkilatları, qurum və ölkələri isə bu mənzərəni susqunluqla seyr etməklə məşğuldurlar. Təəssüf doğuran məqam məhz budur. İnsan faktoruna söykəniriksə, minlərin öz yurd-yuvasını tərk etməsi, yaşadıqları evlərdən çıxıb getmələri heç kəsin vecinə deyil. Ortada bu qədər qəddar və manqurt durum var – minlərlə erməninin həyatını heçə sayan durum.

# Soydaşlarımız Xankəndiyə dönəcəkləri günü gözləyirlər

**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Xankəndidən məcburi köçkün düşmüş vətəndaşların bir qrupu ilə görüşüb.**

Görüşdə İşğaldan azad edilmiş ərazilərdə, dövlətimizin başçısının təsdiqlədiyi Dövlət Proqramı əsasında, genişmiqyaslı bərpa-quruculuq işlərinin aparıldığı, doğma yurd yerlərimizə Böyük Qayıdışın başlandığı məmnunluqla qeyd edilib.

Bildirilib ki, Xankəndinin 31 il əvvəl ata-baba ocağını tərk etmək məcburiyyətində qalmış azərbaycanlı sakinləri də geri dönmək, öz ev-eşiklərinə sahib çıxmaq arzusundadırlar və bu arzunun tezliklə gerçəkləşəcəyinə əmindirlər. Hazırda isə onlar müvafiq dövlət orqanlarının icazəsi olduğu təqdirdə Xankəndiyə, Kərkicahana baş çəkmək, doğma yurdu ziyarətə getmək üçün şərait yaradılmasını xahiş edirlər.

Görüş iştirakçılarının müraciətləri qeydə alınıb, sualları cavablandırılıb, onlara Böyük Qayıdış prosesi ilə bağlı ətraflı məlumat verilib.

*XQ*

# Fransa var gücü ilə “hücuma keçib”

## Paris hegemonluq etdiyi təşkilatlarda Azərbaycanla bağlı qərəzli sənədlərin qəbuluna çalışır

**Fransanın hegemonluq etdiyi, yaxud etməyə çalışdığı bir sıra Avropa təsisatları son vaxtlar ölkəmizin üzərinə necə deyərlər, “səlib yürüşü”nə çıxıblar. Onlar Azərbaycanın Qarabağ iqtisadi rayonunda sentyabrın 19-da başlayan və bir sutkadan az davam edən lokal xarakterli antiterror tədbirləri keçirməsini, bundan az sonra erməni əhalinin bölgəni tərk etməsini, qondarma separatçı rejimin ləğv olunmasını heç cür qəbul edə bilmirlər.**



Ancaq Avropa təsisatları bu zaman vacib olan üç məqamı nəzərə almırlar. **Birincisi,** Azərbaycan antiterror tədbirlərini beynəlxalq hüquqla tanınmış ərazisində keçirib. Bu zaman hədəf bölgədə yaşayan mülki əhali yox, Ermənistan ordusunun silahlı birləşmələri, hərbi texnika və hərbi infrastrukturu olub. Məqsəd ermənipərəst dairələrinin iddia etdikləri kimi hansısa “soyqırımı”, “etnik təmizləmə” yox, dünyanın bütün ölkələrinin, o cümlədən, Ermənistanın da Azərbaycan ərazisi kimi tanıdığı Qarabağ iqtisadi rayonunda suverenliyi tam təmin etmək idi.

**İkincisi,** erməni əhali bölgədən zor gücünə çıxarılmayıb. Əksinə, onlara qalmaq təklif olunub, reinteqrasiya planı təqdim edilib. Azərbaycan Xarici İşlər Nazirliyinin sentyabrın 28-də yaydığı məlumatda bu barədə deyilirdi: “Ermənistan baş naziri Nikol Paşinyanın Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin, guya, “etnik təmizləmə”yə məruz qaldığı barədə verdiyi bəyanatı qətiyyətlə pisləyir və rədd edirik. Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin gedişinin onların şəxsi və fərdi qərarı olduğu, bunun məcburi yerdəyişmə ilə heç bir əlaqəsi olmadığı baş nazir Paşinyana yaxşı məlumdur. Əgər erməni sakinlərinin hansısa hissəsi Azərbaycan qanunvericiliyi və hakimiyyəti çərçivəsində yaşamaq və ona tabe olmaq istəmirsə, onları buna məcbur edə bilmərik. Bunun əksinə, biz erməni sakinləri öz yaşayış yerlərini tərk etməməyə və multietnik Azərbaycan cəmiyyətinin bir hissəsi olmağa çağırırıq”.

Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov isə elə həmin günlərdə BBC radiosunun efirində müzakirə zamanı aparıcının “Azərbaycan bu qədər insanın köçdüyünü görəndə məmnun olurmu?” sualına “xeyr” cavabını verərək, əlavə etmişdi ki, amma biz onları zorla saxlaya da bilmərik. Çünki bu halda erməni əhalini, guya, girov saxlamağımız barədə şayiələr yayılacaq: “Onlar Azərbaycan cəmiyyətinə yenidən inteqrasiya olunaraq, dövlətin vətəndaşlığının təqdim etdiyi imkanlardan yararlana, həyat şəraitlərini yaxşılaşdıra bilərlər. Gələcəkdə fikirlərini dəyişsələr, qayıda da bilərlər”.

Azərbaycan dövlətinin bu mövqeyi digər rəsmi şəxsləri tərəfindən də dəfələrlə səsləndirilib. Ancaq ermənipərəst dairələr özlərini eşitməzliyə vururlar. Onlar, həmçinin Prezident Administrasiyasının oktyabrın 2-də açıqladığı Qarabağ bölgəsində yaşayan erməni sakinlərin reinteqrasiyasına dair planını da görmək istəmirlər. Bundan əlavə, Qarabağ erməniləri yaşayış yeri seçməkdə sərbəstdirlər: onlar istədikləri vaxt geri qayıda, yaxud indi məskunlaşdıqları ərazilərdə qala bilərlər. Onu da qeyd edək ki, Azərbaycan dövləti qayıdacaq şəxslərin təhlükəsizliyinə zəmanət verib. Həmçinin, Rusiya sülhməramlıları da bölgədədir. Bunun özü də Azərbaycana ünvanlanan “soyqırımı” və “etnik təmizləmə” kimi ittihamların heç bir əsasının olmadığını göstərən mühüm amildir.

**Üçüncüsü,** separatçı rejimin ləğvi ilə bağlıdır. Heç bir dövlət ərazisinin ayrılmaz hissəsində hansısa oyuncaq rejimin mövcudluğuna dözməz. Dövlətlərin ərazisi bütöv, sərhədləri toxunulmaz olmalıdır. Azərbaycan da bu baxımdan istisna deyil. Separatçılar 1990-cı illərin əvvəllərində Azərbaycanda mərkəzi hakimiyyətin zəifliyindən istifadə edərək ərazilərimizdə qondarma rejim yaratmağa, ardınca keçmiş DQMV-yə heç bir aidiyyatı olmayan 7 rayonumuzu işğal etməyə müvəffəq oldular. Otuz ildən sonra Azərbaycan gücləndi və öz torpaqlarını geri aldı.

İndi isə qeyd etdiyimiz kimi, Azərbaycanın tarixi torpaqlarımızda ikinci erməni dövləti yaratmaq istəyənlərin planlarını pozması ilə Fransa sayaq bəzi dövlətlər və müxtəlif siyasi dairələr heç cür barışa bilmirlər. Onlar hər vəchlə ölkəmizi qaralamağa, böhtan atmağa çalışırlar. Özlərini ermənilərin hamisi, canıyananı kimi göstərirlər. Əslində isə, onlardan bir alət kimi istifadə edirlər. Məhz onların ermənilərlə azərbaycanlılar arasında yeni yaranan münaqişəni qızışdırmaları, “miatsum” ideyasını dəstəkləmələri erməni xalqını indiki acınacaqlı vəziyyətə salıb. Ancaq həmin qüvvələr yenə də öz əməllərindən qalmırlar. Dünən Avropa Şurası Parlament Assambleyasının Qarabağdakı “humanitar vəziyyəti” müzakirə etməsi bunun daha bir göstəricisidir. Maraqlıdır ki, müzakirələr əvvəlcədən planlaşdırılmayıb. O, “təcili müzakirə tələb edən məsələ” kimi gündəliyə daxil edilib.

Bundan başqa, dünən Beynəlxalq Ədalət Məhkəməsində Ermənistanın Azərbaycana qarşı iddiası çərçivəsində dinləmələr başlayıb. İddia İrqi ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Beynəlxalq Konvensiyanın tətbiqi ilə bağlıdır. İrəvan Azərbaycanı beynəlxalq konvensiyanın tələblərini pozmaqda ittiham edir. Ermənistan hökuməti ötən həftə Azərbaycana qarşı iş üzrə müvəqqəti tədbirin tətbiqi xahişi ilə Beynəlxalq Ədalət Məhkəməsinə müraciət etmişdi.

Dünənki iclasda çıxış edən Ermənistan nümayəndəsi Yegişe Kirakosyan bildirib: “Demək olar ki, bütün ermənilər Qarabağı tərk ediblər. Qarabağda, praktiki olaraq, heç bir etnik erməni qalmayıb. Əgər, bu, etnik təmizləmə deyilsə, mən bilmirəm, nəyi etnik təmizləmə adlandırmaq olar”.

Göründüyü kimi, Ermənistan “soyqırımı”, “etnik təmizləmə” kimi ağır məna yükünə malik sözləri belə ucuzlaşdırıb. Qarabağdan erməni əhalinin könüllü gedişini “etnik təmizləmə” adlandırmaq isə heç bir əndazəyə sığışmır.

Ümumiyyətlə, erməni lobbisi bütün gücünü işə salaraq Azərbaycanın əldə etdiyi uğurlara, qazandığı tarixi zəfərlərə görə ölkəmizdən heyfini çıxmaq istəyir. Oktyabrın 5-də Avropa Parlamentinin ksenofob və şovinist yanaşma əsasında qəbul etdiyi anti-Azərbaycan xarakterli qətnamə, orada səsləndirilən fikirlər də bundan xəbər verirdi.

Həmçinin, oktyabrın 11-də Fransanın təşəbbüsü ilə bir qrup dövlət BMT-nin İnsan Hüquqları Şurasında Azərbaycan əleyhinə birgə bəyanat qəbul edib. Bəyanatda Azərbaycanın Qarabağ bölgəsindən ermənilərin köçməsinin səbəbləri ilə əlaqədar böhtan xarakterli iddialar yer alır və qayıdış hüququ məsələsi ilə spekulyasiya edilir.

Eyni gündə Fransanın xarici işlər naziri Ketrin Kolonna Senatdakı çıxışında ermənilərin Qarabağa qayıdışına dair BMT-nin Təhlükəsizlik Şurasında qətnamə qəbul edilməsinə çalışacaqlarını bildirib.

Ancaq hamısı eyni mərkəzdən, əsasən Parisdən idarə olunan bu qüvvələr anlamalıdırlar ki, onların bu yanaşması qəbuledilməzdir və söykəndiyi iddialar yanlışdır. Bu təşəbbüslər insan hüquq və azadlıqlarının təmin olunmasına, təhlükəsizliyə və rifaha deyil, sülh prosesini pozmağa və bölgədə gərginliyin artırılmasına xidmət edir. Sülhün olmamasından isə, ilk növbədə, onların “müttəfiqi” Ermənistan və “halına acıdıqları” erməni xalqı əziyyət çəkir.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi



**Aydın QULİYEV,**
**siyasi şərhçi**

**– AŞPA-da və Beynəlxalq Ədalət Məhkəməsində eyni gündə Ermənistanın və ermənipərəst qüvvələrin təşkilatçılığı ilə Azərbaycana qarşı müzakirələrin aparılması bu işin mütəşəkkil qaydada təşkil olunmasından və Azərbaycan əleyhinə qərəzli, ikili standart siyasəti aparılmasından xəbər verir. Bundan cəmi bir gün əvvəl ransanın təşəbbüsü ilə BMT-nin İnsan Hüquqları Şurasında bəyanat qəbul edilməsi də buna sübutdur. Oktyabrın 5-də isə Avropa Parlamenti Azərbaycan əleyhinə, əsasən Fransadan olan deputatların təşəbbüsü ilə qətnamə qəbul etmişdi.**

**Bütün hallarda bu prosesin təşkilatçısı qismində Fransa, fransız deputatlar çıxış edirlər. Bu da təsadüfi deyil. Çünki Azərbaycanın apardığı uğurlu antiterror tədbirlərindən sonra Cənubi Qafqazda ən sabit dövrün şahidi oluruq. Belə görünür ki, Azərbaycanın suverenliyinin tam təmin edilməsi bölgədə ümumi təhlükəsizlik sisteminin məhək daşına çevrilib.**

**Sentyabrın 19-dan sonra bölgəmizə nisbi sabitlik gəlməyə başlayıb. Bu, bir daha sübut edir ki, Cənubi Qafqazda ümumi geosiyasi təhlükəsizliyin və sabitliyin açar dövləti məhz Azərbaycandır. Təbii ki, Fransa bununla barışa bilmir. Bölgədə sülhün əldə olunması Parisi ciddi narahat edir və qondarma tezislərlə kövrək sabitliyi pozmağa çalışır. Bütün qüvvələri səfərbər ediblər ki, Qarabağdan öz xoşu ilə köçüb getmiş ermənilərə BMT-dən qaçqın statusu alsınlar. Sanki Fransanın başqa problemi yoxdur. Afrikadan noemüstəmləkəçilik siyasəti üzündən qovulan Fransa bu acı vəziyyətdən özü üçün nəticə çıxarmaq əvəzinə, daha əcaib formada dünyanın başqa bölgələrində, o cümlədən Cənubi Qafqazda oxşar siyasəti həyata keçirməyə cəhdlər edir. Bunu da Ermənistanın haqsız mövqeyinin müdafiəsi kontekstində etmək istəyir. Əlbəttə, bunun heç bir perspektivi yoxdur.**

KÖŞƏ

# Erməni baş nazir Bişkek görüşündən niyə qaçdı?

**Azərbaycan birmənalı şəkildə Cənubi Qafqazda sülh yaradılması uğrunda mübarizə aparır. Ölkəmizin Ermənistan tərəfindən pozulmuş ərazi bütövlüyü təmin olunduqdan sonra bu məsələ Azərbaycanın qarşıya qoyduğu bir nömrəli məsələ kimi gündəlikdə durur. Bu günlərdə Azərnbaycan Prezidenti İlham Əliyevin Gürcüstana işgüzar səfərinin və bu ölkənin Baş naziri İrakli Qaribaşvili ilə görüşünün məqsədi də bu idi – Cənubi Qafqazda sülh. Regionun üç ölkəsinin heç bir xarici iştirakçı olmadan sülh istiqamətində real, səmimi addımlar atmasına nail olmaq üçün Prezident İlham Əliyev davamlı səy göstərir.**

Bir müddət əvvəl Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin bu istiqamətdəki təşəbbüsü də Azərbaycan lideri tərəfindən qəbul edildi. Azərbaycan Ermənistanla sülh yaradılmasına çalışsa da, qonşu ölkə bunu istəmir. Baş nazir Nikol Paşinyanın, bu gün Bişkekdə keçirilən MDB Dövlət Başçıları Şurasının sammitinə qatılmamasının səbəbi də budur.

Oktyabrın 11-də Azərbaycan Prezidenti İlham Əliyev MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri Şurasının Bakıda keçirilmiş 53-cü iclasının iştirakçılarını qəbul edərkən də bu məsələyə toxundu. Dövlətimizin başçısı bildirdi ki, oktyabrın 12-də Rusiya tərəfinin təklifi ilə Rusiya, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Bişkekdə görüşü olmalı idi: “Rusiya bizim qonşumuz, müttəfiqimiz, həmçinin bizim regionda yerləşən, minlərlə kilometr uzaqda olan ölkələrdən fərqli olaraq qonşuluqda yerləşən Ermənistanın da müttəfiqidir. Təbii ki, ölkələrimiz arasında münasibətlərin tarixi, əlbəttə, Rusiya tərəfinin vasitəçiliyini nəzərdə tutur. Biz bu təklifi müsbət qarşıladıq və xarici işlər nazirimiz Rusiya və erməni həmkarları ilə görüşməyə hazır idi. Təəssüf ki, erməni tərəfi bu görüşdən imtina etdi. İndi sual yaranır: Ermənistan sülh istəyirmi? Zənnimcə, xeyr, çünki əgər sülh istəsəydi, bu imkandan imtina etməzdi. Ermənistanın baş naziri 6 saata Qranadaya uçur, orada Azərbaycansız Azərbaycanın müzakirə edildiyi mənasız görüşdə iştirak edir, amma 2-3 saata Bişkekə uça bilmir, onun mühüm işləri varmış. Bax, biz bütün bunları açıq deməliyik”.

Bu fikirlər, heç şübhəsiz, regionun taleyi üçün tarixi məsuliyyətin ifadəsidir. Amma, neyləyəsən ki, Ermənistan təzə tapdığı “böyük bacısı” Fransanın məkrinə uyaraq, sülh prosesindən qaçır. Azərbaycan lideri həmin görüşdə bu barədə də danışaraq dedi ki, Fransa rəhbərliyi 2020-ci ilin bütün dövründən başlayan qeyri-konstruktiv və təxribatçı rolunu davam etdirir, Azərbaycanın ünvanına əsassız ittihamlar, əsassız təhdidlər səsləndirir, bizə qarşı şantaja əl atır. Amma bu cəhdlər heç bir səmərə vermir. Nəticədə, rəsmi Paris Ermənistanın sülhə gəlməsinə, Cənubi Qafqazda ədalətin bərpasına maneçilik törədir.



**Paşa ƏMİRCANOV**
**pasha.emircanov@mail.ru**

Acınacaqlı haldır ki, son 30 ildə ölkəsinin imperialist dairələrin əlində oyuncaq olmasından nə qədər zərər çəkdiyini görəndən sonra da Paşinyan Fransa kimi “müttəfiqləri”nin hiylələrinə inanır. Unudur ki, Fransa İrəvandan istifadə edərək Cənubi Qafqazda möhkəmlənməyə, Rusiyanı bu regiondan sıxışdırıb çıxarmağa çalışır. Amma bundan Ermənistanın nə isə qazanması mümkün deyil. İkincisi də, “Dəmir yumruq” işə düşəndə başına zərbə dəyən Fransa vətəndaşı deyil, Ermənistan vətəndaşı olacaq.

Bütün bunları nəzərə alaraq, deməliyik ki, Paşinyan nə Bişkek, nə Brüssül, nə də başqa bir görüşdən qaçmamalı, yaşadığı regionun dinc sabahı naminə cəsarətli addımlar atmaqdan çəkinməməlidir. Azərbaycanın inadlı səyləri nəticəsində Cənubi Qafqaza sülh, əlbəttə, gec-tez gələcək. Ancaq bu, nə qədər tez baş versə, Ermənistan o qədər tez dirçələ, qonşularla əməkdaşlıqdan dividend qazana bilər.

# ABŞ prezidentliyinə namizəd coğrafiyadan “2” aldı

**İdmanda olduğu kimi, diplomatiyada da yazılmış və yazılmamış qaydalar var. Birinci arenada dürüstlüklə “lipa”, saxtakarlıq üz-üzə gəlirsə, ikinci müstəvidə obyektivliklə yalan və riyakarlıq qarşılaşır. Hətta bu qarşıdurmaların özündə belə riayət olunası əxlaq normaları, diplomatik etiketlər mövcuddur. Təəssüf ki, Azərbaycana qarşı beynəlxalq mediada, siyasi platformalarda ermənipərəst güclərin apardığı dezinformasiya və qara piar kampaniyalarında həmin əxlaq normaları, diplomatik etiket asanlıqla ayaqlar altına atılır.**



“Adımı sənə qoyum, səni də yana-yana” zərbi-məsəlimizin çeşidli imrpovizə versiyalarını təsəvvürünüzə gətirə bilərsiniz. Amma, üç il bundan əvvəl ABŞ prezidentliyinə namizədliyini irəli sürmüş Vivek Ramasvami adlı birisinin özünün təbliğat-təşviqat kampaniyasında Gəncənin daşnak faşistləri tərəfindən bombalanması kadrlarını Azərbaycanın erməni şəhərinə raket zərbəsi kimi təqdim etməsi variantı yəqin heç birinizin ağlına gəlməzdi.

Əslində, bu, Birləşmiş Ştatlardakı erməni diasporunun, daşnak lobbisinin təşkil etdiyi böhtan kampaniyasını aparanların bütün hədləri keçdiyini, Azərbaycana qarşı qurulmuş misli görünməmiş informasiya savaşının miqyasını göstərirdi. Həm də bu savaşın bəşəri dəyərlərin, siyasi əxlaqın ayaqlar altına atılaraq aparıldığına dəlalət edirdi. Bu çirkab üsul yalnız hayların beynindən keçə bilərdi. Onun icraçısı rolunda çıxış edən Hindistan mənşəli amerikalı Ramasvaminin Cənubi Qafqaz barədə elementar təsəvvürünün olmadığı göz önündə idi.

* * *

İlham Əliyev MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri şurasının iclasının iştirakçıları ilə görüşündə üç il əvvəlki həmin epizodu xatırladaraq belə saxtakarlığa və həyasızlığa yol verəcək qədər simasızlaşmağın qeyri-mümkünlüyünü qeyd edib. Cənab Prezident İkinci Qarabağ müharibəsinin gedişində Ermənistanın münaqişə zonasından yüz kilometrlərlə uzaqda yerləşən şəhərlərimizi uzaqmənzilli ballistik raketlərdən atəşə tutmasını qonaqların nəzərinə çatdırdı: “Bunun nəticəsində azyaşlı uşaqlar da daxil olmaqla, yüzdən artıq mülki vətəndaşımız həyatını itirdi. Məhz haqqında danışdığım həmin namizəd Azərbaycanı ittiham edərək, ermənilərin Gəncəyə və Bərdəyə hücumlarının kadrlarını nümayiş etdirirdi. İndi bu insanlarla necə danışmaq olar, onlara nəyi izah etmək olar?”.

Adətən, vizual görüntülərdən mənası bəlli olan süjetləri “Şərhsiz” deyə, təqdim edirlər. Həmin süjeti tamaşaçı elektoratın gözünə dürtən, bununla “əzabkeş” ermənilərə canıyananlığını nümayiş etdirən ABŞ prezidentliyinə uğursuz namizədin də bu piar kampaniyasını şərh etmək ağrılı olduğu qədər də acınacaqlıdır. Çünki komandanı “ənamla” bir yerdən almış siyasi korafəhimlərə ədaləti çatdırmaq, həqiqəti izah eləmək boş məşğuliyyətdir.

Onların özlərinə deyil, sifarişçilərinə dövlətimizin başçısının cavabı olduqca ibrətamisdir: “Onlar heç nə eşitmək istəmirlər. Onlar mərkəzdən verilən təlimata uyğun hərəkət edirlər. Ona görə də biz indi Azərbaycana qarşı aparılan misli görünməmiş informasiya müharibəsi ilə üz-üzə qalmışıq. Biz, əlbəttə, öz gücümüzlə buna müqavimət göstəririk, baş verənlərlə bağlı həqiqətləri çatdırmağa çalışırıq və çatdırırıq. Ancaq başa düşmək lazımdır ki, güclər qeyri-bərabərdir. Çoxillik müstəmləkəçilik tarixinə malik Fransa kimi ölkələrin dünya üzrə media resursları bizdəkindən qat-qat çoxdur. Lakin bununla belə, biz müxtəlif platformalardan və beynəlxalq təşkilatlardan, habelə digər formalardan istifadə edərək, baş verənlər barədə həqiqətləri çatdırırıq və bundan sonra da çatdıracağıq”.

Bəli, haqq səsimiz dünyanın hər yerində, bütün tribunalarından eşidilənə qədər çalışacağıq. Ədalət zəfər çalana qədər çalışacağıq.

***İ.HƏSƏNQALA***
***XQ***

# Azərbaycanın keyfiyyət meyarları beynəlxalq səviyyədədir

## 2022-ci ildə 68, bu ilin 9 ayında isə 62 yeni dövlət standartı qəbul edilib

*(əvvəli 1-ci səhifədə)*

Yüksək səviyyədə inkişaf etmiş iqtisadiyyatın mühüm tərkib hissəsi kimi standartlaşdırmanın əhatə dairəsinə genişçeşidli istehsal və xidmət sektorları daxildir. Elm, texnika və texnologiyanın müasir tələblərinə cavab verən malların və xidmətlərin istehsalı, onların keyfiyyətinin diqqətdə saxlanılması, rəqabətədavamlılığının artırılması, habelə dünya bazarına çıxışının reallaşdırılması üçün keyfiyyət infrastrukturunun əsasını təşkil edən standartlaşdırma sisteminin təkmilləşdirilməsi dövlətin və iqtisadiyyatın inkişafında xüsusi əhəmiyyətə malikdir.



Bütün bunlar nəzərə alınaraq ölkəmizdə milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılması, məhsulların təhlükəsizliyi, keyfiyyəti, rəqabət qabiliyyəti və ixrac potensialının artırılması istiqamətində son illər bir sıra layihələr həyata keçirilib. İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində olan Azərbaycan Standartlaşdırma və Almaniyanın Fiziki-Texniki Federal institutlarının birgə tədbirində bu barədə ətraflı danışılıb, insan sağlamlığının qorunmasında təhlükəsizlik normalarının daha da təkmilləşdirilməsi, təbii ehtiyatlardan, enerji resurslarından səmərəli istifadənin reallaşdırılması və iqtisadiyyatın inkişafında standartlaşdırmanın rolunun əhəmiyyəti vurğulanıb.

Qeyd edək ki, bu gün respublikamızda məhsul və xidmətlərin keyfiyyətinin və rəqabət qabiliyyətinin yüksəldilməsini təmin edən standartların qəbulu ilə əlaqədar islahatların gerçəkləşdirilməsi daim diqqət mərkəzində saxlanılıb. "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023–2025-ci illər üçün Dövlət Proqramı" çərçivəsində görülən işlər, yeni standartların tətbiqi ilə optimallaşdırılan proseslər və ixrac potensialının artırılması istiqamətində reallaşdırılan tədbirlər müsbət nəticələrlə müşahidə olunub. Bununla da keyfiyyət infrastrukturunun inkişafı və tənzimlənməsində standartlaşdırma sahəsinin yeni mərhələyə keçidi üçün əlverişli şərait yaradılıb.

Hazırda ölkəmizdə standartlaşdırmanın inkişaf etdirilməsi, beynəlxalq standartlarla əlaqələndirilməsi, müasir tələblərə cavab verən yeni milli standartların yaradılması ilə bu sahənin əhatə dairəsi daha da genişləndirilir. Dünyada gedən qloballaşma prosesinə inteqrasiya, ölkəmizin sosial və iqtisadi sahədəki inkişafı fonunda məhsul, istehsal prosesi, xidmət sahəsi və xidmət subyektlərinin standartlaşdırılması zərurəti bu prosesin sürətləndirilməsini şərtləndirir.

Bu gün iqtisadiyyatın bütün sahələrində müşahidə olunan inkişaf meyilləri, o cümlədən, biznes mühitində olan dəyişikliklər məhsul və xidmətlər sahəsində də standartlaşdırma səylərinin artırılmasını və müasir tələblərə cavab vermənsini qarşıya mühüm vəzifə kimi qoyur. Çünki qloballaşma şəraitində müvafiq standartlara cavab verməyən məhsul və xidmətlərin mövcudluğu hamını narahat edir. Belə bir problem isə sosial-iqtisadi inkişafda standartlaşdırmanın əhəmiyyətini davamlı olaraq artırır. Bu baxımdan əhalinin müasir tələb və standartlara cavab verən məhsul və xidmətlərlə təmin edilməsi ölkəmizin iqtisadi inkişaf strategiyasının əsas məqsədlərindən biridir.

Ölkədə istehsal olunan qeyri-neft məhsullarının ixracında standartlaşdırma ilə əlaqədar ciddi şəkildə nəzərə çarpan problemlər hazırda həllini gözləyir. Bunun üçün, ilk növbədə, məhsul rəqabətqabiliyyətliliyin artırılması üçün həyata keçirilən tədbirlər çərçivəsində standartlaşdırmanın hüquqi bazasının müasir tələblərə uyğun olması zəruri amillərdən biridir. Həmçinin milli standartların beynəlxalq standartlara uyğunlaşdırılması da aktual məsələdir.

Son illər ərzində sosial-iqtisadi sahələrin standartlaşdırılması sahəsində dövlət tərəfindən müxtəlif istiqamətlərdə geniş tədbirlər həyata keçirilib, istehsal və xidmət sahəsində keyfiyyət göstəricilərinin beynəlxalq standartlara uyğunlaşdırılması diqqət mərkəzində saxlanılıb, bununla bağlı normativ-hüquqi aktlar təsdiqlənib, qanunvericilik bazası daha da möhkəmləndirilib.

Bu məsələ ilə əlaqədar Kiçik və Orta Biznesin İnkişaf Agentliyinin (KOBİA) fəaliyyəti daha çox diqqət çəkir. Çünki standartma siyasətinin həyata keçirilməsində dövlətlə yanaşı, özəl sektor da fəal iştirak edir. Bundan irəli gələrək adıçəkilən agentlik tərəfindən mütəmadi olaraq ölkəmizdə keçirilən sərgi və yarmarkalarda sahibkarların iştirakına, o cümlədən, mikro və kiçik sahibkarlıq subyektlərinin istehsal etdikləri məhsulların ticarət şəbəkələrində satışının genişləndirilməsinə müvafiq dəstək göstərilir və bu zaman biznes subyektlərindən məhsul və xidmətlərin müvafiq standartlara cavab verməsi tələb olunur.

Ötən dövr ərzində respublikamızda milli standartlaşdırma sisteminin beynəlxalq təcrübəyə uyğunlaşdırılması məqsədilə beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq əlaqələri qurulub, standartlaşdırma, akkreditasiya, uyğunluğun qiymətləndirilməsi, metrologiya sahələrində 20-dək hökumətlərarası saziş və qurumlararası anlaşma memorandumu imzalanıb. Azərbaycanda bu sahənin inkişafında önəmli rol oynayan Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND) hazırda Beynəlxalq Standartlaşdırma Təşkilatının (ISO) 32 texniki komitəsində təmsil olunur. Cari il AZSTAND tərəfindən keçirilən idarəetmə sistemləri standartları üzrə 9 təlimdə 267 iştirakçının təmsil olunması bunun bariz ifadəsidir.

Onu da deyək ki, AZSTAND publik hüquqi şəxs tərəfindən 2022-ci ildə beynəlxalq standartlara və müasir tələblərə uyğunlaşdırılmış 68 yeni dövlət standartı qəbul edilib.

Onu da xatırladaq ki, Azərbaycan–Türkiyə strateji tərəfdaşlıq əlaqələri çərçivəsində AZSTAND ilə Türk Standartları İnstitutu arasında əldə edilən anlaşmaya əsasən, ölkəmizin adıçəkilən standartlaşdırma təşkilatına respublika daxilində Türkiyənin 9 mindən çox milli standartının rəsmi nəşrlərini yaymaq hüququ verilib. Eyni zamanda, Türk Standartları İnstitutunun beynəlxalq tələblərə cavab verən milli standartlarının ölkəmizdə tətbiqinə başlanılıb.

Ümumiyyətlə, hər iki dövlət qurumu qarşılıqlı təcrübədən faydalanmaq və ticarəti asanlaşdırmaq üçün standartlaşdırma, uyğunluğun qiymətləndirilməsi (sınaq, yoxlama, sertifikatlaşdırma və s.), təlimlər və digər sahələrdə qarşılıqlı əməkdaşlığın gücləndirilməsi məqsədi ilə fəaliyyətlərini daha fəal şəkildə davam etdirəcək.

***Vaqif BAYRAMOV***
***XQ***

# Bakı–Tbilisi–Ceyhan kəməri Yevlaxdan güc alır

## *Buradakı 2-ci nasos stansiyası fasiləsiz və təhlükəsiz fəaliyyət göstərir*

**BP şirkətinin ölkənin aparıcı kütləvi informasiya vasitələri üçün təşkil etdiyi ikigünlük mediaturun növbəti dayanacağı Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin Yevlaxda yerləşən 2-ci nasos stansiyası oldu. Stansiyanın girişində media nümayəndələrinə təhlükəsizlik qaydaları ilə bağlı ətraflı məlumat verildi.**

Sonra stansiyanın iş prinsipi, buradakı qurğu və obyektlər barədə geniş təqdimat oldu. Stansiyanın meneceri Rəşad Məmmədov əvvəlcə Xəzərin Azərbaycan sektorunda yerləşən "Azəri–Çıraq–Günəşli" yataqlar blokundan və "Şahdəniz" yatağından çıxarılan karbohidrogenləri dünya bazarlarına ixrac edən boru kəmərlərinin hər biri haqqında jurnalistlərə qısa məlumat verdi. Qeyd olundu ki, 1999-cu ilin aprel ayında istismara verilmiş Qərb ixrac boru kəmərinin (Bakı–Supsa) uzunluğu 829 kilometr təşkil edir. 21 düymlük borularla çəkilmiş kəmərin 445 kilometri Azərbaycan ərazisindən keçir. Bakı–Supsa kəmərinin gündəlik ötürücülük gücü 106 min barel təşkil edir.



R. Məmmədov Azərbaycan neftini dünya bazarına daşıyan Bakı–Tbilisi–Ceyhan (BTC) əsas ixrac boru kəməri ilə bağlı mühüm xarakterik rəqəmləri media nümayəndələrinin diqqətinə çatdırdı. Bildirdi ki, ümumi uzunluğu 1768 kilometr olan bu kəmər 42, 46 və 34 düymlük borularla çəkilib. Kəmərin 443 kilometri Azərbaycan, 249 kilometri Gürcüstan, 1076 kilometri isə Türkiyə ərazisindən keçir. BTC-nin gündəlik ötürücülük gücü 1,2 milyon barel təşkil edir. Bununla belə, zərurət yaranacağı təqdirdə kəmərin nəqletmə gücünün artırılması da mümkündür. Hazırda BTC ilə "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan hasil edilən neftlə yanaşı, "Şahdəniz" yatağından çıxarılan kondensat ixrac olunur. Bundan əlavə, adıçəkilən kəmərlə Qazaxıstan və Türkmənistan nefti də nəql edilir.

Azərbaycanın "Şahdəniz" yatağından hasil edilən qaz isə Cənubi Qafqaz boru kəməri və Cənub Qaz Dəhlizinin seqmenti olan genişləndirilmiş Cənubi Qafqaz boru kəməri ilə Gürcüstan, Türkiyə və Avropaya çatdırılır. Kəmərin ümumi uzunluğu 1166,5 kilometr təşkil edir. Bu nəhəng qaz kəməri 42 və 48 düymlük borularla çəkilib. Qeyd olundu ki, 2006-cı ilin sonlarından "Şahdəniz" qazını Gürcüstan və Türkiyə bazarlarına daşıyan Cənubi Qafqaz boru kəmərinin uzunluğu 691 kilometrdir ki, bunun da 443 kilometri Azərbaycan ərazisindən keçir. 2014-cü ilin sentyabr ayında təməli qoyulan Cənub Qaz Dəhlizi layihəsi çərçivəsində adı çəkilən kəmər genişləndirilib və əlavə 475, 5 kilometr boru xətti çəkilib. Hazırda kəmərin gündəlik ötürücülük gücü 60,7 milyon kubmetr təşkil edir. Kəmər boyunca Gürcüstan və Türkiyə ərazilərində 2 təhvilvermə məntəqəsi yaradılıb.

Yeri gəlmişkən, son illər Avropanın enerji xəritəsinin xeyli zənginləşdirilməsinə imkan yaradan Cənub Qaz Dəhlizinin əsas seqmentlərindən sayılan Trans-Anadolu boru kəməri ilə 2018-ci ilin iyunundan etibarən Türkiyəyə "mavi yanacaq" nəql olunur. Mühüm enerji dəhlizinin son seqmenti olan Trans-Adriatik boru kəməri isə 2020-ci ilin dekabr ayının son günlərindən başlayaraq Azərbaycan qazını Avropa bazarına çatdırır.

Media nümayəndələrinə məlumat verildi ki, 1768 kilometrlik Bakı–Tbilisi–Ceyhan boru kəmərinin müxtəlif relyef quruluşuna malik ərazilərdən keçməsi neftin təzyiqinə nəzarət olunmasını tələb edir. Bu məqsədlə Bakı yaxınlığındakı Səngəçal terminalından başlayaraq Türkiyənin Aralıq dənizi sahilində yerləşən Ceyhan limanınadək uzun bir məsafə qət edən Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri boyunca 8 nasos stansiyası inşa olunub. Həmin stansiyalardan 2-si Azərbaycan, 2-si Gürcüstan, 4-ü isə Türkiyə ərazilərində fəaliyyət göstərir. Boru kəmərinin ahəngdar işi məhz həmin stansiyalardan asılıdır. Belə ki, uzun məsafə qət etməli olan xam neft bu qurğularda, necə deyərlər, yenidən sürət yığaraq yoluna davam edir.

Layihə meneceri R. Məmmədov bildirdi ki, hazırda Bakı–Tbilisi–Ceyhan boru kəmərinin iki operatoru var. Səngəçal terminalından Türkiyənin Ceyhan limanınadək olan geniş bir ərazidə boru kəmərinə nəzarəti SOCAR həyata keçirir. Kəmər boyunca yerləşən bütün yerüstü qurğuların–nasos stansiyalarının operatoru isə BP şirkətidir. Hazırda BTC ilə sutka ərzində orta hesabla 620 min barel neft nəql olunduğunu diqqətə çatdıran layihə meneceri dedi ki, 2022-ci ildə kəmərlə ixrac olunmuş 30 milyon ton neft Ceyhan limanından 305 tanker vasitəsilə dünya bazarına yola salınıb. Ümumilikdə isə, 2006-cı ilin iyun ayından indiyədək BTC neft kəməri ilə, təqribən, 552 milyon tondan artıq neft nəql olunub.

Ötən müddətdə neftin ahəngdar və sabit rejimdə nəqlinin təmin olunmasında BTC-nin digər vacib qurğuları kimi Yevlaxda yerləşən 2-ci nasos stansiyası da mühüm rol oynayıb. Bu barədə media nümayəndələrinə ətraflı məlumat verən R. Məmmədov qeyd etdi ki, hazırda stansiyanın ərazisində 4 neftvurma qurğusu mövcuddur. Onların 3-ü gündəlik ahəngdar rejimdə fəaliyyət göstərir. Dördüncü qurğu isə ehtiyat kimi saxlanılır. Onun sözlərinə görə, 3 qurğu birlikdə gündə 1 milyon bareldək neft aşırmaq gücünə malikdir. Hazırda isə həmin qurğularla gündə orta hesabla 620 min barel neft ötürülür. Sahə menecerinin dediyinə görə, nasos stansiyasının turbinləri Cənubi Qafqaz boru kəməri vasitəsilə nəql olunan "Şahdəniz" qazının hesabına işləyir. Belə ki, Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri ilə eyni dəhlizdən keçən Cənubi Qafqaz boru kəmərindən götürülən qazın təzyiqi azaldılaraq turbinlərə ötürülür. Bunun üçün 2 milyon kubmetr qaz tələb olunur. Həmin qazın ödənişi isə BTC şirkəti tərəfindən həyata keçirilir.

Yevlax nasos stansiyanın enerji təchizatı heç bir kənar infrastrukturdan asılı deyil. Bu barədə məlumat verən layihə menecerinin sözlərinə görə, obyektin elektrik enerjisi ilə dayanıqlı təchizatı üçün ərazidə yarımstansiya və 3 generator quraşdırılıb. Hər birinin gücü 1,2 meqavat təşkil edən həmin generatorlar dizel yanacağı ilə işləyir. Bundan əlavə, stansiyanın ərazisində yanğın təhlükəsizliyi məqsədilə 2 nəhəng su çəni quraşdırılıb.

Məlumat verildi ki, Bakı–Tbilisi–Ceyhan boru kəmərinin ahəngdar işini təmin etmək məqsədilə stansiyanın ərazisində ərsinləmə əməliyyatı aparan sahə fəaliyyət göstərir. Bundan da məqsəd boruların içərisində formalaşmış tullantıların təmizlənməsindən ibarətdir. Son dərəcə diqqət tələb edən bu əməliyyat mühəndislərin müəyyənləşdirdikləri qrafik əsasında həyata keçirilir. Buna da, adətən, ildə bir dəfə zərurət yaranır.

Qeyd edək ki, son illər BP və tərəfdaşlarının birgə reallaşdırdıqları dünya səviyyəli neft-qaz layihələrində yerli mütəxəssislər üçün geniş imkanlar yaradılıb. Təsadüfi deyil ki, hazırda BP şirkətində çalışan peşəkar mütəxəssislərin və rəhbər heyətində təmsil olunan şəxslərin 90 faizindən çoxu yerli kadrlardır. BTC-nin Yevlaxda yerləşən 2-ci nasos stansiyasında çalışanların da, demək olar ki, hamısı yerli mütəxəssislərdir. Ümumilikdə isə, stansiyada növbə ərzində 55 nəfər çalışır ki, bunun da 35 faizi BP-nin öz işçiləri, qalanları isə podratçı şirkətlərin nümayəndələridir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Naxçıvanda növbəti əmək yarmarkası

**Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin təşkilatçılığı ilə Naxçıvan şəhərində növbəti əmək yarmarkası keçirilib.**

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli yarmarkanın açılışında yeni iş yerləri təklifinin əhalinin məşğulluq problemlərinin həllində əhəmiyyətli rol oynadığını bildirib. O, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" çərçivəsində minlərlə iş yerinin yaradılmasının hədəfləndiyini diqqətə çatdırıb.



Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Ceyhun Cəlilov bildirib ki, muxtar respublikada əmək bazarının təkmilləşdirilməsi, iqtisadi fəallığın yüksəldilməsi üçün müvafiq tədbirlər həyata keçirilir, insan amilinə qayğı prioritet vəzifəyə çevrilib. Qeyd olunub ki, muxtar respublikada işaxtaran şəxslərin məşğulluqlarının təmin edilməsi, o cümlədən əmək bazarında rəqabətə davamlılığın artırılması, kadr potensialının yüksəldilməsi daim diqqət mərkəzindədir. Əmək yarmarkaları bu kateqoriyadan olan şəxslərin işlə təmin olunması istiqamətində vacib məşğulluq tədbirlərindən biridir.

Yarmarkaya 42 dövlət müəssisəsindən 356, 79 özəl müəssisədən 327 olmaqla, 683, o cümlədən haqqı ödənilən ictimai işlər üzrə 242 iş yeri təqdim olunub.

***Səbuhi HƏSƏNOV***
***XQ***
**Naxçıvan**

# Paşinyanın qorxusu – Bişkek gerçəyi “Qranada mifi”ni dağıda bilərdi

## Ermənistan siyasiləri baş nazirin Qırğızıstana getməməsini necə dəyərləndirirlər?



*(əvvəli 1-ci səhifədə)*

Bəli, dediyimiz kimi, Ermənistanın siyasi dairələri Paşinyanın Bişkekə getməməsini geniş müzakirə edirlər. Mövcud xüsusda irəli çəkilən ilk məqam oktyabrın 5-də keçirilmiş Qranada Sammitidir. Məlum olduğu kimi, Prezident İlham Əliyev həmin toplantıya qatılmaqdan imtina etdi. Nikolun bir neçə gün əvvəl ölkənin İctimai televiziyasına müsahibəsində səsləndirdikləri fikirlər isə onu deməyə əsas verir ki, həmin sammitdə Azərbaycan üçün, bir növ, tələ hazırlanıbmış. Digər tərəfdən, dövlətimizin başçısının Qranadaya getməməsinin konkret səbəbi var – Fransanın erməni tərəfkeşliyinə qarşı Türkiyənin beşli masaya (Prezident İlham Əliyev, Fransa prezidenti Emmanuel Makron, Almaniya Kansleri Olaf Şolts və Ermənistanın baş naziri Nikol Paşinyan – *red.*) əyləşməsi. Bu tələb yerinə yetirilmədiyindən, beşli, amma altılı olması gözlənilən masa dördlü masaya çevrildi. Əslində, erməni siyasilər də mövcud məqama diqqət çəkirlər. Ancaq Nikolun Bişkekə yollanmamasının məntiqini anlaya bilmirlər.

Ermənistan siyasi müşahidəçilərinin və politoloq-ekspert cameəsinin diqqət yetirdiyi bir nüans var. Məlum olduğu kimi, Paşinyanın komandası Qaranada Sammitini, az qala, böyük diplomatik qələbə kimi qiymətləndirməkdədir. Nikolun tərəfdarları hesab edirlər ki, İspaniyada qazanılan uğur Azərbaycan hakimiyyətinin, guya, Qarabağda etnik təmizləməyə görə cavab verməli olduğunun təsdiqlənməsinə əsaslanır. Başqa bir yandan, nəzərə alaq ki, erməni iqtidarı Prezident İlham Əliyevin Qranadaya yollanmamasını Azərbaycanın sülhdən yayınması kimi dəyərləndirir. Halbuki, belə deyil. Bunu Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev “X” sosial şəbəkəsindəki paylaşımında da bildirdi. O, ölkəmizin sülhə sadiqliyini ifadə etməklə yanaşı, dövlət başçısının Qranadaya getməməsinin səbəblərinə dolğun şəkildə aydınlıq gətirdi...

İndi isə Ermənistanın siyasi dairələri hesab edirlər ki, Paşinyan Bişkekə yollanmamaqla sülhdən yayınır. Qeyd edək ki, bunu Prezident İlham Əliyev də MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri şurasının 53-cü iclasındakı çıxışında vurğulayıb. Yeri gəlmişkən, Ermənistan mediası bu məqama diqqət yetirib və dövlətimizin başçısının söylədiklərini Paşinyanın addımına layiqli cavab olaraq qiymətləndirib. Əlbəttə, erməni mediası və ekspertləri Prezident İlham Əliyevin Paşinyana rişxəndlə yanaşdığı, onu ələ salmağı xoşladığı qənaətindədir və belə görünür, buna haqq verirlər. Elə isə dövlətimizin başçısının münasibətinə diqqət yetirək: “İndi isə sual yaranır: Ermənistan sülh istəyirmi? Düşünürəm ki, xeyr. Əgər o, sülh istəsəydi, bu imkandan imtina etməzdi. Ermənistanın baş naziri 6 saat Qranadaya uçur, orada Azərbaycansız Azərbaycanın müzakirə olunduğu anlaşılmaz görüşdə iştirak edir, Bişkekə isə 2-3 saatlıq uça bilmir, vacib işləri var. Bax bütün bunları biz açıq şəkildə deməliyik. Hamı bunu görür, lakin bunu demək və buna əsaslanmaq lazımdır”.

Erməni siyasilər, eyni zamanda, belə hesab edirlər ki, Paşinyan Bişkekdəki görüşdən imtina etməklə, Prezident Əliyevə ən azı Moskva qarşısında əlavə xal toplamaq üçün əla səbəb verir. Onlar Nikolun nə üçün belə davrandığına izah tapa bilmədiklərini vurğulayırlar. Onlar, həmçinin dövlətimizin başçısının Qranadaya yollanmaqdan imtinasını başa düşdüklərini bildirirlər. Əlbəttə, səbəbi öz prizmalarından izah edirlər. Deyirlər ki, Azərbaycan Prezidentinin Qarabağdakı etnik təmizləməyə görə Avropa liderləri qarşısında özünü doğrultmaq arzusu yoxdur. Əslində isə Qarabağda heç bir etnik təmizləmə olmayıb, bölgənin erməni əhalisi öz xoşu ilə ərazini tərk edib və bu halı etnik təmizləmə kimi sırımağa çalışan istənilən platforma ölkəmiz üçün qeyri-məqbuldur. Qranada da belə oldu.

“Bəs, Paşinyan niyə Bişkekə getmir?”, – deyə erməni siyasilər sual verirlər? Onlar bildirirlər ki, əgər, həqiqətən, Qranadada uğur qazanılmışdısa, onu Bişkekdə möhkəmləndirmək olardı və Nikol bu şansı qaçırdı. Əlbəttə, mövcud xüsusda İspaniyada heç bir uğurun qazanılmadığını söyləmək yerinə düşər. Elə Prezident İlham Əliyevin dördlü masanı “anlaşılmaz görüş” adlandırması da bunun təsdiqidir. Digər tərəfdən, erməni ekspert cameəsinin üzərində dayandığı daha bir məqam var – Bişkekdə Moskvanı qıcıqlandıran Ermənistanın ratifikasiya etdiyi Roma statutu barədə bir daha izahat vermək imkanı var idi. Axı, Paşinyan özü deyir ki, bu məsələdə Moskva ilə anlaşılmazlıq mövcuddur. Yəni, yaxşı olardı ki, gedib anlaşılmazlığı aradan qaldırsın.

O da məlumdur ki, Paşinyan Bişkekə getməməklə, öz aləmində, dünyaya mesaj verdiyini düşünür. Təxminən belə: görürsünüz, mən Bişkekə, yəni Rusiyanın hakim rol oynadığı təşkilatın toplantısına getmirəm, amma İlham Əliyev gedir. Yaxud, İlham Əliyev Qranadaya getmədiyi üçün, mən də Bişkekə getmirəm. Hər halda, erməni siyasilər bunu ucuz gediş adlandırırlar. Onlar, eyni zamanda, Nikolun Bişkekə yollanmaqdan sadəcə qorxduğunu önə çəkirlər. Onu sözünü, danışığını bilməyən, Qərbdən asılı aciz siyasətçi kimi qələmə verirlər. Əlbəttə, erməni ekspertlər Paşinyanın oktyabrın sonlarına doğru Brüsseldə Prezident İlham Əliyevlə onsuz da görüşəcəyini vurğulayırlar. Yəni, qorxunun əcələ faydası yoxdur.

Söhbət qorxudan düşmüşkən, erməni mediası hesab edir ki, Nikolun Bişkekə getməkdən boyun qaçırması, həm də onun Rusiya Prezidenti ilə üzləşməkdən qorxması ilə bağlıdır. “Nikol ona cavab verməkdən qorxur? Nə üçün?”, – deyə siyasi icmalçı Ruben Marqaryan da sual edir. R. Marqaryan Paşinyanın Putindən hansı səbəbə qorxmasına və buna görə onunla üz-üzə gəlmək istəməməsinə özünün ritorik sualları ilə aydınlıq gətirir: “Bəlkə Rusiya sülhməramlı kontingentinin Qarabağdakı fəaliyyətini gözdən saldığına və ümumiyyətlə, hakim komandanın anti-Rusiya təbliğatına görə? Roma statutunun ratifikasiyası üçün? Bəlkə, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatda qeyd olunan və Azərbaycanın qərbini Naxçıvanla, Ermənistan ərazisindən keçməklə, birləşdirməli olan yol boyu tranzit təhlükəsizliyinə nəzarətin Rusiya Federal Təhlükəsizlik Xidmətinin sərhəd qoşunları tərəfindən təminatını istəmədiyinə görə? Qarabağı Azərbaycanın bir hissəsi kimi tanımasına baxmayaraq, Moskvanı Qarabağ faciəsinə görə məsuliyyət daşımaqda günahlandırdığı üçün? Yoxsa Paşinyanın Qarabağ sakinlərinin bölgəyə qayıtmaları və orada təhlükəsiz yaşamaları imkanlarını müzakirə etmək niyyəti yoxdur?”

Əlbəttə, Nikolu Bişkekə yollanmamaqda ittiham edən başqa deyimlər və habelə çoxsaylı ritorik suallar da var. Onların hamısının üzərində dayanmaq istəmirik. Ümumən, bu ittihamlarda iki xətt nəzərə çarpır. Birincisi, Prezident İlham Əliyevlə görüşdən çəkinmək. Çünki məlumdur ki, Paşinyan ona Qranada eyforiyası ruhunda nələrdənsə söz aça bilməyəcək. Nəticədə hazırda erməni cəmiyyətinə sırınan Qranada qələbəsi mifi alt-üst olacaq. İkincisi isə Putindən qorxu. Əlbəttə, Nikolu aşağılayan bir deyim də var: Qranadadan fərqli olaraq, Bişkekdə elə bir əyləncə proqramı planlaşdırılmayıb ki, Paşinyan ailə üzvlərindən birini özü ilə aparmaq istəsin.

**Ə.RÜSTƏMOV**
**XQ**

---

# Fransa və Cənubi Qafqazda sülhə qarşı “gilyotin”

## Rəsmi Paris Ermənistanı yeni müharibəyə təhrik edir

*(əvvəli 1-ci səhifədə)*

Diqqət yetirək, bu gün Parisin İrəvanı açıq şəkildə silahlandırması artıq danılmaz reallığa çevrilib. İş o yerə çatıb ki, Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişellə oktyabrın 7-də baş tutmuş telefon danışığı zamanı deyib: “Fransanın Ermənistana silah verməsi sülhə deyil, yeni qarşıdurmaya xidmət edən yanaşmadır və əgər regionda hər hansı yeni qarşıdurma baş verərsə, bunun səbəbkarı məhz Fransa olacaq”.

Göründüyü kimi, dövlətmizin başçısı, kifayət qədər, konkret tərzdə Fransanın Cənubi Qafqazdakı pozuculuq niyyətini ifşa edir və bu niyyətin hansı nəticələr doğura biləcəyinin anonsunu verir. Şübhəsiz, nəticələr İrəvan üçün fəlakət yaradacaq. Ancaq bunu nə Ermənistan, nə də Fransa dərk edir, yaxud dərk etmək istəmir.

Bəli, Fransa Ermənistanı illüziya bataqlığına sürükləməkdə davam edir. Daha doğrusu, İrəvan bataqlıqdadır, sadəcə, ona ötürülən mesajlar olduğu yerin möhtəşəmliyi görüntüsünü formalaşdırır. Baş nazir Nikol Paşinyan administrasiyası buna inanır. İnanır və öz aləmində demarş yolunu tutur. Məsələn, Nikol Fransanın patronajlığı ilə keçirilmiş Avropa Siyasi Birliyinin üçüncü Zirvə toplantısında iştirak üçün Qranadaya həvəslə yollandığı halda, Bişkekə – MDB Dövlət Başçıları Şurasının iclasına qatılmaqdan imtina yolu tutur. Bu onu göstərir ki, Ermənistan özünü Fransanın forpostu kimi aparır və onun icazəsi olmadan heç bir toplantıya qatılmır. Necə deyərlər, “bacılığa” sədaqət nümayiş etdirir.

Əlbəttə, Parisin İrəvanı özünün Cənubi Qafqaz avantürasına alət etməsini təsdiqləyən ən müxtəlif məsələlərin üzərində dayanmaq mümkündür. 2022-ci ilin sonlarına doğru Avropa İttifaqının mülki müşahidə missiyasının Azərbaycan – Ermənistan şərti sərhədinin Ermənistan tərəfində yerləşdirilməsi ilə başlanmış bu aktiv kurs hazırda hərbi əməkdaşlıq motivlərinə köklənməkdədir. Bu günlərdə İrəvanda səfərdə olmuş Fransanın xarici işlər naziri Ketrin Kolonna da dedi ki, ölkəsi Ermənistanı silah-sursatla təmin edəcək. Fransanın İrəvandakı səfiri Olivye Dekotiyi isə bildirib ki, fransız hərbçilər Ermənistanda keçiriləcək "HOPE FSX2023" hərbi təlimlərinə qatılacaqlar. Deməli, ABŞ-ın ardınca, Fransa da bu Cənubi Qafqaz ölkəsində hərbi təlimdə iştirakçılıq niyyətini ortaya qoyur. Nəinki ortaya qoyur, eyni zamanda, təlimlərə “Dash” tipli iki təyyarə, 8 ton avadanlıq da göndərib. Necə olur ki, hərbi heyət mülki təhlükəsizlik təlimlərinə qatılır? Deməli...

Bəli, rəsmi Parisin bu addımı İrəvanla hərbi əməkdaşlıq fonunda diqqət çəkməkdədir. Kolonna da Ermənistanın təhlükəsizliyinin gücləndirilməsinə ehtiyacın duyulduğunu dilə gətirmişdi. Yəqin elə buna görədir ki, Fransadan gələn hərbi heyətin Ermənistanda yerləşdirilməsinə dair məlumatlar gündəmə çevrilib. Deməli, Paris bölgədə sistemli hərbi mövcudluğa can atır. Bu isə onun, keçmiş müstəmləkələrindən biabırçılıqla qovulmasından sonra, Cənubi Qafqazda nüfuz sahibi olmağa girişməsidir. Yeri gəlmişkən, Nigerdən çıxarılmış fransız hərbçilərin Ermənistanda yerləşdirilməsinə dair fikirlər dolaşmaqdadır.



Bütün bunlar isə yaşadığımız coğrafiyada sülh prosesinə ciddi əngəl törətməkdədir. Əvvəldə haqqında söz açdığımız illüziya məntiqi işə düşür və İrəvan sülhdən yayınmaq yolunu tutur. Əlbəttə, Fransanın kağız üzərindəki dəstəkləri də bu gedişatda az rol oynamır. Mövcud anlamda Parisin təşəbbüsü ilə Qranadada keçirilmiş görüşü və görüşün nəticəsi olaraq imzalanmış sənədləri vurğulamaq mümkündür.

Təsəvvür edin, Qranadada Azərbaycan – Ermənistan münasibətləri kontekstində sənəd ərsəyə gətirilir, ona Fransa prezidenti Emmanuel Makron, Almaniya Kansleri Olaf Şolts, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Paşinyan imza atırlar. Üstəlik, ölkəmizin imzasının yer almadığı sənəd, az qala, Cənubi Qafqaza dair yol xəritəsi kimi təqdim edilir. Sadə məntiq bunun yolverilməzliyindən xəbər verir. Ancaq Paşinyanın komandası məsələni böyük diplomatik uğur kimi səciyyələndirir. Görəsən, məqsəd nədir?

Məqsəd çox sadədir. Fransa Cənubi Qafqazla bağlı dünya gündəmi yaratmağa girişib. Ona görə də lazımsız və mənasız sənədlər imzalatdırır. Yeri gəlmişkən, oktyabrın 11-də Parisin dəstəyi ilə BMT-nin İnsan Hüquqları Şurasında Azərbaycan əleyhinə birgə bəyanat da qəbul edilib. Sənəddə ermənilərin Azərbaycanın Qarabağ bölgəsindən köçməsinin səbəblərinə dair əsassız və böhtan xarakterli iddialar yer alıb. Cəfəngiyyata baxın, orada Qarabağdan Ermənistana köçənlərə “qaçqın statusu”nun verilməsi məsələsi yer alır ki, bunun hüquq baxımından yolverilməzliyi şübhəsizdir.

O da şübhə doğurmur ki, Fransa sonrakı mərhələdə bu sayaq sənədlərə istinadın vacibliyini təbliğ edəcək. Habelə Azərbaycanı onlara əhəmiyyətsiz yanaşmaqda günahlandıracaq. Nəticə etibarilə münasibətlərin həllində güc yolunun açılmazlığına dair görüntü formalaşdırmaq əsas götürüləcək. Yəni, Parisin çalışdığı budur. Gücə gəldikdə isə onu yaratmağı bağlı “təlim ritorikasını” diqqətə çatdırdıq. Ancaq məsələ yalnız bunda deyil. Söhbət Ermənistanın silahlandırılmasından gedir və prosesə Fransa ilə yanaşı, Hindistanın da qoşulduğunu söyləmək mümkündür. Hindistan İrəvana modernləşdirilmiş PİNAKA raket sistemi və ən müxtəlif növ silahlar verib. Əminliklə demək mümkündür ki, hazırda Cənubi Qafqaz siyasi akvatoriyasında Fransa – Hindistan – Ermənistan adlı şər üçbucağı formalaşıb və bu qruplaşmada başlıca rolu Parisin oynadığı gün kimi aydındır.

Görünür, elə buna görə də Prezident İlham Əliyev Ş.Mişellə telefon danışığında Fransanın hərəkətlərinin bölgədə yeni müharibə riski yaratdığını bildirib. Məlumdur ki, bu tendensiya Ş.Mişelin egidası altında keçirilən sülh tənzimlənməsinə də zidddir. O egidaya ki, onun çərçivəsindəki növbəti görüşün bu ayın sonunda Brüsseldə təşkili planlaşdırılmaqdadır. Lakin indidən böyük ehtimal var ki, Aİ Şurası prezidentinin vasitəçilik istəkləri gözlənilən real faydanı verməyəcək.

**Ə.CAHANGİROĞLU**
**XQ**

13 oktyabr dəmiryolçuların peşə bayramıdır

# Azərbaycanın polad yolları 3 beynəlxalq dəhlizin qovşağında

## *Şəbəkənin Qarabağ və Şərqi Zəngəzur qolları sürətlə bərpa edilir*

**Prezident İlham Əliyevin 2005-ci il oktyabrın 7-də “Dəmir yolu işçilərinin peşə bayramının təsis edilməsi haqqında” imzaladığı sərəncama əsasən, hər il oktyabrın 13-ü Azərbaycan dəmiryolçularının peşə bayramı kimi qeyd olunur.**



141 illik tarixi olan Azərbaycan dəmir yolları möhtəşəm inkişaf yolu keçib. Azərbaycanda dəmir yolu tikintisinin birinci mərhələsi 1878-ci ildə başlanıb və 1880-ci il yanvarın 20-də uzunluğu cəmi 20 kilometr olan Bakı–Sabunçu–Suraxanı dəmir yolunun istifadəyə verilməsi ilə başa çatıb. O vaxtdan Azərbaycan Dəmir Yolları yükdaşımalara tələbatın artması nəzərə alınmaqla mərhələ-mərhələ inkişaf etdirilib və müstəqillik illərində təkmilləşdirilib.

Üç beynəlxalq nəqliyyat dəhlizinin kəsişməsində yerləşən Azərbaycanın dəmir yolları “Şərq–Qərb”, “Şimal–Cənub” və “Cənub–Qərb” nəqliyyat dəhlizi üzrə yüklərin daşınmasını həyata keçirir. 2017-ci il oktyabrın 30-da istismara verilən və “Şərq-Qərb” Nəqliyyat Dəhlizinin bir hissəsini təşkil edən Bakı–Tbilisi–Qars (BTQ) dəmir yolu nəqliyyatı ilə bir sıra ölkələrin yükləri Avropaya və əks istiqamətə daşınır. Bu marşrutun fəaliyyəti nəticəsində yol boyunca yerləşən ölkələr arasındakı ticarət dövriyyəsi və qarşılıqlı sərmayə qoyuluşu getdikcə artır, infrastrukturdan istifadə edən ölkələr arasındakı əməkdaşlıq isə dərinləşir. BTQ 3 dövləti əlaqələndirməklə yanaşı, həm də onlarca xalq və ölkə üçün körpü rolunu oynayır. Xatırladaq ki, 2017–2022-ci illərdə BTQ dəmir yolu xətti ilə 1 milyon 347 min 585 ton, ümumilikdə isə, indiyədək 1 milyon 470 min ton yük daşınıb.

Azərbaycanın turizm potensialının artırılmasında xüsusi yeri olan dəmir yolu xətlərinin yenidən bərpası, inşası istiqamətində də işlər aparılır. Bu layihələrə misal olaraq Ləki stansiyası–Qəbələ birxətli dəmir yolunu göstərmək olar. Bu istiqamətdə də sürət qatarlarından istifadə olunacağı nəzərdə tutulur. Gəncədən sonra Qəbələyə sürət qatarının təşkili şimal regionunun turizm potensialının genişlənməsi üçün mühüm önəm daşıyır. Qəbələ daxili və xarici turistlərin səyahəti baxımından Bakıdan sonra ikinci yerdə qərarlaşır. Həmçinin bu rayon ilin bütün fəsillərində turistləri özünə cəlb edən bir istiqamətdir.

Vətən müharibəsində qazanılan parlaq qələbə ilə dəmir yolu infrastrukturunda da yeni mərhələnin əsası qoyuldu. Savaşdan az sonra Prezident İlham Əliyev “Bərdə–Ağdam dəmir yolu xəttinin layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında” sərəncam imzaladı. Uzunluğu 45 kilometr olan Bərdə–Ağdam dəmir yolu xəttinin layihələndirmə və tikinti işlərinin iki mərhələdə həyata keçirilməsinə başlandı.

Layihəyə əsasən, əvvəlcə Bərdə–Təzəkənd istiqamətində 19 kilometr, ikinci mərhələdə isə Təzəkənd-Ağdam dəmir yolunun bərpa edilməsi, Köçərli, Təzəkənd, Ağdam stansiyalarında yeni standartlara uyğun binaların tikintisi nəzərdə tutulub. Bərdə–Ağdam mənzili üzrə 117 süni qurğunun, o cümlədən, 103 ədəd dəmir–beton borunun, 2 böyük yolötürücü qurğunun və 2 körpünün tikilməsi planlaşdırılıb. Həmçinin Horadiz–Ağbənd dəmir yolu istiqamətində də infrastruktur işlərinə başlanılıb.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə yaradılmış nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi və modernləşdirilməsi prosesi Prezident İlham Əliyev tərəfindən daha intensiv şəkildə aparılır. “Bakı–Tbilisi–Qars” və “Şimal–Cənub” beynəlxalq və regional nəqliyyat dəhlizlərinin reallaşması həyata keçirilən irimiqyaslı işlərdəndir.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri ərazi bütövlüyümüzü bərpa etdikdən dərhal sonra ölkə başçısının tapşırıqlarına uyğun olaraq Qarabağda başlanılan quruculuq işləri çərçivəsində dəmir yolu infrastrukturu layihələri intensiv şəkildə həyata keçirilir. “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyəti Bərdə–Ağdam, Horadiz–Ağbənd dəmir yolu xətlərinin yenidən qurulması və Füzuli–Şuşa yeni dəmir yolu xəttinin inşası işlərini davam etdirir.

Azərbaycan Prezidenti İlham Əliyevin 24 noyabr 2020-ci il tarixli sərəncamına əsasən, yenidən qurulması işlərinə başlanılan Bərdə–Ağdam dəmir yolu xəttinin ox üzrə uzunluğu 47,1 kilometrə bərabərdir. Layihə çərçivəsində birxətli dəmir yolu xətti üzrə hazırda fəaliyyətdə olan Bərdə və Köçərli stansiyaları təmir ediləcək, Təzəkənd və Ağdam stansiyaları isə yenidən tikiləcək. Həmçinin yol üzrə 114 ədəd süni mühəndis qurğusunun tikintisi də nəzərdə tutulur.

Prezident İlham Əliyev tərəfindən 14 fevral 2021-ci il tarixində təməli qoyulmuş Horadiz–Ağbənd dəmir yolu xəttinin ox üzrə uzunluğu 110,4 kilometrə bərabərdir. Birxətli dəmir yolu 8 stansiyadan ibarət olacaq, həmçinin layihə çərçivəsində ümumilikdə 300-ə yaxın süni mühəndis qurğusunun tikintisi planlaşdırılır. Horadiz stansiyası ilə yanaşı, digər yeddi stansiya – Mərcanlı, Mahmudlu, Soltanlı, Qumlaq, Mincivan, Bartaz və Ağbənd tamamilə yenidən tikiləcək.

İcrasına başlanılan layihələrlə yanaşı, ADY-nin mütəxəssisləri tərəfindən azad edilmiş ərazilərdə dəmir yolu xətlərinin inşası üçün yeni istiqamətlər araşdırılır. Belə istiqamətlərdən biri də Dəliməmmədli–Kəlbəcər dəmir yolu xəttidir. Dəmir yolu xəttinin ilkin konseptual layihəsi hazırlanıb. Ox üzrə uzunluğu 88,8 kilometrə bərabər bu birxətli dəmir yolu xətti üzrə 220-ə yaxın süni mühəndis qurğusunun layihələndirilməsi və tikintisi təklif edilir.

Azərbaycan Dəmir Yollarının vaqon və lokomotiv parkının yenilənməsi istiqamətində atılan mühüm addımlar da olduqca təqdirəlayiqdir. Yükdaşımalarına olan tələbatın ödənilməsi, xidmətin səviyyəsinin daha da yüksəldilməsi, əlavə yüklərin cəlb olunması və daşınan yüklərin mənzil başına təhlükəsiz şəraitdə çatdırılması üçün texniki vasitələrin yeniləşdirilməsi zamanın tələbidir. Bu, həm də əlavə valyuta resurslarının Azərbaycan iqtisadiyyatına yönəldilməsi deməkdir.

***XQ***

**İşğaldan azad edilən ərazilərin yenidən bərpası, kənd təsərrüfatının muasir texnologiya ilə təmin edilməsi, yeni yaradılan nəqliyyat-logistika dəhlizləri, dayanıqlı inkişaf proqramları Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının simasını dəyişdirir. Aqrar, emal və hasilat sənayesinin inkişafına zəmin yaradır. Bu barədə iqtisadçı alim Elmir Səfərli dedi:**

– Qarabağın münbit torpağı, zəngin təbiəti, o cümlədən, su ehtiyatları işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafına səbəb olacaq və məhsuldarlığı artıracaq. Burada heyvandarlıq, üzümçülük, baramaçılıq, kartofçuluq, pambıqçılıq, taxılçılıq, tərəvəzçilik, meyvəçilik aparıçı sahələr olacaq. Bu bölgədə kənd təsərrüfatının inkişaf potensialı böyükdür. İşğaldan əvvəlki dövrdəki göstəricilər də bunu sübut edir. Həmin tarixdə ölkədə pambıq, tütün, kartof, tərəvəz və bostan məhsulları, meyvə və giləmeyvə istehsalı ənənəvi sahələrdir.

Ənənəvi sahələr arasında üzümçülük və taxılçılıq həm əhatə etdiyi əkin sahələrinə, həm də istehsal həcminə görə xüsusi çəkiyə malik olmaqla üstün və inkişaf etmiş sahələr olub və olacaq. Əvvəlki dövrün yaxşı ənənələri, hazırkı potensial imkanları və müqayisəli üstünlükləri nəzərə alınmaqla Qarabağ iqtisadi rayonunun yeni bazar tələblərinə uyğun

# Azad edilmiş torpaqlar cana gətirilir

## *Tezliklə aqrar sahənin 10 faiz məhsulu bu bölgədə yetişdiriləcək*



taxıl istehsalının 14,3 faizi, pambıq istehsalının 3,3 faizi, üzüm istehsalının 31,5 faizi, kartof istehsalının 6,3 faizi, tütünün 8 faizi ət istehsalının 14,5 faizi, barama istehsalının 17 faizi həmin ərazilərin payına düşürdü.

Rəqəmlər azad olunmuş ərazilərin kənd təsərrüfatı potensialının nə qədər yüksək olduğunu təsdiqləyir. Təsadüfi deyil ki, Azərbaycan Prezidentinin azad olunmuş torpaqlarla bağlı ilk tapşırığı bu torpaqların əkilib becərilməsi ilə bağlı olub. Tapşırığa əsasən, müharibənin başa çatdığı ilk günlərdən etibarən Kənd Təsərrüfatı Nazirliyi və digər aidiyyəti qurumlar tərəfindən işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının gələcək inkişafının planlaşdırılmasına başlanılıb. Kənd təsərrüfatı sahəsinin bərpası istiqamətində tədbirlər görülüb.

Elmir Səfərlinin sözlərinə görə, Qarabağın təbii-iqlim və relyef xüsusiyyətləri nəzərə alınmaqla, bölgədə, xüsusilə taxıl və yem bitkiləri və heyvandarlıq məhsulları istehsalı üstünlük təşkil edəcək. Qabaqcıl ölkələrin təcrübəsindən istifadə etməklə aqrar sektorda böyük uğurlar əldə etmək olar. Bu uğurların mənbəyində təbii ki, bölgənin münbit torpağı, zəngin su ehtiyatları dayanır. Məhsuldarlığın artmasında çox mühüm rol oynayan bu amillər xarici investorların əraziyə cəlb olunmasına yol açacaq. Bu, həm də o deməkdir ki, həmin rayonlarda kənd təsərrüfatı ilə yanaşı, emal sənayesi də genişlənəcək.

İqtisadçı Mahir Zeynalov isə bildirdi ki, Qarabağ iqtisadi bölgəsinə daxil olan rayonların hər biri özünəməxsus zəngin təbii resurslara, yüksək iqtisadi potensiala və inkişaf perspektivlərinə malikdir:

– Bu rayonların iqtisadiyyatında ənənəvi sahələrə üstünlük verilməklə yanaşı, rəqabətədavamlı qeyri-ənənəvi sahələrin də inkişaf etdirilməsi zəruridir. Xüsusən də Qarabağda kənd təsərrüfatının və emal sənayesinin, tikinti sektorunun, mədən sənayesinin, xidmət sahələrinin, turizmin inkişafı üçün yaxşı imkanlar var. Təkcə aqrar sektorla bağlı onu demək kifayətdir ki, çox münbit və məhsuldar torpaqlara malik Qarabağda taxıl, üzüm, müasir standartlar səviyyəsində inkişafı Azərbaycan iqtisadiyyatının daha da böyüməsinə təkan verəcək.

Bölgədə aqrar sektorun inkişaf etdirilməsinin əsas istiqamətlərindən biri də yeni logistika infrastrukturunun qurulması və fermerlərin texnika ilə təchiz edilməsidir. Çünki logistika imkanlarının genişlənməsi kənd təsərrüfatı məhsullarının ixrac bazarlarına çıxarılmasına imkanlar yaradacaq. Bütün bunlar göstərir ki, azad olunmuş ərazilərin aqrar potensialından səmərəli istifadə ölkə üzrə kənd təsərrüfatı məhsullarının istehsalını ciddi çəkildə artıracaq.

Aqrar texnika təchizatına gəlincə, artıq Kənd Təsərrüfatı Nazirliyi planlar hazırlayıb. İnsanlar məskunlaşdıqca, torpağın əkilib-becərilməsinə başladıqca, onların kənd təsərrüfatı texnikasına, eləcə də toxum, gübrə və pestisidlərə olan ehtiyacları ödəniləcək.

Bəs nə qədər torpaq sahəsi əkinə cəlb ediləcək? Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) icraçı direktoru Vüsal Qasımlı bildirdi ki, 200 min hektar kənd təsərrüfatı sahəsi və bundan da çox örüş sahəsi, həmçinin keçmiş cəbhə xətti boyunca istifadəsiz qalan on minlərlə hektar torpaq sahəsi aqrar biznesin resurs əsasını təşkil edir. Hesablamalar göstərir ki, orta müddətli perspektivdə Qarabağ bölgəsi ölkənin kənd təsərrüfatına 10,4 faiz töhfə verəcək.

Qeyd edək ki, bölgənin aqrar inkişafı Azərbaycan iqtisadiyyatına təsir edəcək. Keçmişlə müqayisədə yeni və daha üstün iqtisadiyyat qurmağa imkan verəcək. Qarabağa Böyük Qayıdış reallaşdırıldıqdan və yerli iqtisadiyyat dirçəldildikdən sonra bölgə sosial-iqtisadi cəhətdən özünü təmin etməklə yanaşı, bütövlükdə, Azərbaycan iqtisadiyyatına böyük töhfə verəcək, ölkədə ərzaq təhlükəsizliyi təmin olunacaq, yeni iş yerləri yaranacaq, ixrac potensialı artacaq.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

**Ağdam**

Sosial sfera yenilikləri

## DSMF sərbəst vəsaiti investisiyaya yönəldir



***Dövlət Sosial Müdafiə Fondunun (DSMF) sərbəst vəsaitinin investisiyaya yönəldilməsi məqsədilə nazirlikdə yaradılmış İnvestisiya Şurasının növbəti iclası olub. Qeyd edək ki, şuranın tərkibinə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu, İqtisadiyyat və Maliyyə nazirlikləri, həmçinin Dövlət Neft Fondunun nümayəndələri daxildir.***

İclasda şuranın sədri, Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Prezident İlham Əliyevin tapşırıqları əsasında son illər aparılan ardıcıl sosial islahatların DSMF-ni də əhatə etdiyini bildirib. Fondun fəaliyyətində optimal və mərkəzləşmiş iş mexanizmlərinin, innovativ həllərin tətbiqi işləri, sosial sığorta daxilolmalarında artımlar qeyd edilib.

Dövlət başçısının bu ilin aprel ayında imzaladığı qanunvericilik aktları ilə DSMF-nin sərbəst vəsaitinin, yəni, fondun büdcəsinin icrasının yarımillik və illik nəticələrinə görə gəlir və xərclər arasında müəyyən edilən müsbət qalığın investisiyaya yönəldilməsinin önəmi vurğulanıb. Bu addımın fondun sərbəst vəsaitlərinin səmərəli idarəetmə yolu ilə dəyərinin qorunmasında əhəmiyyəti, həmin investisiya gəlirlərindən şəhid ailələri və müharibə əlillərinin sosial müdafiəsində, işğaldan azad edilmiş ərazilərimizdə sosial infrastrukturun yaradılması xərclərində də istifadə edilməsinin nəzərdə tutulduğu diqqətə çatdırılıb.

İclasda ötən dövrdə sərbəst vəsaitin maliyyə alətlərinə uğurla investisiya edildiyi qeyd olunub. Bu sahədə görülən işlər və investisiya fəaliyyətinin davam etdirilməsi istiqamətində qarşıda duran vəzifələr müzakirə olunub.

## Qusarda məşğulluğa dəstək

***Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan “Məşğulluğa Dəstək Layihəsi” ilə bağlı Qusar rayonunda növbəti ictimai dinləmə təşkil edib. Görüşün məqsədi layihə barədə məlumatlılığı artırmaq və nəzərdə tutulmuş hədəf kateqoriyalarını layihəyə cəlb etmək olub.***




İşaxtaran və işsizlərin iştirak etdiyi görüşdə layihənin hədəf və məqsədləri, əhatə dairəsi, layihənin icrası zamanı ətraf mühit və sosial məsələlərə dair tələblər diqqətə çatdırılıb. Proqramın gözlənilən faydaları, eləcə də müraciət və iştirak qaydalarına dair ətraflı məlumat verilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb. Tədbirin sonunda iştirakçılara layihə və təqdim edilən biznes zərflər barədə məlumatların əks olunduğu çap materialları paylanıb.

## Naxçıvanda “İşsizin dostu” çoxalır

***DOST İş Mərkəzi tərəfindən Naxçıvan Muxtar Respublikasında daha 500 nəfərin “İşsizin dostu” proqramına cəlb edilməsinə başlanıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən xəbərə görə, onlardan artıq 100 nəfəri proqram çərçivəsində ödənişli ictimai işlərlə təmin ediliblər. Qalan 400 nəfərin də proqram çərçivəsində məşğulluğunun təminatı üçün işlər aparılır.***

Bundan əvvəl də DOST İş Mərkəzi Naxçıvan MR-də ilk layihəsi olaraq 500 şəxsi işlə təmin edib və hazırda regionda 600 nəfər proqramı üzrə müxtəlif işlərdə çalışır. Bununla da, Naxçıvan MR-




də həmin proqrama cəlb edilənlərin sayı 1000-ə çatacaq. Ödənişli ictimai işlərə cəlb edilən hər bir şəxslə əmək müqaviləsi bağlanır ki, həmin şəxslərin gələcək pensiya hüquqları təmin ediləcək.

## Ukraynalı uşaqlar İsmayıllının qonağıdır

***Dövlət-Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin təşkilatçılığı ilə ölkəmizə gətirilərək reabilitasiya tədbirlərinə cəlb edilən 30 ukraynalı uşağın İsmayıllı rayonuna da ekskursiyası təşkil edilib.***



Uşaqlar rayonun Basqal qəsəbəsindəki tarixi irsimizlə tanış olub, öz koloritini qoruyub saxlayan qədim məkanı gəziblər. Bundan əvvəl isə onlar Qəbələ Arxeoloji Mərkəzində olublar və orada uşaqlara Azərbaycanın tarixi barədə əyani eksponatlar vasitəsilə məlumat verilib.

Agentliyin Qəbələ Uşaq Reabilitasiya Mərkəzində yerləşdirilən uşaqların emosional vəziyyətlərinin stabilləşməsinə, eləcə də cəmiyyətə inteqrasiyalarının təmin edilməsinə dəstək göstərilir. Onlar müalicəvi masaj, hovuz və vanna, art-terapiya, əmək terapiyası, peşəkar psixoloqlar tərəfindən keçirilən fərdi və qrup terapiyalarında iştirak edirlər.

Ukraynalı uşaqlar Şamaxıya da səfər edəcəklər.

***Zərifə HÜSEYNOVA***
***XQ***

# Meksika səfiri Lənkəranda

**Meksika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri xanım Mariya Viktoriya Romero Kabalyero Lənkərana səfər edib.**

Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) başçısı Taleh Qaraşov meksikalı diplomatla görüşüb. İcra başçısı xarici diplomata Lənkəran rayonunun coğrafi mövqeyi, təbiəti, flora və faunası, tarixi, mədəniyyəti, turizm potensialı və sosial-iqtisadi inkişafı barədə geniş və əhatəli məlumat verib. Taleh Qaraşov Azərbaycanla Meksika arasındakı münasibətlər barədə bildirib ki, ölkələrimiz arasında coğrafi məsafənin uzaq olmaasına baxmayaraq, əməkdaşlıq üçün geniş imkanlar mövcuddur və ölkələrimiz dövlət başçısı cənab İlham Əliyevin yürütdüyü məqsədyönlü siyasət nəticəsində beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıq edir.

İcra başçısı ölkələrimiz arasındakı əlaqələrin bölgələr və şəhərlər arasında inkişaf etdirilməsinin önəmi barədə də danışıb. Taleh Qaraşov qarşılıqlı turizmin inkişafının, elm və təhsil sahəsində tələbə mübadiləsinin və mədəni tədbirlərin həyata keçirilməsinin bu istiqamətdə əlaqələrin daha da möhkəmlənməsinə xidmət edəcəyini vurğulayıb.

Xanım səfir ölkələrimiz arasındakı diplomatik münasibətlərin daha da inkişaf etidilməsində maraqlı olduqlarını qeyd edib. Onun sözlərinə görə, hər iki ölkə rəhbərliyinin bu istiqamətdəki iradəsi eynidir və əməkdaşlıq üçün çoxlu imkanlar mövcuddur, enerji, investisiyalar, elm, təhsil sahələrində geniş potensial var. Meksikalı diplomat ölkələrimiz arasında mövcud olan müqavilələr çərçivəsində, xüsusilə, elm və təhsil sahəsində bu imkanlardan istifadə olunmasının mümkünlüyündən danışıb.

Daha sonra meksikalı xanım diplomat səfər çərçivəsində Lənkəran Dövlət Universitetində (LDU) “Meksika memarlığının şah əsərləri” adlı fotosərgidə iştirak edib, “Yaşıl çay” FT-nin çay plantasiyası və “Azərxalça” ASC-nin Lənkəran filialı ilə tanış oub.

***XQ***

Əli Tudə–100

# Otaylı–butaylı Vətənin unudulmaz şairi

**Vətəndə qürbət taleyi yaşamış mübariz şair, Əməkdar incəsənət xadimi Əli Tudə ömrü boyu bütöv və azad Azərbaycan arzusu ilə yaşayıb. 100 il əvvəl Ərdəbildə dünyaya göz açan şair yaradıcılığı ilə xalqın çoxəsrlik birlik amalının alovunu sönməyə qoymayıb. Unudulmaz Vətən oğlunun yubileyi ilə bağlı “Əli Tudə – 100” toplusu çapdan çıxıb.**





Qələm sahibinin oğlu Natiq Cavadzadənin yurd və ata sevgisi ilə ərsəyə gətirdiyi 608 səhifədən ibarət kitabda məlumatlar “Yazılar, fikirlər, sənədlər”, “Həsr olunan şeirlər”, “Biblioqrafiya” və “Qəzetlərdə və jurnallarda çap olunan digər yazılar” adlı 4 bölmə üzrə qruplaşdırılıb. Şairin qələm dostlarının, elm və mədəniyyət adamlarının şair haqqında məqalələrinə, ona həsr olunmuş şeirlərə kitabda yer verilib. Müəllifin kiril, əski (ərəb qrafikalı Azərbaycan əlifbası) və latın əlifbası ilə çap olunmuş kitablarının siyahısı, o cümlədən, poema və şeirlərindən ibarət 20 cildliyin biblioqrafik göstəriciləri və mətbuatda dərc olunan müxtəlif səpkili yazıların siyahısı verilib.

Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda “Şöhrət zirvəsinə qalxmaq istəyən Milləti nərdivan etməsin gərək!” düşüncəli şair Əli Tudəyə həsr olunan yeni kitabın təqdimat mərasimində ədəbi ictimaiyyətin nümayəndələri, yaradıcılığının pərəstişkarları toplaşmışdılar. Tədbiri AYB-nin Cənubi Azərbaycan Komissiyasının sədri Sayman Aruz açaraq, unudulmaz şairin həyat və sənət yolundan danışdı, təqdim olunan kitabın tədqiqatçılar üçün etibarlı mənbə olduğunu vurğuladı.

AYB-nin sədri, Xalq yazıçısı Anar Əli Tudənin vətənpərvər bir insan və məfkurə şairi kimi mənəvi-siyasi keyfiyyətlərindən bəhs etdi. O, gələn ildən “Əli Tudə poeziya mükafatı”nın təsis ediləcəyini bildirdi.

Sonra AYB-nin katibi, Əməkdar incəsənət xadimi Elçin Hüseynbəyli, “Kredo”ədəbi qəzetinin baş redaktoru Əlirza Xələfli, Xalq şairi Balaş Azəroğlunun oğlu Etibar Abizadə, filologiya elmləri doktoru, professor Elman Quliyev, şairlər Mübariz Məsimov, Mübariz Süleymanlı, Güney mühaciri Adilə Çərnik Bülənd və başqaları çıxış edərək, 50 il öz Vətənində siyasi qaçqın kimi yaşamış, SSRİ pasportundan imtina etmiş istiqlal şairi Əli Tudə ilə bağlı xatirələrini dilə gətirdilər, onun poeziyasının əsas məziyyətlərini dəyərləndirdilər. “Əli Tudə – 100” kitabının üstün cəhətlərinə diqqət cəlb edildi.

Qeyd olundu ki, şairin 100 illiyi münasibətilə bundan əvvəl “Mən nə gətirdim” və “Bakının işıqları” kitabları Təbrizdəki “Azərturan” nəşriyyatında əski əlifba ilə çap olunub. Həmin nəşrləri gənc yazar və tərcüməçi Əli Aslani tərtib edib. O, 100 illik münasibətilə şairin “Təbriz yolu”, “Araz üstə palıd” kitablarını və xatirələrini də çapa hazırlayır.

Sonda şairin oğlu Natiq Cavadzadə söz alaraq, Əli Tudənin ruhuna göstərilən ehtirama görə təqdimatı təşkil edənlərə və tədbirin iştirakçılarına minnətdarlığını bildirdi.

***Ə.ƏLİYEV***
***XQ***

# Dünya caz ulduzlarının Bakı sürprizləri

**Artıq bir həftədir ki, Bakıda XVIII Beynəlxalq Caz Festivalı davam edir. Daha 3 gün davam edəcək festivalın sədaları Abşeronun küləklərinə, Xəzərin dalğalarına qoşularaq xoş bir ahəng yaradır. Virtuoz sənətkarların konsertləri, digər maraqlı tədbirlər musiqisevərlərin zövqünü oxşayır.**

Xatırlayırıq ki, iyul ayında paytaxtımızda V Bakı Yay Caz Günləri də uğurla keçmişdi. Xalq artisti Mircavad Cəfərovun rəhbərlik etdiyi “Cəngi” folk-estrada qrupu, həmçinin İsfar Sarabski, Ruslan Hüseynov, Etibar Əsədli, Elvin Bəşirov və digər cazmenlərimiz möhtəşəm çıxışları ilə fərqlənmişdilər. Pianoçu Elçin Şirinovun israilli həmkarları ilə birgə improvizələri gur alqışlarla qarşılanmışdı. Daha öncə isə Fransa



və Almaniyanın birgə televiziya kanalı olan ARTE-nin "Bakıda caz havası" adlı reportajı, az qala, bütün qitəyə səs salmışdı. Həmin proqramda caz-muğam sintezinin yaradıcısı Vaqif Mustafazadənin ölməz sənəti dünya caz tarixinin performansları – Lui Armstronq, Belli Qudmen, Dük Ellinqton, Çarli Parker, Dizzi Gillespirin kimi virtuozların musiqiləri ilə eyni tutulurdu. Niyazinin, Tofiq Quliyevin sənəti layiqincə qiymətləndirilmişdi.

Bəli, caz artıq bizə yabançı təsir bağışlamır, həvəslə qəbul olunur və inkişaf etdirilir. Xalq mahnılarımızın zəngi musiqiçilərlə interpretasiyaları, “Cəngi”mizin caz elementli kompozisiyaları, qəribə variasiyalar gözəl melodik bir axarda ruhumuzu dilləndirir. Şahin Növrəsli, Emil Əfrasiyab, Salman Qənbərov, Svetlana Məhərrəmova, Səbinə Hacıyeva, Təranə Mahmudova, Seymur Əliyev, Elcan Cəbrayılov, Vasif Hüseyn, Samir Cazzi, Pərviz Məmmədov, Vaqif Əliyev kimi cazmenlərimiz artıq dünya arenasına çıxırlar.

Elə açılış mərasimi “UN 1906” klubunda keçirilən XVIII Beynəlxalq Caz Festivalında da həmyerlilərimiz özlərini səhnədə yetərincə inamlı apardılar. Builki caz bayramında 15 ölkədən musiqiçilər, o cümlədən, “Gremmi” mükafatı laureatları olan ifaçılar, Amerikadan caz və rep ifaçısı Zeo Kroker, arfa caz ifaçısı Edmar Castaneda və Qregori Maret də xüsusi proqramla Bakıya gəliblər.

Qeyd edək ki, festivalın əsası 2005-ci ildə görkəmli caz musiqiçisi, Əməkdar artist Rain Sultanov tərəfindən qoyulub. Ötən müddətdə festival öz ənənələrini formalaşdırıb, dünya musiqi ictimaiyyətinin diqqətini çəkə bilib. Cazsevərlər Almaniya, Türkiyə, Norveç, Avstriyadan olan musiqiçi qonaqları canlı dinləmək imkanı qazanıblar. İlk musiqi yarmarkasında seyrçilərə DJ Grafın səsləndirdiyi musiqi sədaları altında rəqs etmək imkanı da yaradılıb.

Festivalın sonrakı günlərində Berlinin məşhur “Cazzanova” qrupu amerikalı DJ Amir ilə birlikdə əsrarəngiz çıxış edib. Cazın çeşidli üslublarında musiqi nömrələri səsləndirilib. Bluz, modern, elektron və dəyişik musiqiçilərdən ibarət proqram maraqla qarşılanıb. Aleksandr Bark, Klaas Briler, Yurgena fon Knoblauxa, Roskov Kretşman, Stefan Layzerinq və Aksel Raynemera sürəkli alqışlar qazanıblar.

Festival konsertlərinin əsas səhnəsi olan Beynəlxalq Muğam Mərkəzində gənc caz ifaçılarının iştirakı ilə “Mən cazmenəm!” müsabiqə-konserti təqdim edilib. Festivalın bu ənənəvi tədbirində bir məqsəd də cazın təbliği və gənc iste-dadların üzə çıxarılmasıdır. Aparıcı Tofiq Həsənsoy Azərbaycan cazının tarixi və ənənələrindən söz açıb. Bu musiqinin ölkəmizdə inkişafına töhfə vermiş insanlar xatırlanıb. Daha sonra səhnə gənc istedadların ixtiyarına verilib. Mədinə Paşayeva, Günel Hacıyeva, Cavanşir Abdullalı, Rəna Xanəlibəyli, Samir Səfərov, Nəzrin Cəfərova, Cozef Okparmen və başqaları dünyanın məşhur caz ifaçılarının repertuarlarından kompozisiyalar ifa ediblər. Konsertin sonunda vokalçı-bəstəkar Qasım Xəlilov səhnəyə çıxaraq gənc istedadları təbrik edib. Diqqətə çatdırılıb ki, festival çərçivəsində təşkil olunan proqram gənc musiqiçilərin inkişafında mühüm yer tutur. Daha sonra iştirakçılara festivalın diplomları təqdim olunub.

Oktyabrın 10-da Beynəlxalq Muğam Mərkəzində iki proqram təqdim olunub. Dünyaca məşhur italyan musiqiçi, mötəbər festivalların laureatı Fa-bio Leporenin kvarteti müxtəlif caz üslublarında ifalarıyla heyrət doğurub. Bu, Fabionun Bakıda ilk çıxışı deyildi. O, İtaliyanın Bakıdakı səfirliyinin xətti ilə bundan əvvəlki festivallarda da parlaq çıxışları ilə yadda qalıb. Həmin gün daha bir konserti Moldovanı təmsil edən qrup təqdim etdi. “Jazz’in Chisinau” layihəsi payızın parlaqlığını, bəstəkar Valeri Kuleanın bəstələrində əks olunmuş yeni ideyalar və musiqi sürprizləri səhnənin gül-çiçəyə qərq olması ilə nəticələnib.

Nəhayət, xatırladaq ki, sabah Heydər Əliyev Mərkəzində braziliyalı vokalçı Mario Bakunanın konserti olacaq. “Jazz & Vinyl” və “Grammy” sahibləri ilə, tədqiqatçı Fuad Axundov ilə görüşlər, rəssam Eldar Qurbanovun “Cazın ağ quşları” sərgisi də proqrama daxildir.

***Ə.DOSTƏLİ***
***XQ***

# Filarmoniyada Raxmaninov konsertləri

**M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyası “Dünya konsertləri turnesi” beynəlxalq layihəsi çərçivəsində (bədii rəhbər Stanislav Yudeniç (ABŞ) dahi rus bəstəkarı Sergey Raxmaninovun anadan olmasının 150 illiyinə həsr olunmuş konsertlər silsiləsi davam edir. Bu səpkili konsertlər oktyabrın 14-dək davam edəcək.**




Növbəti konsertdə Mustafa Mehmandarovun rəhbərliyi, Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin müşayiəti ilə solistlər - İlya Şmukler (piano,Rusiya), Çi-Çi (piano, Çin), Yanqrey Tsay (piano, Çin) və Əli Məmmədov (piano, Azərbaycan) öz ifalarını uğurla dinləyicilərə təqdim ediblər.

Proqramda Sergey Raxmaninovun Piano və orkestr üçün 2 (c-moll, op.18) və 4 saylı (g-moll, op.40) konsertləri, “Paganini mövzusuna Rapsodiya”sı, op.43 və Sergey Prokofyevin Piano və orkestr üçün 2 saylı (g-moll, op.16) konserti səslənib.

Qeyd edək ki, “Dünya konsertləri turnesi” beynəlxalq layihəsi 2019-cu ilin aprel ayından Özbəkistanda başlayıb.

***XQ***

“XQ”nin kitab rəfi

## Milli musiqişünaslıq tarixi

***“Elm” nəşriyyatında görkəmli musiqişünas, Əməkdar incəsənət xadimi, akademik Zemfira Səfərovanın “Azərbaycan musiqişünaslığı: mühüm mərhələlər” adlı kitabı ictimaiyyətə təqdim edilib.***

Azərbaycan musiqişünaslığının mühüm mərhələləri və problemlərinin araşdırıldığı kitab 8 bölmədən ibarətdir. Müəllif elmi mütəxəssislərlə bərabər, bu sahə ilə maraqlanan oxucuları da musiqişünaslığımızın tarixi ilə tanış edir.



Tədqiqatın müqəddiməsinin müəllifi akademik İsa Həbibbəyli, redaktorları – sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar incəsənət xadimi, professor Aidə Tağızadə, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Ülkər Talıbzadə, rəyçiləri – AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə və Əməkdar incəsənət xadimi, professor Tariyel Məmmədovdur.

Kitabda müəllifin son illərdə rus və ingilis dillərində çıxan məqalələri xarici oxucular üçün təqdim edilib.

## Saz və sazbəndlər




***“Sazbəndlik sənəti və sazbəndlər” adlı kitabı Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə“Ozan Dünyası” Aşıq Yaradıcılığının Təbliği İctimai Birliyi hazırlayıb.***

Nəfis tərtibatda işıq üzü görən kitab aşıq sənətinin və bu sənətə bağlı olan instrumental ifaçılığın inkişafında mühüm rol oynayan sazbəndlik sənətinə və sazbəndlərə həsr olunub. Kitabda sazbəndlik bir sənət sahəsi kimi diqqət önünə gətirilir, onun incəlikləri araşdırılır. Eyni zamanda mahir sazbəndlər haqqında qısa tanıtım məlumatları verilir.

Azərbaycan Aşıqlar Birliyinin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlının “Ön söz” yazdığı kitabın müəllifi Əməkdar mədəniyyət işçisi Musa Nəbioğludur. Əsərin elmi redaktoru ADPU-nun prorektoru, filologiya üzrə elmlər doktoru, professor Mahirə Hüseynovadır.

## İstedadlı şairin 2 kitabı




***Ankarada “Çağdaş Azərbaycan şairi Əlizadə Nurinin şeir dünyasına yolçuluq” kitabı, eləcə də Bakıda “Sənə yağış dərirəm...” adlı şeir və poemalar toplusu çapdan çıxıb.***

Qardaş ölkədə işıq üzü görmüş kitabın müəllifləri İlkin Gülüsoy və Habibe Aydır. İlk bölümdə şairin ədəbi şəxsiyyətindən bəhs edilir, sonrakı bölümlərdə isə onun şeirləri çözümlənir və bədii nümunələri oxuculara təqdim olunur.

Özünü obrazlı şəkildə “Payız adam” adlandıran Əlizadə Nurinin “Sənə yağış dərirəm...” kitabında isə yaşı 60-ı haqlamış şairin pəncərəsində “ağlayan yağış”-la bağlı assosiativ gəzişmələri, həmçinin Vətən, sevgi duyğulu könül çırpıntıları əks etdirilib. Orijinal təşbehlər, metaforalarla zəngin şeirlər maraqla oxunur.

## Şərəfli döyüş yolu

***“Elm və Təhsil” nəşriyyatında jurnalist Pünhan Əfəndiyevin Xüsusi Təyinatlı Qüvvələrin giziri, “Azərbaycan Bayrağı” ordenli şəhid Elvin Abdurahmanova həsr edilmiş “Uğrunda ölməyəcəyin bayrağın kölgəsinə sığınma” kitabı nəşr edilib.***

Kitabda Elvinin həyatından, hərbi xidmət illərindən, 44 günlük Vətən müharibəsindəki döyüş yolundan bəhs edilir. Onun döyüş yoldaşlarının şəhid haqqında xatirələrinə də geniş yer verilib. Qeyd olunub ki, müharibənin 5-ci günü düşmən gülləsinə tuş gələn Elvin az vaxtda bir sıra strateji yüksəkliklərin azad edilməsində qəhrəmanlığı ilə seçilib.




Zabit şərəfini hər şeydən üstün tutan, ölümün gözünə dik baxan Elvinin şəxsi keyfiyyətlərinə də kitabda diqqət cəlb edilib. “Şuşada olmamışam, oranı görməyi çox istəyirəm”, – deyirmiş Elvin. Təəssüf ki, bu ona qismət olmadı. Amma qəhrəman ordumuzun 44 günə Qarabağı və Şuşanı işğaldan azad etməsi onun, digər şəhidlərimizin də ruhunu şad etdi.

Kitabın mütaliəsindən yaranan ümumi nəticə bundan ibarətdir ki, Vətən sevgisi Elvin kimi qəhrəmanların dilində yox, əməllərində olub.

***Ə.DOSTƏLİ***
***XQ***

# Oftalmoloqların Masallı konfransı

**Akademik Zərifə Əliyevanın 100, Milli Oftalmologiya Mərkəzinin Masallı filialının 15 illiyinə həsr olunmuş "Azərbaycanın Regionlarında oftalmoloji yardımın optimallaşdırılması" mövzusunda XI Regional konfrans keçirilib. Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin təşkil etdiyi məclisin Masallıda keçirilməsində məqsəd oftalmologiya sahəsində baş verən yenilikləri, nailiyyətləri araşdırmaq, təkliflər vermək, bu sahədə baş verən ən son yeniliklərdə region həkimlərinin iştirakını təmin etmək və onların da bu yeniliklərdən istifadəsinə dəstək olmaqdır.**




Konfransı giriş sözü ilə Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin sədri, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin direktoru, professor Elmar Qasımov açaraq tədbirin keçirilmə məqsədindən, Masallı filialının 15 il ərzindəki fəaliyyətindən, əhaliyə yüksək xidmətindən bəhs edərək oftalmologiyanın regionlarımızda durmadan artan inkişafını və gələcəkdə daha da irəli getməsi ilə bağlı görüləcək işlərdən bəhs edib. O, həmçinin yüksək ixtisaslı səhiyyə kadrlarının hazırlanmasına hər zaman dəstəyini davam etdirəcəyini bildirib.

Türk Cümhuriyyəti Oftolmoloji Dərnəyinin (TCOD) fəxri sədri Dr. Sunay Duman, TCOD-un sədri professor Öner Gelişken, Türkiyə Oftalmoloji Dərnəyinin sədri, professor Ziya Kapran və Suleyman Kaynak Masallı filialının 15 illiyi münasibəti ilə keçirilən məclisə videoformatda qoşulublar.

Sonra məruzələr dinlənildi, müzakirələr aparıldı.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

# Şahmatçımız dünya birinciliyinin qalibi olub

**İtaliyanın Sardiniya adasında gənclər arasında keçirilən dünya birinciliyində Azərbaycan təmsilçisi Gövhər Beydullayeva böyük uğurla çıxış edib.**

Zəka sahibi qızlar arasında keçirilən yarışda 11 turdan 9 xal qazanaraq birinci yeri tutub.

Azərbaycanın digər şahmatçısı Məhəmməd Muradlı isə 6,5 xalla turniri 13-cü pillədə başa vurub.



# Futbol millimiz bu axşam Tallində neyləyəcək?




**Azərbaycanın milli futbol komandası bu gün Estoniyanın paytaxtı Tallin şəhərinin qonağıdır. Yığmamız Avropa çempionatı–2024-ün seçmə mərhələsi çərçivəsində növbəti görüşünü bu Baltikyanı ölkə komandası ilə keçirəcəkdir. "F" qrupunda mübarizə aparan hər iki kollektiv turnir məsafəsinin birinci yarısında pərəstişkarlarının ümidini doğrultmamışdır.**

Rəqiblərin hərəsinin hesabında ötən yay "Dalğa Arena"da heç-heçə (1:1) oynadıqları görüşdə qazandıqları 1 xal var. İndi onlar arzuolunmaz mövqelərdə—turnir cədvəlinin son iki pilləsində qonşudurlar. Estonlar beş, Azərbaycan futbolçuları dörd görüş keçirmişlər.

Qrupun liderləri isə beş oyunda hərəyə 13 xal qazanan Belçika və Avstriyadır. Üçüncü pillədə irəliləyən İsveç 6 xal toplamışdır.

Xarici ölkə klublarında çıxış edən Azərbaycan millisinin hücumçuları komandamızın düşərgəsinə yaxşı əhval-ruhiyyə ilə gəlmişlər. Rinat Dadaşovun şərəfini qoruduğu "Hatayspor" Türkiyə Superliqasının 8-ci turunda "Konyaspor"a qalib gəlmiş (3:1) və qollardan ikisinin müəllifi Rinat olmuşdur. "Dinamo" (Zaqreb) Xorvatiya birinciliyinin növbəti turunda "İstra"üzərində böyük hesabla qələbə qazanmışdır (3:0). Toplardan biri Mahir Emrelinin ötürməsi ilə vurulmuşdur. Tərkibində Musa Qurbanlının da çıxış etdiyi Stokholmın "Yurqorden" komandası İsveç çempionatının 26-cı turunda səfərdə "Varberq"i məğlubiyyətə uğratmışdır (1:0). Bütün bunlar Tallin matçı ərəfəsində yaxşı əlamətdir.

Estonlarla görüşdən üç gün sonra, oktyabrın 16-da Azərbaycan komandasını Bakıda Avstriya ilə daha ağır sınaq gözləyir. Bugünkü oyunda qələbə liderlə görüş ərəfəsində yerinə düşər, komandanın öz qüvvəsinə inamını artırar.

Estoniya—Azərbaycan görüşündə topa ilk zərbə Bakı vaxtı ilə saat 20-də endiriləcək. Meydanda ədaləti qorumağı isə UEFA almaniyalı hakimlər briqadasına həvalə etmişdir.

Bu gün bizim qrupda keçiriləcək digər oyunda liderlər "münasibətləri aydınlaşdıracaqlar": Avstriya–Belçika. Görək bu görüşlərdən sonra kimin üzü güləcək…

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***


# "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC

## Bakı şəhəri, Nərimanov rayonu, Vaqif prospekti ilə Ceyhun Hacıbəyli küçələrinin kəsişməsindən Nəsib bəy Yusifbəyli küçəsi istiqamətində istirahət parkında tikinti-quraşdırma işlərinin həyata keçirilməsinin satın alınması üçün

## AÇIQ TENDER ELAN EDİR

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları oxşar təcrübəyə, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev küçəsində yerləşən "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC-dən (əlaqələndirici şəxs: Əhməd Məmmədovdan 496-52-05) ala bilərlər: E-mail ahmed.mmmdov@gmail.com ala bilərlər.

İşlərin qısa təsviri:

Bakı şəhəri, Nərimanov rayonu, Vaqif prospekti ilə Ceyhun Hacıbəyli küçələrinin kəsişməsindən Nəsib bəy Yusifbəyli küçəsi istiqamətində istirahət parkında tikinti-quraşdırma işlərinin həyata keçirilməsinin satın alınması.

Tenderdə iştirak haqqı: 10000,00 (on min manat) manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

H/h- AZ22IBAZ38030019446253269215
VÖEN-1702563281
Kod- 805625
VÖEN- 9900001881
M/h- AZ03NABZ01350100000000002944
SWİFT-IBAZAZ2X

İştirakçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün ərizə;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə sənəd (elan verildikdən sonrakı tarixə);
- satınalma müqaviləsini bağlamaq səlahiyyəti olması (malgöndərənin (podratçının) kommersiya qurumunun dövlət reyestrindən çıxarışının, nizamnaməsinin (hüquqi şəxslər), imza səlahiyyətinin olması (direktor təyin edilməsi barədə əmr, əgər təsisçi direktor deyilsə), vergi uçotunda olduğunu təsdiq edən sənədin surəti və rekvizitləri);
- malgöndərənin (podratçının) işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə konkret subpodratçının adı göstərilməklə məlumatlar;
- sahibkarlıq subyektinin bölgüsü;
- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə arayış;
- müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış;
- satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə arayış;
- mühasibat balansları, mənfəət və zərər haqqında hesabat;
- satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması, oxşar işləri əhatə edən ən azı 3 mln manat həcmində sifarişi baş podratçı kimi qənaətbəxş şəkildə icra etməsi haqda məlumat (müqavilə);
- iddiaçı analoji işlərdə təcrübəsinin olması barədə sənədlər təqdim etməlidir;
- iddiaçının avadanlığı və texnikası barədə məlumatlar;
- iddiaçının son 3 ildə 5 milyon manat dövriyyəsi olması şərtdir;
- iddiaçının müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;
- iddiaçının avadanlığı və texnikası barədə məlumatlar.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun keçiriləcəkdir.

İştirakçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 20 noyabr 2023-cü il saat 11.00-a, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 28 noyabr 2023-cü il saat 17.00-a qədər Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev küçəsində yerləşən "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC-yə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Tender iştirakçılarının təklifləri Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev küçəsində yerləşən "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC-də 29 noyabr 2023-cü il saat 11.00-da açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

***Tender komissiyası***



# "AZƏRBAYCAN MELİORASİYA VƏ SU TƏSƏRRÜFATI" ASC-nin

## Tikilməkdə Olan Meliorasiya və İrriqasiya Obyektlərinin Birləşmiş Müdiriyyəti

## "Əlicançay su anbarının tikintisi"nin satın alınması ilə əlaqədar

## AÇIQ TENDER ELAN EDİR

Satınalan təşkilatın adı: Tikilməkdə Olan Meliorasiya və İrriqasiya Obyektlərinin Birləşmiş Müdiriyyəti
VÖEN - 1300300711
Kod - 805562
H/h - AZ 10 IBAZ 38070019449716100216
Bank-"Azərbaycan Beynəlxalq Bankı"nın Yasamal filialı
M/h- AZ03NABZ01350100000000002944
VÖEN -9900001881
SWIFT : IBAZAZ2X (AZIPS-in üzvü)
Əlaqələndirici şəxs- Qulam Şamil oğlu Aslanov (A.A.S)
Satınalan təşkilatın ünvanı- Bakı şəhəri, Yasamal rayonu, Moskva prospekti 69a.
Əlaqələndirici şəxsin E-maili: tomiobm@mst.gov.az
Əlaqə nömrəsi- (012) 431 08 64.
Satınalma predmetinin adı- "Əlicançay su anbarının tikintisi".
Ünvanı - Şəki və Oğuz rayonları

İşlərin qısa təsviri- Su anbarının ümumi su tutumu 108 milyon kubmetr, faydalı həcmi isə 100 milyon kubmetrdir. Əlicançay su anbarına yığılan su ilə Şəki və Qax rayonlarının ərazisində yaradılacaq Aqroparka məxsus ümumi sahəsi 40706 hektar, suvarma netto sahəsi 36635 hektar olan ərazidə mütərəqqi suvarma texnikası və texnologiyaları tətbiq edilməklə qoz, badam, fındıq və zeytun bağları suvarma suyu ilə təmin ediləcəkdir. Eyni zamanda, Şəki rayonunun 12 yaşayış məntəqəsinin 32 min nəfərə yaxın əhalisinin içməli su ilə təmin edilməsi də nəzərdə tutulur.

İşlərin yerinə yetirilmə müddəti – 1080 təqvim günü və yaxud 36 aydır.

Tender təkliflərinin qiymətləndirməsi meyarları– tender təklifinin ödəniş şərti – 10 baldır. İddiaçı bağlanacaq satınalma müqaviləsinin yerinə yetirilməsi üçün avans ödənişi tələb etmədiyi halda bu meyar üzrə müəyyən olunmuş maksimal 10 bal alacaqdır.

İddiaçı tender təklifində 20 faizdən artıq avans ödənişi tələb edərsə, o zaman həmin iddiaçının tender təklifi kənarlaşdırılacaqdır. 20 faiz və daha az avans ödənişi tələb olunan tender təklifinin bu meyar üzrə alacağı bal aşağıdakı düstur əsasında hesablanacaq (20–X)/20x10 X-tender təklifində iddiaçı tərəfindən tələb olunan avans ödənişinin müqavilə qiymətinə nisbətdə faizi. Qiymət təklifi – 90 baldır.

Satınalma müqaviləsinin icrasını təmin etmək üçün tender iştirakçıları lazımi kadr və maliyyə imkanları ilə yanaşı, aşağıdakı meyarlar üzrə ixtisas göstəricilərinə, təcrübəyə, səriştəyə və etibarlılığa malik olmalıdırlar.

• İddiaçının son 10 (on) ildə meliorasiya və su təsərrüfatının inkişafı məqsədilə aparılan işləri tərkibində müxtəlif növ hidrotexniki qurğuların tikintisi və təmir-bərpası üzrə orta illik dövriyyəsi 5 (beş) milyon manatdan az olmamalıdır.

• İddiaçı son 10 (on) il ərzində respublika ərazisində əsas podratçı kimi iri tutumlu su anbarları, hidroqovşaqlar və magistral kanallardan ən azı birinin və onlara bağlı minimum 10 m3/san suburaxma qabiliyyətinə malik müxtəlif növ hidrotexniki qurğuların (suqəbuledici, qəza sutullayıcı, tunel və düker) tikintisi və əsaslı təmir-bərpası təcrübəsinə malik olmalı və həmin işlərə dair minimum 2 obyekt üzrə işbitməni təsdiqləyən sənədləri təqdim etməlidir.

• Satınalma müqaviləsinin icrasına yönəltmək məqsədi ilə iddiaçının malik olduğu sərbəst maliyyə resurslarının və ya bankın zamin olduğu kreditin minimum məbləği 12,0 (on iki milyon manat) manatdan az olmamalıdır.

İştirak haqqı 15.000 (on beş min manat) manatdır.

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər.

1. Tender təklifi təkliflərin açıldığı gündən sonra ən azı 45 bank günü qüvvədə olmalıdır. Tender təklifi Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

2. Tender təklifi qiymətinin 1 faizi məbləğində tender təklifinin təminatı (bank zəmanəti, tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox qüvvədə olmalıdır (bank tərəfindən təqdim edilməlidir).

3. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış.

(vergi xidməti tərəfindən təqdim edilməli, qeydiyyat tarixi cari rüb ərzində olmalı, sənədin əslinin notarial qaydada təsdiq olunub təqdim edilməsi zəruridir).

4. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.

(son maliyyə dövrünə olan məlumatı əks etdirməsi və sənədin əslinin notarial təsdiq olunaraq təqdim edilməsi zəruridir).

5. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.

(bank tərəfindən təqdim edilməli, qeydiyyat tarixi cari rüb ərzində olmalı, sənədin əslinin notarial qaydada təsdiq olunub təqdim edilməsi zəruridir).

6. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi və qeydiyyatdan keçdiyi ölkə.(kommersiya və hüquqi şəxslərin dövlət qeydiyyatı reyestrindən çıxarış iddiaçı tərəfindən təqdim edilməli, nizamnamənin, dövlət reyestrindən çıxarışın və şəhadətnamənin notarial qaydada təsdiq olunmuşunun təqdim edilməsi zəruridir).

7. Rekvizitlər (iddiaçının və ya bankın imzası və möhürü ilə təsdiq edilərək təqdim edilməsi zəruridir).

8. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.

(DİN və ya Asan xidmət tərəfindən təqdim edilməli, sənədin əslinin və ya notarial təsdiq olunmuşunun təqdim edilməsi zəruridir).

Sənədin verilmə tarixi elan olunan aydan etibarən 2023-cü ilin oktyabrından olmalıdır.

9. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması, öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə sənəd.

(vergi xidməti tərəfindən təqdim edilməli, cari rübü əhatə etməli, sənədin əsli və ya notarial təsdiqlənmişinin təqdim edilməsi zəruridir).

10. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin və etibarlılığının olması.

(müsabiqə əsas şərtlər toplusunun BÖLMƏ №3 13.3.8 bəndinə və BÖLMƏ №7 Qoşma №7-yə əsasən iddiaçı tərəfindən təqdim edilməlidir).

11. İddiaçının mikro, kiçik və orta sahibkarlıq subyektlərinin meyarlarına uyğun olması.

(Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən təqdim edilməli, sənədin əslinin və ya notarial təsdiqlənmişinin təqdim edilməsi zəruridir); sənədin qüvvədə olma müddəti "Tələb olunan sənədlərin son təqdim olunma tarixini əhatə etməlidir".

12. İddiaçının müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması.(Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təqdim edilməli sənədin əslinin və ya notarial təsdiqlənmişinin təqdim edilməsi zəruridir.

13.Satınalma müqaviləsini bağlamaq səlahəyyətinin olması.

(imza səlahiyyəti olan şəxsin (əgər təsisçi direktor deyilsə) əmri, sənədin əsli və ya notarial təsdiqlənmişinin təqdim edilməsi zəruridir);

İddiaçılar tenderdə iştirak üçün yuxarıda 3 və 13-cü sıralarda göstərilən sənədləri 6 noyabr 2023-cü il saat 17.00-a qədər qapalı zərfdə əsli və surəti olmaqla Bakı şəhəri, Yasamal rayonu, Moskva prospekti 69a nömrəli ünvana təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçılar tender təklifi və bank təminatını isə 16 noyabr 2023-cü il saat 17.00-a qədər (tender təkliflərinin açılışına 1 (bir) bank günü qalmış) qapalı zərfdə əsli və surəti olmaqla Bakı şəhəri, Yasamal rayonu, Moskva prospekti 69a nömrəli ünvana təqdim etməlidirlər.

İddiaçıların təklifləri 17 noyabr 2023-cü il saat 15.00-da açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

***Tender komissiyası***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 223 (30339) 13 oktyabr 2023-cü il, cümə

Elm

# STEAM dərs metodu nədir?

**Son illər ümumtəhsil məktəblərində STEAM adlı yeni innovativ, yaradıcı dərs tədris olunur. STEAM təhsil metodu beş sahəni– elm (science), texnologiya (technology), mühəndislik (engineering), incəsənət (art) və riyaziyyatı (math) (ETMİR) özündə cəmləşdirib. STEAM bu elmlərin inteqrasiyası deməkdir.**



STEAM tədris metodunun ən çox tətbiq olunduğu ölkələr ABŞ, İngiltərə və Almaniyadır. Bu tədris metodunda şagirdlər riyaziyyat və təbiət fənlərində öyrəndikləri bilikləri layihələrdə tətbiq etməklə öz yaradıcılıqlarını, qrup şəkilində işləmək bacarıqlarını, məntiqi təfəkkürlərini inkişaf etdirirlər. STEAM dərsləri düşündüklərini həyata keçirə biləcək, yaradıcı, bacarıqlı şagirdlər yetişdirmək məqsədi daşıyır.

STEAM dərs saatları şagirdlər üçün maraqlı və əyləncəli olur, onlar dərslərdə fəal və həvəslə iştirak edirlər. Bakı şəhərində də bu metodun tətbiqinə başlanılıb. Şagirdlər belə dərs zamanı hazırladıqları maketlərindən zövq alırlar. Onlar STEAM dərs saatlarını səbirsizliklə gözləyirlər.

*Z.ZİYA*
*XQ*

İdman xəbərləri

## 2 boksçumuz Avropa kubokunun yarımfinalında

***Monteneqronun Budva şəhərində boks üzrə Avropa kuboku yarışında 2 boksçumuz yarımfinala yüksəlib.***



İlk görüşündə Bartumey Roskovici (Polşa) məğlub edən Malik Həsənov (63,5 kq) 1/4 finalda fransalı Lounes Hamraoui üzərində də qələbə qazanıb. Malik Həsənov yarımfinala yüksəlməklə özü üçün, azı, bürünc medalı da təmin edib. Boksçumuz növbəti mərhələdə israilli Ahmat Ştivi ilə gücünü sınayacaq.

Komandamızın digər üzvü Mirşərif Kazımzadə (75 kq) də yarımfinala çıxmaqla özü üçün, ən azı, 3-cü yeri təmin edib. Boksçumuz 1/4 finalda Qabriel Debaniçə (Xorvatiya) 5:0 hesabı ilə qalib gəlib. Mirşərif Kazımzadə final uğrunda rusiyalı Cambulat Bijamovla döyüşəcək.

Yarımfinal qarşılaşmaları oktyabrın 13-də, final döyüşləri isə 14-də olacaq.

## İsrailin daha bir oyunu təxirə salınıb

***İsrail millisinin AVRO-2024-ün seçmə mərhələsində daha bir oyunu təxirə salınıb.***




Bu barədə UEFA-nın mətbuat xidməti məlumat yayıb.

Qeyd edək ki, oktyabrın 15-də səfərdə İsrail millisi Kosovo yığması ilə oynamalı idi. Qarşılaşmanın yeni tarixi yaxın zamanda açıqlanacaq.

Xatırladaq ki, bundan əvvəl İsraildə oktyabrın 12-də keçirilməli olan İsrail – İsveçrə oyunu təxirə salınmışdı. Matçın noyabrın 15-də keçiriləcəyi bildirilsə də, məkanı ilə bağlı heç bir məlumat verilməyib.

## Millimiz İrlandiya yığmasına uduzub

***21 yaşadək futbolçulardan ibarət Azərbaycan komandası Avropa çempionatının seçmə mərhələsində növbəti oyununu keçirib.***

UEFA UNDER21 CHAMPIONSHIP

Millimiz Şimali İrlandiyanın müvafiq yaş qrupundan ibarət komandasını qəbul edib. "Azərsun Arena"dakı qarşılaşma rəqibin 1:0 hesablı qələbəsi ilə başa çatıb. İrlandiya yığması 38-ci dəqiqədə azlıqda qalıb, bir dəqiqə sonra isə Camal Cəfərov penaltidən yararlana bilməyib.

Qeyd edək ki, millimiz qrupdakı ilk matçında səfərdə Serbiya yığmasına da uduzub (0:2).

*Leyla SABİRQIZI*
*XQ*

İçərişəhər XQ-nin gözü ilə

## Buranın hər guşəsi bir başqa aləmdir



*Foto Səadətindir*

Poeziya

## "Ürək odur daim yana"

**Bəxtiyar Vahabzadə poeziyası məna dərinliyi, vətənpərvərlik hissi, özünəməxsus poetik ifadə tərzi ilə sərhədsiz bir ümmana bənzəyir.**



Azərbaycan poeziyasında insan qəlbi, onun döyüntüləri barədə çox şeirlər yazılıb. Bəlkə də, Bəxtiyar Vahabzadə qədər ürəyə xüsusi poetik məna verən başqa bir şair olmayıb.

Şairin alovlu qəlbi Vətənə sevgi ilə çırpınırdı:

***Vətəniyçün lazım gəlsə***
***Polad kimi gərilməsə,***
***Torpağına sərilməsə***
***Demək o heç ürək deyil.***
***O heç mənə gərək deyil.***

Şair qəlbinin ən ümdə arzularından biri Qarabağın azad olunması idi. Bu gün şaddır Vətən üçün narahat olan şairin ruhu, çünki həsrətində olduğumuz Qarabağ özümüzə qayıdıb!

"Ürək odur daim yana", – deyən Bəxtiyarın Vətən, millət yolunda məşəl tək yanan ürəyi heç vaxt sönmədi, çünki şairin qəlb çırpıntıları yazdığı şeirlərin sətirlərində əbədi qaldı:

***Ürək odur daim yana,***
***Od püskürə, alovlana.***

*Z.ZÜLFİYYƏ*
*XQ*

Sağlamlıq guşəsi

## Boymadərən – min dərdə dərman

**Bu gün dünya alimlərinin daha dərindən və geniş araşdırdığı bitkilərdən biri də boymadərəndir. Bitki Avropada, Amerikada, eyni zamanda, Azərbaycanda geniş yayılmışdır.**



Büzücü xüsusiyyətinə görə, ondan ənənəvi olaraq, yaraların sağalması və qanaxmanı azaltmaq üçün istifadə edilmişdir. Bitkidə iltihabı azaltmağa və narahatlığı aradan qaldırmağa kömək edən antiinflamatuar birləşmələri var.

Boymadərənin tərlətmə qabiliyyəti olduğundan, qızdırmanı azaldır, soyuqdəymə və qrip əlamətlərini yüngülləşdirir. Bitkidən həzmi asanlaşdırmaq və şişkinliyi azaltmaq üçün istifadə edilir. Ondan sağlamlıq faydaları olan ətirli çay hazırlanır. Yarpaqları və çiçəkləri kulinariya otu kimi, dadı bir az acı olsa da, şəfa məqsədilə salatlarda, şorbalarda istifadə edilir.

Ənənəvi tibbdə ondan tənəffüs sağlamlığını dəstəkləmək, həmçinin qaraciyər piylənməsində və öd durğunluğunda yardımçı vasitə kimi daim istifadə edirlər.

Xalqımız bu bitkini belə tərif edib:
**Boymadərən havadır,**
**Min bir dərdə davadır.**

**Heyva tumları üzərində elmi araşdırmalar az olsa da, fitoterapevtlər onun bir sıra sağlamlıq üstünlüklərindən söz açırlar. Bildirirlər ki, tumları su ilə qarışdırdıqda lif növü olan selik əmələ gəlir. Həmin selik ishal və qıcıqlanmış bağırsaq sindromu (IBS) kimi problemlərə kömək edir. Həmçinin bağırsaq astarını qoruyucu örtüklə təmin edir, öskürək və boğaz ağrılarını sakitləşdirir.**

## Heyvanın özü də, tumu da...



Ekstrakt nəmləndirici və sakitləşdirici xüsusiyyətinə görə bəzən dəriyə qulluq məhsullarında istifadə olunur. Heyva tumlarında olan lif, toxluq hissi yaradır və iştahı azaldır, potensial olaraq çəkini qaydasında saxlamağa kömək edir. Tumun tərkibində iltihab əleyhinə birləşmələr, həmçinin ümumi sağlamlığa vacib vitamin (C) və minerallar (dəmir və kalium) daxil olmaqla, əsas qida maddələri də var.

Qeyd etmək vacibdir ki, heyva toxumları bu potensial faydalara malik olsa da, onların təhlükəsizliyini təsdiqləmək üçün daha çox elmi araşdırmaya ehtiyac var. Hər hansı bir təbii vasitə və ya əlavədə olduğu kimi, heyva tumu ekstraktı olan məhsullardan istifadə etməzdən əvvəl, xüsusən də hər hansı dərman qəbul edən zaman həkimlə məsləhətləşmək tövsiyə edilir.

*Z.HÜSEYNLİ*
*XQ*

Texnologiya yenilikləri

## "Sony PlayStation 5"in yeni diski

**"Sony" şirkəti "PlayStation 5"in ("PS5") çıxarıla bilən diskinin yeni versiyasını təqdim edib. O, əvvəlki versiyanın üçdəbiri qədər nazikdir və 1 TB yaddaşı var.**




Konsolun digər xüsusiyyətləri orijinal "PS5" versiyasından fərqlənmir. Bu, o deməkdir ki, kompakt versiya əvvəlki model kimi güclüdür.

Yenilənmiş "PlayStation 5" iki modeldə buraxılacaq: diskli və disksiz. İkinci halda, "Blu-ray" diskini konsola qoşa bilərsiniz. Yeri gəlmişkən, o, ayrıca satılacaq.

Daha kiçik "PS5"də üfüqi stend olacaq. "Gamepad" isə, ümumiyyətlə, dəyişməyib. Ekspertlər qeyd edirlər ki, hazırkı "PlayStation 5"in ehtiyatları tükənən kimi daha yığcam "PS5"ə tələb artacaq.

*N.AYTƏN*
*XQ*

HAVA

## Hava mülayim olacaq



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, oktyabrın 13-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər və axşam bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Mülayim cənub küləyi əsəcək.**

Gecə 11-14°, gündüz 16-19° isti olacaq. Atmosfer təzyiqi 773 mm civə sütunundan 766 mm civə sütununa enəcək, nisbi rütubət 60-70 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 9-13°, gündüz 17-22° isti, dağlarda gecə 4° şaxtadan 1°-dək isti, gündüz 5-10° isti olacaq.

*Q. QASIMOV*
*XQ*

**ALLAH RƏHMƏT ELƏSİN**

Məhərrəm Səfərli və Elxan İbadov ailələri ilə birlikdə Bakı Apellyasiya Məhkəməsinin hakimi Azad İmanova anası

**VAHİDƏ XANIM MƏMMƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

| | |
|---|---|
| İNDEKS | 0282 |
| TİRAJ | 4818 |
| SİFARİŞ | 2624 |
| QİYMƏTİ | 40 qəpik |

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır
00:00